## Mövzu:1

## Nitq mədəniyyəti. Nitq mədəniyyətinin predmeti.

"Üslubiyyat və ritorika" fənninin tədrisində məqsəd təhsilalanlara gələcəkdə tabeçiliyində olan insanlarla, iş yoldaşları və rəhbər işçilərlə ünsiyyət problemini həll etməyi öyrətməkdir. Məhz buna görə də fənn tətbiqi xarakterlidir. Onun məqsədi həm də gündəlik işgüzar və akademik fəaliyyətləri qurmaq üçün zəruri şərait yaratmaq, təhsilalanlarda müvafiq psixoloji və əxlaqi keyfiyyətləri formalaşdırmaqdır. Yazılı və şifahi ünsiyyət prosesində üslubi çalarlarla zəngin, düzgün, dəqiq və ifadəli nitqə malik olmaq, ünsiyyət zamanı ədəbi tələffüz, vurğu, intonasiya, emosiya və s. məsələlərin nəzərə alınması və onlara əməl olunmasına riayət etmək, Azərbaycan dilinin üslubları və ritorikanın əsasları haqqında qazanılan bilikləri gələcək fəaliyyətlərində tətbiq etmək bacarığına nail olmaq da üslubiyyat və ritorika fənninin məqsədlərinə daxildir. "Üslubiyyat və ritorika" fənni fikri məntiqi cəhətdən formalaşdırmağa və düzgün ifadə etməyə, dilin müxtəlif səviyyələri üçün qəbul edilmiş normalar əsasında mədəni nitq vərdişlərini yaratmağa, danışıq etikasını və diskussiya mədəniyyətini, şifahi və yazılı ünsiyyəti öyrətməyə kömək edir. Bu fənnin tədrisinin digər vəzifəsi ədəbi dilin funksional üslublarının öyrənilməsi ilə bağlı nəzəri və praktiki məsələlərin, onlara aid sərbəst yaradıcılıq işlərinin yerinə yetirilməsi üçün bilik, bacarıq və vərdişlərin mənimsənilməsinə xidmət etməkdir. Fənni mənimsəməklə Azərbaycan dilinin üslubları və mədəni nitq üçün zəruri olan bilik, bacarıq və vərdişlər qazanmaq olar.

Fənnin aktuallığı, hər şeydən öncə, dilçilik elminin mühüm sahələrindən biri olan üslubiyyatın yaranma və inkişaf tarixinin tədqiqata cəlb olunması ilə səciyyələnir. Bu elm sahəsinin yaranması və inkişaf tarixi ilə bağlı müxtəlif zamanlarda həm dünya, həm də Azərbaycan dilçiləri müəyyən araşdırmalar aparmışdır. Azərbaycan dilçiliyində ayrı-ayrılıqda üslubiyyatla bağlı çox sayda dəyərli tədqiqat işlərinin olmasına, leksik və qrammatik üslubiyyat sahəsində zəngin araşdırmaların aparılmasına baxmayaraq, üslubiyyatın yaranma və inkişaf tarixi ilə bağlı araşdırmalar azlıq təşkil edir. Ölkəmizdə dilçiliyin üslubiyyat bölməsi haqqında ilk sistemli tədqiqatlar dilçi-alim Əbdüləzəl Dəmirçizadəyə məxsusdur. Sonralar isə müxtəlif dövrlərdə Afad Qurbanov, Türkan Əfəndiyeva, Qızqayıt Mustafayeva və başqalarının tədqiqatlarında üslubiyyatın bəzi məsələləri ilə bağlı əhəmiyyətli məsələlərdən bəhs olunmuşdur. Azərbaycan üslubiyyatının inkişaf tarixinin tədqiqi məsələsi bu cəhətdən xüsusi aktuallıq kəsb edir. Natiqlik sənətinin bir elm sahəsi kimi təşəkkül tapdığı dövrdən başlayaraq düzgün, aydın, səlis və məntiqi danışanlar cəmiyyət tərəfindən də həmişə yüksək qiymətləndirilmişdir. Bu cür danışığa isə, şübhəsiz, mədəni nitqə verilən tələblərə uyğun danışıq qabiliyyətli insanlar malik ola bilərlər. Mədəni nitqə yiyələnmək üçün leksik-qrammatik normaların tələblərinə əməl etməklə bərabər həm də nitq üslubi cəhətdən düzgün qurulmalı, bir sözlə, sözlər və ifadələr düzgün seçilməlidir ki, fikrin düzgünlüyünə və aydınlığına xələl gəlməsin. İstər şifahi, istərsə

də yazılı nitqdə hər bir sözün leksik, qrammatik mənasını, etimologiyasını bilmək tələb olunur. Ünsiyyət zamanı üslubi cəhətdən zəngin nitqə malik olmaq üçün ədəbi dilin normalarını və dil vahidlərinin üslubi keyfiyyətlərini də mükəmməl bilmək lazımdır. Tədqiqatçı Qızqayıt Mustafayeva qeyd edir ki: "Ədəbi dilin əsasını ümumxalq dili vahidləri və hamı üçün ümumi olan cəhətlər təşkil edir. Lakin bir sıra məhdud sahələrlə əlaqədar ədəbi dil ifadəlilik vasitələri sisteminə görə müxtəlif qollara ayrılır ki, buna da ədəbi dilin üslubları deyilir" [8, s.17]. Üslubların tarixi qədim olsa da, üslubiyyatın yaranması XX əsrin birinci rübünə təsadüf edir. Praqa funksional dilçilik məktəbinin banisi Villem Mateziusdan başlayaraq müasir dövrümüzədək üslubiyyatla bağlı bir çox tədqiqatlar aparılsa da, həm üslub, həm də üslubiyyat haqqında hamının qəbul etdiyi birmənalı fikir yoxdur. Bəzi tədqiqatçılar məsələyə ədəbiyyatşünaslıq prizmasından yanaşaraq üslubiyyatı ədəbiyyat nəzəriyyəsinə aid etsələr də, akademik V.V.Vinoqradov "bədii üslub məhz bədii dillə yaranır, elə buna görə də üslubiyyat daha çox dilçilik sahəsinə aid edilməlidir" – deməklə üslubiyyat elminin müstəqil dil sahəsi olduğunu sübuta yetirdi. Azərbaycan ədəbi dilində də üslubların tarixinin qədim olmasına baxmayaraq, üslubiyyatın fundamental araşdırılması XX əsrin birinci rübünə təsadüf edir. Bu sahədə müəyyən cəhdlər edilsə də (məsələn, A.Tağızadə, X.S.Xocayev. Müxtəsər üslubiyyat (red: B.Çobanzadə), 1933), ilk sistemli və əsaslı tədqiqatlar Ə.Dəmirçizadəyə məxsusdur. Onun "Azərbaycan dilinin üslubiyyatı" (1962) əsəri dilimizdə bu sahədə ilk fundamental tədqiqat əsəridir. Müəllif bu əsərində yazır: "Üslubiyyatda səslərin, sözlərin, ifadələrin, cümlələrin və eləcə də bütün qrammatik qaydaların məhz məna və təsir qüvvəti cəhətindən ölçülüb seçilməsi və hansının daha üstün, məqsədə daha çox uyğun olmasını müəyyənləşdirmək yolları aydınlaşdırılır. Buna görə də, demək olar ki, üslubiyyatda geniş mənada sinonimlər, yəni məna və məzmunca yaxın olan, yaxud nisbi mənada eyni olan ifadələr, sözlər, qrammatik vasitələr tutuşdurulur və hansının işlədilməsinin məqsədə daha uyğun olduğu müəyyənləşdirilir [4, s.22]. Üslubiyyatın yaranması və inkişaf tarixi ilə bağlı professor Nadir Abdullayev yazır: "XIX əsrdə Azərbaycanda M.Ş.Vazeh, M.F.Axundov, A.A.Bakıxanov, Q.Zakir kimi praktik natiqlər, bu sahənin nəzəriyyəçiləri yetişmişdir. M.F.Axundov özünün bədii və elmi yaradıcılığında mədəni nitq, natiqlik məharəti, fəsahətli kəlam, nitqin Nəsrəddin Musayev "Üslubiyyat və ritorika" fənninin mövzusu, məqsəd və vəzifələri müxtəsərliyi və aydınlığı, səhnə dili, dilimizin orfoqrafiya və orfoepiya normaları və s. haqda elmi-nəzəri fikirlər, mülahizələr söyləmişdir... XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərən qabaqcıl, mütərəqqi ziyalılar, maarifçilər, müəllimlər dilimizin saflığı, yad təsirlərdən qorunması, bu dildə danışmağın zəruriliyi, təlimin Azərbaycan dilində aparılmasının vacibliyi və s. məsələlərlə bağlı çox faydalı fikirlər söyləmişlər..." [1, s.23]. Üslubiyyata nəzərən üslub (stil) daha qədim və geniş anlayışdır. Üslub termin kimi bir işi, fəaliyyəti həyata keçirmək üçün üsul, yol, vasitə, tərz anlamını ifadə edir, müəyyən olunmuş istifadə tərzini, yolunu bildirir. Musiqidə, rəssamlıqda, heykəltəraşlıqda, memarlıqda bu anlayışa tez-tez təsadüf edilir. Məsələn, klassik

musiqi üslubu, rəngli boya üslubunda yaradılmış rəsmlər, İtaliya heykəltəraşlıq üslubu, Şərq üslubunda tikilmiş binalar və s. Nitq üslubu isə ünsiyyətlə bağlıdır. Bu səbəbdəndir ki, "üslubsuz nitq yoxdur, hər bir nitq (istər şifahi, istərsə də yazılı) həm ədəbi dilin normaları daxilində həm də özünəməxsus tərzə malikdir" [6, s.3]. Dil üslublarının hamısı dilin inkişaf səviyyəsindən asılıdır. "Üslub bir məfhum kimi qədim Yunanıstanda meydana gəlmiş, sonralar dünya dilçiliyində müxtəlif səviyyələrdə tədqiq olunmuşsa da, Azərbaycan dilçiliyində XX əsrin əvvəlində tədqiqat meydanına çıxmışdır. İlk əvvəllər "dilin gözəlliyi", "yazıçının fərdi üslubu", "ünsiyyət manerası", "gözəl nitq", "axıcılıq, dəqiqlik", "ədəbi axın" haqqında elm kimi dərk olunmuşdur. Üslubiyyat bir elm kimi üslublar haqqında nəzəriyyə olub, fikrin sözlə ifadəsinin daxili aspektini öyrənir. Bu baxımdan üslubiyyat ədəbiyyat və dilin kəsişməsində özünü reallaşdırır" [5, s.7–8]. Azərbaycan dilinin üslubları dil vasitələrindən məqsədəuyğun və nizamlı şəkildə istifadə edə bilmək tələbatından yaranmışdır. "Dilin üslubiyyatı dilin üslubu quruluşunu – yəni üslublar sistemini həm sinxron, həm də diaxron planda, nitq üslubiyyatı isə nitq üslublarını, yəni əsas janrlar çərçivəsində kompozisiya sistemini, yaxud ictimai nitqin konstruktiv növlərini öyrənir" [3, s.108]. "Dilçiliyin digər sahələrindən fərqli olaraq üslubiyyat ədəbi dilin normalarının həm müstəqil, həm də şərti məqsədəuyğunluq əsasında istifadə edilməsi mümkün olan variantlarını tədqiq edir. Dilin ifadəlilik vasitələrindən məqsədəuyğun surətdə istifadə etmək, normaların pozulması şərtlərini tapıb onların qarşısını almaq üçün yollar göstərmək və müəyyən qrammatik formanın ona xas olmayan vəzifə və mənada işlədilməsinə yol verməmək üslubiyyatın əsas vəzifəsidir" [7, s.108]. Dildə üslubi normaların əsasını mədəni nitqə verilən əsas tələblər təşkil edir. Bu normalar ədəbi dilin normaları ilə bilavasitə bağlıdır. Çünki nitq prosesində ədəbi dil normalarının hər hansı birinin pozulması üslubi normaların pozulmasına səbəb olur.

Üslubi normaların tələblərinə riayət olunması isə kommunikator və respientlər, yazıb oxuyanlar arasında ən münasib dil ünsiyyətinə şərait yaradır. Ona görə də üslubiyyatın bir elm sahəsi kimi öyrənilməsində üslubi normaların, onların əsas ölçü vahidləri olan düzgünlük, dəqiqlik, məntiqilik, estetikliyin mühüm əhəmiyyəti vardır. Çünki ədəbi dil normaları çərçivəsində fəaliyyət göstərən düzgünlük olmasa, ünsiyyətin dəqiqlik, məntiqilik və aydınlıq kimi kommunikativ keyfiyyətləri pozular. Nitqi üslubi cəhətdən düzgün qurmaq həm də cümlələrin qrammatik normaya uyğun düzgün qurulması, sözlərin düzgün işlədilməsi deməkdir. N.Q.Çernışevskinin sözləri ilə desək, "ifadənin qeyri-dəqiqliyi və dolaşıqlığı, əlbəttə, fikrin dolaşıqlığına təsir göstərir. Dil şüurun ifadə formasıdır; dil düzgün deyildirsə, deməli, şüur da qüsurludur. Əgər nitq səliqəsiz və anlaşılmazdırsa, deməli, orada fikrin özü də qeyridəqiqdir" [2, s.374]. Lakin bununla belə, düzgünlük üçün yalnız qrammatik qaydalara əməl etmək kimi tələb qoymaq olmaz. Əslində, ədəbi dilin digər normalarının tələb və şərtlərinə də əməl olunmalıdır. Nitqin düzgünlüyü üçün başlıca şərtlərdən biri də fikrin reallıqla bağlılığı, gerçəkliyi olduğu kimi ifadə etmək səriştəsidir. Nitqin ilk və əsas şərti olan dəqiqlik

gerçəklik və təfəkkürlə əlaqənin, fikrin dil vasitələri ilə düzgün verilməsinin göstəricisidir. Dəqiqlik sözlərin semantikasını, sinonimliyi, çoxmənalılığı, terminləri, müxtəlif funksional üslubları və qrammatik formaları yaxşı bilməklə mümkündür. Nitq söyləyən obyektiv gerçəkliyi doğru və inandırıcı əks etdirən fikirlər ifadə edə, dediklərini dəlillərlə, sübutlarla və faktlarla əsaslandıra bilirsə, deməli, üslubi normanın məntiqilik tələbinə əməl edir. Elmi informasiyalar məntiqə əsaslandığı üçün məntiqilik nitqin ən mühüm keyfiyyəti hesab olunur. Ümumi cəhətlərinin çoxluğunu nəzərə alsaq, məntiqiliyin dəqiqliklə daha çox bağlı olduğunu deyə bilərik. Dəqiqlik mətnin mənası, nitqin semantik bütövlüyü, məntiqilik isə nitqin semantik strukturu ilə səciyyələnir [1, s.127]. Nitqi üslubi cəhətdən düzgün ifadə etmək üçün məntiqin eyniyyət, ziddiyyət, üçüncünü istisna və yetərli əsas qanunlarını mükəmməl bilmək tələb olunur. Üslubi normanın ölçü vahidlərindən biri olan estetiklik özündə nitqin obrazlılığı, emosional keyfiyyəti və təsirliliyini ehtiva edir. Üslubi vasitə dedikdə, dilin rəngarəng, zəngin üslubi imkanlara malik olan obrazlı vahidləri və məcazları nəzərdə tutulur. Məcazlarla yanaşı, dildə üslubi keyfiyyəti zənginləşdirmək üçün ən uyğun ifadələri seçmək imkanı verən sinonimlər də çox geniş üslubi imkanlara malikdir. Doğrudan da, seçmə prinsipi üslubiyyatın ən əsas prinsipidir. Sinonimlik dilin bütün üslubi layları üçün xarakterikdir. Frazeologizmlər də üslubi vasitələrə daxildir. Sinonim cərgəni təşkil edən leksik vahidlər içərisində frazeologizm ən ifadəlisi sayıldığından seçmə prosesi zamanı olduqca vacibdir.

Yekun olaraq fənnin tədrisindəki məqsədləri belə ümumiləşdirmək olar;

• mənadan doğan forma rəngarəngliyinin dilin üslubi imkanları əsasında yarandığını, nitq mədəniyyətinə yiyələnməyin əhəmiyyətini və önəmini öyrətmək;

• danışanın və ya yazanın dil vasitələrindən, onun fonetik, leksik və qrammatik imkanlarından məqsəd və məqama uyğun istifadə edəbilmə tərzini mənimsətmək;

• nitqi mədəni nitqə verilən tələblərə uyğun qurmaq səriştəsini aşılamaq;

• nitq prosesində fonetik hadisə və qanunların rolunu öyrətmək;

• verbal və qeyri-verbal ünsiyyətin əhəmiyyətini, onlardan yerində istifadənin nitqin keyfiyyətinə təsirini göstərmək.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, istər şifahi, istərsə də yazılı nitq üslubi cəhətdən düzgün qurulmalı, yəni danışarkən elə sözlər seçilməlidir ki, fikir dəqiq və aydın ifadə olunsun. Danışan və ya yazan işlətdiyi hər bir sözün nəzərdə tutulan fikrin ifadəsi üçün nə dərəcədə əhəmiyyətli olmasını nəzərə almalıdır. Həm danışıqda, həm də yazıda hər hansı bir söz öz həqiqi mənasından başqa digər mənalarda da işlədilir. Mənadan doğan forma rəngarəngliyi dilin üslubi imkanları əsasında yaranır ki, bütün bunlar üslubiyyat bəhsində öyrənilir. Azərbaycan dilinin üslubi imkanlarından yerində, ünsiyyətin tələblərinə uyğun istifadə etməyi, ədəbi dilimizin ifadə vasitələrindən konkret şəraitlə bağlı yararlanmağı bacarmalıyıq. Dil vahidlərinin

üslubi keyfiyyətləri müxtəlifdir. Bu keyfiyyətlər dilin fonetikası, leksikası və qrammatikasının imkanları sayəsində yaranır, nitqə üslubi çalarlıq gətirir, onu səlis, çevik, mənalı və kəsərli edir, estetik təsir gücünü artırır. Hər bir şəxs yazılı və şifahi ünsiyyət prosesində üslubi çalarla zəngin, düzgün, dəqiq və ifadəli nitqə malik olmalı, ədəbi tələffüz, vurğu, intonasiya, emosiya və s. məsələlərin nəzərə alınması və onlara əməl olunması qaydalarını bilməlidir. Ali təhsil pilləsində yeni olan "Üslubiyyat və ritorika" fənninin proqramı hazırlanarkən bu məsələlər nəzərə alınmış, natiqlik sənəti və üslubiyyat haqqında anlayışlar, nitq vərdişlərinin aşılanması, natiqlik sənətinin xüsusiyyətləri, natiqin təfəkkür və davranış mədəniyyəti, nitqində obrazlılıq, karyeranın artırılmasında natiqliyin rolu və s. məsələlərin öyrənilməsinə imkan verən mövzulara üstünlük verilmişdir. Bu fənn tələbələrin istər yazılı, istərsə də şifahi nitqinin inkişafına geniş imkanlar yaradır, Azərbaycan dilinin üslubları və natiqlik sənətinin əsasları haqqında qazanılan bilikləri gələcək fəaliyyətlərində tətbiq etmək bacarığı aşılayır. Proqramın tərkib hissələri məntiqi cəhətdən bir-birini tamamlayır. Sonda verilən əhatəli ədəbiyyat siyahısı proqramdan daha səmərəli istifadə etmək üçün şərait yaradır.

**ƏDƏBİYYAT**


1. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
2. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
3. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
4. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
5. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu:2

## Nitq mədəniyyətinin tədqiqi, inkişafı və təbliği. Ritorikanın başqa elmlərlə əlaqəsi

Qədim zamanlardan bəri məzmunlu, obrazlı, aydın, yığcam, təsirli nitqə malik olan adamlar cəmiyyət tərəfindən həmişə yüksək qiymətləndirilmişlər. Nitqin gözəlliyi və ona sahib olmağın yolları, vasitələri daima böyük şəxsiyyətlərin diqqət mərkəzində olmuşdur. Miladdan əvvəl Qədim Misirdə, Hindistanda, Çində, Babilistanda, Ərəbistanda və bir sıra digər yerlərdə görkəmli natiqlər yetişmişdir. Lakin natiqlik sənətinin, gözəl nitqin, bəlağətli danışığın, nitq mədəniyyətinin əsl vətəni qədim Yunanıstan olmuşdur. Ritorikanın tarixi e.ə.V-IV əsrlərdən başlanır. Ritorika (natiqlik sənəti) dedikdə, onu həm elm, həm də sənət kimi başa düşmək lazımdır. Qədim Yunanıstanın ictimai-siyasi həyatındakı mübarizələr, iqtisadiyyatda baş verən irəliləyiş, elmi tərəqqi və s. ilə bağlı Afina şəhər dövlətində natiqlik sənəti inkişaf

etməyə, yüksəlməyə başlayır. Eyni zamanda ritorikanın nəzəri problemləri də hazırlanıb sistemləşdirilir, elmi-nəzəri əsərlər meydana gəlirdi.

Eramızdan əvvəl VII-IV əsrlərdə fəaliyyət göstərən yunan natiqlik məktəbi Aristotel, Antifont, Andokid, Lisiy, İsey, Sokrat, Solon, Kvintilian, Demosfen, Hipeorid, Likurq, Esxil, Dinarx və b. kimi görkəmli natiqlər yetirmişdir. Antik yunan natiqlik sənətinin yaranması və inkişafında *Aristotelin* xüsusi rolu olmuşdur. O, **e.ə. 335-ci ildə "Ritorika" adlı** əsərini yazıb natiqlik sənətinin elmi əsaslarını vermiş, sənəti insan fəaliyyətinin xüsusi növü kimi qiymətləndirmiş, natiq nitqinin quruluşunu, üslubunu, orfoepiyasını, ifadəlilik vasitələrini və s. geniş şəkildə izah etmişdir. "Ritorika" əsəri *üç hissədən* ibarətdir:

a) Nitqin tərtibi prinsipi;

b) Natiq üçün lazım olan şəxsi keyfiyyət və qabiliyyət;

c) Nitqin texnikası, vasitələri və priyomları.

Aristotel natiqin məharətinin *beş cəhətini* xüsusi qeyd edirdi:

1. Materialın icadı və onun hazırlanması.
2. Planın tərtibi. Materialın plan üzrə müvafiq formaya salınması.
3. Həmin materialın öyrənilməsi və yadda saxlanılması.
4. Materialın şifahi şərhinin ədəbi-üslubi cəhətdən işlənməsi.
5. Nitqin söylənilməsi, orfoepiya (ədəbi tələffüz), intonasiya, emosiya və s. məsələlərin nəzərə alınması və onlara əməl olunması.

Aristotel yaxşı nitq üçün materialın düzgün seçilməsi, planın tutulması, onun mükəmməl öyrənilməsi, söyləmə zamanı uyğun üslubun müəyyənləşdirilməsi, orfoepik və intonasiya qaydalarına əməl edilməsi, emosiyaların özünəməxsus forma ilə verilməsini mühüm şərt sayırdı.

Qədim Yunanıstanda natiqlik sənətinin inkişafına güclü təsir göstərən səbəblərdən biri də *Solon qanunları* olmuşdur. Bu qanunlara görə hər bir afinalı məhkəmədə öz hüququnu müdafiə etməyi bacarmalı idi. Belə bir tələb əsasında afinalılar hüquqi biliklərə yiyələnməyə, həm də öz hüquqlarını müdafiə etmək üçün aydın, təsirli, məntiqli, sübutlu, rabitəli danışa bilməyə xüsusi səy göstərirdilər. Afinada məhkəmə proseslərini 501 nəfər münsiflər heyətindən ibarət olan vətəndaş aparırdı. Kimin müqəssir olub-olmaması əksəriyyətin səs verməsi yolu ilə müəyyənləşdirilirdi. O zaman məhkəmədə vəkillər fəaliyyət göstərmədiyindən vətəndaşlara loqoqraflar kömək edirdilər. Loqoqraflar hüquqi təhsil almış adamlar idilər, onlar xüsusi muzdla məhkəmədə baxılacaq işin məzmun və mahiyyəti ilə bağlı nitqlər yazırdılar. İşi məhkəməyə düşən afinalı həmin nitqi əzbərləyir və məhkəmə prosesində özünü müdafiə edirdi.

Lisi, Hiperid, Esxin, Trasimax, Demosfen öz dövrlərinin görkəmli loqoqrafları, natiqləri olmuşlar. Bunlardan *Demosfen* antik natiqliyin yaranması və inkişafında xüsusi rol oynamışdır. Onun natiqlik sənətinə yiyələnməsi heç də asan yolla olmamışdır. Nitqi qüsurlu olan Demosfen (onun dili bir qədər pəltək imiş, müəyyən səsləri düzgün tələffüz etmir, danışanda yersiz əl-qol atır, sağ çiynini tez-tez çəkirmiş) sözləri daha aydın ifadə edə bilmək üçün ağzına xırda daşlar alaraq dəniz kənarında nitq söyləyər, danışarkən çiynini atmağı tərgitmək üçün tavandan asılı bizin altında

durarmış. Səsini inkişaf etdirmək məqsədi ilə ucadan qışqırar, öz səsi ilə dalğaların səsini boğmağa çalışarmış. Uzunmüddətli məşqlər Demosfeni natiqlik sənətinin zirvəsinə yüksəltdi. Siseron onun haqqında demişdir: “Kim Demosfen olmaq istəmirsə, o natiq deyil”.

Demosfen natiqlik sənətinin nəzəriyyəçilərindən biri idi. O, ritorika ilə bağlı bir sıra əsərlər yazmış, bu elmi nəzəri və praktik cəhətdən şərh etmiş, faydalı fikirlər, mülahizələr söyləmişdir. Məsələn, ona görə, natiqlik sənətində aşağıdakı tələblərə əməl olunmalıdır:

1) materialın toplanması.
2) materialın məqsədəuyğun söylənilməsi üçün planın tərtibi.
3) nitqin məzmununun öyrənilməsi, mənimsənilməsi.
4) məzmunun dinləyicilər qarşısında söylənilməsi.

Yunan natiqliyinin tənəzzülündən sonra onun mərkəzi qədim Romaya köçür. Roma Yunanıstanı işğal etsə də, humanitar elmlər sahəsində ondan çox sey götürməli oldu. Ellin mədəniyyətini qəbul etməli olan Roma qrammatikanı, poetikanı, habelə ritorikanı da yunanlardan qəbul etməyə məcbur oldu. Bu ehtiyac Roma natiqlik sənətinin yaranması və inkişafına güclü təkan verirdi.

Qədim dünyanın bu dövləti natiqlik sənətinə bir sıra görkəmli şəxsiyyətlər bəxş etmişdir. Katon (b.e.ə.234-149), Qrakxi (b.e.ə.163-132), Antoni Mark (b.e.ə.83-30) kimi söz ustaları Roma natiqlik məktəbinin yetişdirmələri olmuşlar. Bunların içərisində bir natiq kimi dünya şöhrəti qazanmış görkəmli dövlət xadimi, ritorika alimi, mütəfəkkir *Siseron* (b.e.ə.106-43) xüsusilə fərqlənirdi. Siseron natiqlik sənəti ilə bağlı “Natiqlik haqqında”, “Brut, yaxud məşhur natiqlik haqqında” və “Natiq” traktatlarını yazmışdır. Bu üç traktat natiqlik sənətinin tarixi, üslubiyyat, nitq mədəniyyəti məsələlərinin nəzəri və praktik şərhi baxımından çox əhəmiyyətlidir.

Qədim Roma natiqlik məktəbinin nümayəndələrindən biri də *Mark Fabiy Kvintilian* olmuşdur. O, natiqlik nəzəriyyəçisi kimi tanınmışdır. Kvintilian *“Natiqlik təhsili”* adlı 12 kitabdan ibarət əsər yazmışdı. Həmin kitablarda natiqlik sənətinin elementləri və ritorikanın mahiyyəti, nitq üzərində işin mərhələləri (mövzunun seçilməsi, yerləşdirilməsi, yadda saxlanılması, nəqli, aydın tələffüzü), natiqlik sənətinə, natiqlərin fəaliyyətinə verilən tələblər və s. məsələlər şərh olunmuşdur. Kvintilian natiqlik sənətinə yiyələnməyi təhsilin zirvəsi hesab edirdi. O, bunu obrazlı şəkildə belə ifadə edirdi: “Şair doğulurlar, natiq isə olurlar. Natiqlik sənətinə isə təlimin köməyi ilə yiyələnmək mümkündür”.

Natiqlik sənətinə qədim mədəniyyət tarixi olan Şərqdə də maraq yaranmış, ritorika elminə insan fəaliyyətinin xüsusi növü kimi yüksək qiymət verilmişdir. Şərq dünyasının böyük alimi Əli ibn Sina (980-1037), şair və filosofları - Firdovsi (934-1024), Əbu Reyhan Biruni (973-1048), Mahmud Kaşğari (1029- 1126), Sədi Şirazi (1184-1291) və b. öz əsərlərində sözə yüksək qiymət vermiş, danışıq qabiliyyətinin, sözdən istifadə bacarığının insan ləyaqəti ilə üzvi şəkildə bağlı olduğunu müdrik sözlərlə, ifadələrlə oxucularına çatdırmışlar.

Azərbaycanda da natiqlik sənətinin yaranması tarixi qədimdir. Bu sənət xalqın ədəbi-estetik fikri ilə bağlı qədim və orta əsrlərdə yazıçı və şairlərin şərh, risalə, təzkirə, bədii əsərlərində yaranmış, təşəkkül tapmış, həmin mənbələrdə sözün qüdrəti ilə bağlı dəyərli fikirlər söylənilmişdir. Azərbaycan şifahi xalq ədəbiyyatında söz, gözəl danışmaq qabiliyyəti bəşəriyyətin təməl daşı kimi qiymətləndirilmiş, xilqətin əzəlinin söz olduğu təlqin edilmişdir. Orta əsrlər dövrünün ən görkəmli alimlərindən biri olan *Nəsrəddin Tusi* özünün "Əxlaqi-Nasiri", "Abad-ül-mütəllimin" və digər əsərlərində sözün qüdrətinə, natiqlik sənətinə yüksək qiymət vermişdir. Azərbaycan ədəbiyyatı tarixində nitqin, danışığın gözəlliyinə yüksək qiymət verənlər çox olmuşdur. Ədəbi-tarixi mənbələrə görə, Fələki Şirvani, Mücirəddin Beyləqani, Əfzələddin Xaqani, Nizami Gəncəvi, İzzəddin Həsənoğlu, Nəsirəddin Tusi, Əbdülrəşid Bakuvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Saib Təbrizi, Molla Pənah Vaqif, Qətran Təbrizi, Şah İsmayıl Xətai, Marağalı Əvhədi və b. böyük natiqlər olmuşlar. Onların yazdıqları bədii əsərlərdə natiqlik məharəti, nitq kamilliyi mədəniyyəti, nitqin təsir qüvvəsi, nitqdə forma və məzmun vəhdətinin gözlənilməsi və s. haqqında janrın verdiyi imkan ölçüsündə elmi-nəzəri fikir və mülahizələr söylənilmiş, söz sənətinə yüksək qiymət verilmişdir.

***Natiqlik sənətinin cəmiyyətdə rolu və onun növləri***. Xalq yaradıcılığının incilərindən olan natiqlik sənəti cəmiyyətdə mühüm yer tutur. Natiqlik sənəti hər bir insanın qabiliyyətini, istedadını üzə çıxarır. Natiqlik sənətinin ən böyük rolu ondan ibarətdir ki, bu sənət vasitəsilə yeni natiqlər və cəmiyyətə xidmət edən təbliğatçılar yetişir. Natiqliyin əsas xüsusiyyətlərindən biri odur ki, bu sənət ilə məşğul olan hər bir adam hansı mövzuda nitq söyləyirsə, həmin elmi dərindən öyrənir və müşahidələr aparır. Bu da fikrin elmi əsaslarla ifadə olunmasına xidmət edir.

Millətindən asılı olmayaraq hər bir natiq xalqına yaxından bağlı olur və həqiqətlərin üzə çıxarılmasında, kütləyə çatdırılmasında öz məharətlərindən istifadə edirlər. Bu bir danılmaz faktdır ki, XX əsr Azərbaycanda natiqlik sənəti və onun inkişafı yeni mərhələyə qədəm qoydu. Bu dövrdə natiqlik sənəti, üslub və üslubiyyat haqqında dəyərli fikirlər, elmi məqalələr, kitablar, dərsliklər yazılıb çap olunmuşdur. Dünya natiqlik sənəti, onun ən gözəl nümunələri Azərbaycan dilinə çevrilmiş və onlardan layiqincə istifadə olunmuşdur. Məhz, bu illərdə Mirzə İbrahimov, Səməd Vurğun, Əli Sultanlı, Həmid Araslı, Əbdüləzəl Dəmirçizadə, Hadi Mirzəzadə, Mir Cəlal, Afad Qurbanov, Yusif Seyidov, Ağamusa Axundov, Tofiq Hacıyev və başqa görkəmli dilçilər, söz ustaları, uslub və üslubi prinsiplər haqqında, ədəbi dil, dil tarixi haqqında elmi əsərlər, kitablar, məqalələr yazıb çap etdirmişlər. Müasir dövrümüzdə xalq kütlələri arasında, idarələrdə, müxtəlif sahələrdə çalışan insanları informasiya ilə təmin etmək üçün cəmiyyətimizə savadlı natiqlər lazımdır. Natiq xalqının həm təbliğatçısı, həm də təşkilatçısı olmalıdır. Ona görə də cəmiyyətimizin qaymağı sayılan müəllimlər, mədəniyyət xadimləri, bilik cəmiyyətlərində fəaliyyət göstərən mühazirəçilər, ağsaqqallar natiqlik sənətinin əsaslarını dərindən öyrənməli və yeri gəldikcə məqsədyönlü şəkildə bundan istifadə etməlidirlər. Bu günümüzün tələblərinə cavab vermək üçün hər bir natiq dərin biliyə və müşahidə qabiliyyətinə malik olmalıdır. Natiq həmçinin dilin incəliklərini dərindən bilməlidir.

Natiqlik sənəti heç vaxt təknövlü olmamış, konkret tətbiq sahəsindən asılı olaraq, tarixən müxtəlif növlərə bölünmüşdür. Müasir elmi və metodik ədəbiyyatda natiqin nitqinin çoxsaylı növləri sadalanır və onlar müxtəlif əsaslara görə təsnif edilir. Bəzi müəlliflər şifahi çıxışları monoloji və dialoji, digərləri isə emosional və rasional olaraq təsnif edirlər. Nitqin əsas növləri sosial baxımdan yerinə yetirdiyi funksiyadan asılı olaraq nitqin müəyyən formalarını birləşdirir:

• *Sosial-siyasi natiqliyə*- sosial-siyasi və siyasi-iqtisadi mövzularda məruzələr, siyasi nitq, diplomatik nitq, siyasi icmal, mitinq nitqi, təşviqatçı nitqi;

• *Akademik natiqliyə* - ali məktəb mühazirələri, elmi məruzə, elmi icmal, elmi məlumat;

• *Məhkəmə natiqliyinə* - prokurorun, yaxud ittihamçının nitqi; ictimai- ittiham nitqi; vəkil, yaxud müdafiəçi nitqi; ictimaimüdafiə nitqi; müttəhimin özünümüdafiə nitqi;

• *Sosial-məişət natiqliyinə* - yubiley nitqi, masa ətrafındakı nitq (tost), xatirə nitqi (dəfn zamanı nitq);

• *Dini-məscid(kilsə) nitqinə* - moizə, dini müəssisədəki nitq aid edilir.

**Natiqliyin səciyyəvi xüsusiyyətləri.** Natiqliyin səciyyəvi xüsusiyyətləri ümumiləşdirsək, əsasən, insanların davranışları, mədəniyyətləri, ictimai münasibətləri və bu münasibətlərin təsir etdiyi cəmiyyətə aid özəllikləri əhatə edir. Bu, insanların mənəvi, siyasi, iqtisadi və sosial məqamlarda olan tərəqqiləri ilə bağlıdır. Natiqlər həmçinin cəmiyyətin formalaşmasında, insanların fikirlərinin və dəyərlərinin formalaşmasında, mədəniyyətin inkişafında, mənəviyyatın güclənməsində və sosial dəyişikliklərin təmin edilməsində əhəmiyyətli rol oynayırlar. Natiqlər liderlik göstərə, vətəndaşların fikir və inanclarını formalaşdır bilər, cəmiyyəti bir araya gətirə və dəyişiklikləri təşkil edə bilərlər.

**Ritorikanın başqa elmlərlə əlaqəsi.** Məlumdur ki, heç bir elm təkcə öz qanunları əsasında, təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Bu. bütün təbiət və cəmiyyət hadisələrinə aiddir. Hər bir fərd cəmiyyətin üzvü kimi yaşayır və inkişaf edir. Cəmiyyətin başqa üzvləri ilə əlaqəsini itirmiş adam sosial həyatın fəal üzvü ola bilməz. Beləliklə, cəmiyyət struktur sistemindən çıxmış olar. Amma bu, o demək deyil ki, hər bir adam bütün insanlarla əlaqədə və münasibətdə olmalıdır. İnsan yalnız yaxın adamlarla təşkil olunmuş cəmiyyətin fəal üzvü olub, cəmiyyətin bütün adamları ilə əlaqə və münasibət qura bilər. Elm də belədir. Hər bir elm öz obyekt və predmetini və sərhədlərini müəyyən etdikdən sonra başqa elmlərin elmi uğurlarından istifadə etməklə daha da inkişaf edir. Burada da hər bir elmin özünə yaxın – uyğun olan elmlərlə əlaqəsi daha möhkəm, başqa elmlərlə əlaqəsi isə nisbətən zəif olur. “Üslubiyyat və ritorika” fənni də humanitar elm sahəsi olduğu üçün ilk öncə bu elmlərlə əlaqədardır:

1) Dilçilik;
2) Ədəbiyyat – Ədəbiyyatşünaslıq;
3) Üslubiyyat;
4) Tarix;
5) Etika;
6) Estetika;

7) Psixologiya;
8) Pedaqogika;
9) Fiziologiya;
10) Məntiq və s.

**ƏDƏBİYYAT**


6. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
7. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
8. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
9. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
10. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu: 3

## Mədəni nitqə verilən tələblər, ifadəli nitq. İntonasiya

Nitq mədəniyyəti cəmiyyətin müəyyən dövründə danışıq qaydalarını öyrənən və insanlar arasında əsas ünsiyyət vasitəsi kimi fikri formalaşdırma və ifadə etmə qaydalarının elmi əsaslarını müəyyənləşdirən dilçilik sahəsidir. Deməli, nitq mədəniyyəti həm nitqin kommunikativ keyfiyyətlərinin məcmusu və sistemi, həm də bu sistemi öyrənən dilçilik elminin bir sahəsidir. Müəllim mədəniyyəti, həkim mədəniyyəti, tələbə mədəniyyəti, səhnə mədəniyyəti, oxu mədəniyyəti, qulaqasma, dinləmə mədəniyyəti, danışıq mədəniyyəti və s. Bu deyilənlər arasında danışıq mədəniyyəti xüsusi yer tutur. Danışıq mədəniyyəti bilavasitə insanla bağlı olduğu üçün yuxarıda sadalananlarda insanların ədəb-ərkan, qanacaq, əxlaq normaları daxil olmaqla danışığı nəzərdə tutulur, çünki hər bir insan kiçik yaşlarında başlamış ömrünün sonuna qədər danışır, yazır, nitq söyləyir, çıxış edir. O, illər keçdikcə danışıq tərzini təkmilləşdirir, arzu edilən qədər öz sözünü deyir, nitqini həyatdan, cəmiyyətdən gələn yeni-yeni sözlər hesabına zənginləşdirir, başqalarından daha yaxşı, müdrikcəsinə danışmağa, nitqini gözəl, ifadəli, rəvan çatdırmağa çalışır. İnsanın danışıq vərdişi formalaşıb təkmilləşdikcə, söz ehtiyyatı, dilinin lüğət tərkibi artdıqca, müxtəlif yaş və peşə sahibləri ilə ünsiyyət saxladıqca özü üçün daha rəvan, səlis, düzgün danışılanları nümunə kimi qəbul edərək, qəzetlərdən, jurnallardan, kitablardan oxuduğu, televiziya aparıcılarından, çıxış edən şair, yazıçı və alimlərdən eşitdiyi nitq nümunələri ilə tanış olduqca dilimizin qayda-qanunlarına, qrammatik quruluşuna, onun incəliklərinə

bələdləşdikcə öz fikirlərini daha gözəl, məntiqi qurmağa nail olur. Deməli, insan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan nitq mədəniyyəti kommunikasiya prosesinin əsasını təşkil edir. Hər bir şəxs elə danışmalı, nitqini elə qurmalıdır ki, dinləyicilər onu aydın başa düşsün, həm də onun nitqinə həvəslə qulaq assın, danışıqdan xüsusi həzz alsınlar. O, bu hallar vərdişə çevriləndən, danışığının arzu olunduğunu biləndən sonra nitqinin mənalı və məzmunlu olmasına daha ciddi hazırlaşacaqdır. Doğrudur, bu heç də asan başa gəlmir, hamıda yaxşı alınmır, bunun üçün böyüklə böyük, kiçiklə kiçik dilində danışmaq, nə barədə, nə məqsədlə, harada, hansı şəraitdə, kiminlə və ya kimlərlə danışdığını bilmək və bunları mütləq nəzərə almaq lazımdır. Bu, nitq mədəniyyətinin əsas şərtidir.

Nitq mədəniyyətində nitqin düzgünlüyü, aydınlığı, təmizliyi, sadəliyi, münasibliyi, rabitəliliyi, ahəngdarlığı, imkan daxilində ifadəliliyi və s. kimi keyfiyyətlər əsas götürülür. Nitq mədəniyyəti düzgün və aydın danışıb yaza bilməyi, nitqdə müxtəlif dil vasitələrindən məqamında, eyni zamanda məqsədəuyğun şəkildə istifadə etməyi, sözlərin ədəbi dilin orfoqrafiya və orfoepiya qaydalarına uyğunluğunu öyrənir. Deməli, nitq mədəniyyəti dilin lüğət tərkibinə dərindən bələd olmaqla onun fonetik və leksik sisteminə, qrammatik quruluşuna aid müəyyənləşmiş normalara yiyələnmək və gündəlik ünsiyyətdə onlardan yararlanmaq deməkdir. Nitq mədəniyyətinə verilən tələblər aşağıdakı şəkildə sadalanır: 1) Dil vahidləri ifadə olunan fikrin məzmununa uyğun seçilməli, onun dəqiq ifadəsinə xidmət etməlidir; 2) Fikrin daxili məntiqi əlaqəsini, onun komponentləri cümlələr və abzaslar arasında ardıcıllığı təmin etməlidir; 3) Natiq auditoriyanın səviyyəsini, marağını, hadisələrə münasibətini nəzərə almalı, faktların anlaşıqlı, inandırıcı olmasına xüsusi diqqət ayırmalıdır; 4) Nitqin həyat hadisələrini yanlış əks etdirməsinə, fakların təhrif olunmasına, rəqəmlərin şişirdilməsinə yol verilməməlidir; 5) Nitqin emosionallığı, ekspressivliyi unudulmamalıdır və s. Ümumiyyətlə, gözəl nitq bədii, canlı dilin qüdrəti ilə cəmiyyətin ictimai-siyasi və mədəni həyatında, dünyagörüşündə, insanlara münasibətində, məişətində aparıcı rol oynamalı; ədəbi dilin gözəlliyini nümayiş etdirməklə insanlara estetik zövq verməli, eşidənlərə güclü təsir etməli, onların şüurunu, hisslərini natiqin istədiyi səmtə yönəltməli, insanların hüququnu, haqqı, ədaləti, cəmiyyətin yaratdığı dəyərləri müdafiə edib qorumalı, vətənimizin qəhrəmanlarının igidliyini,

xeyirxahlığını, vətənpərvərliyini təbliğ etməli, ölkəmizin yürütdüyü siyasi məqsədə xidmət etməlidir. Danışan konkret vəziyyəti nəzərə alıb, qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq, ünvana yaxşı təsir göstərən nitqin kommunikativ keyfiyyətlərinə diqqət yetirməlidir. Onlar aşağıdakılardır: münasiblik, zənginlik, məntiqilik, əlverişlilik, təmizlik, dəqiqlik, ifadəlilik, düzgünlük.

**Nitqin düzgünlüyü**. Nitqin düzgünlüyü eyni dərəcədə onun forması və məzmununa hesablanmış anlayışdır, yəni düzgün nitq formaca və məzmunca düzgün qurulmuş nitqdir. Düzgün nitqə yiyələnmək üçün təkcə qrammatik qaydalara riayət etmək azdır, ədəbi dilin digər normaları da nəzərdə saxlanılmalıdır. İlk növbədə cümlələr məntiqi cəhətdən düzgün qurulmalı, dilin fonetik, leksik və qrammatik normaları pozulmamalıdır. Hadisələr, faktlar, onların səbəb-nəticə əlaqələri bilərəkdən təhrif olunmuş şəkildə dilə gətirilməməli, reallıqdan uzaqlaşma hallarına, yalan məlumatlara, layiq olmayan təriflərə, nöqsanların ört-basdır edilməsinə yol verilməməlidir. Deməli, nitqin düzgünlüyü üçün məntiqi və qrammatik cəhətdən düzgün qurulmuş cümlələr əsas götürülməklə ədəbi tələffüz qaydaları gözlənilməli, normal diksiya, nitq fasilələri, məntiqi vurğu nəzərdə saxlanılmalıdır. Nitqi ağırlaşdıran, məzmunun dinləyicilərə çatdırılmasını çətinləşdirən, həcmcə böyük, dolaşıq, təm-taraqlı cümlələr işlədilməməlidir. Nitqin düzgünlüyü natiqlə dinləyicilər arasında qarşılıqlı anlaşmanı təmin etməlidir.

**Nitqin münasibliyi.** Münasiblik-məntiqin qanunları ilə uzlaşan nitq keyfiyyətidir; işgüzar kommunikasiyanın vacib xüsusiyyətlərindən biridir, belə ki, bütün bu prosesi ünsiyyətin münasibliyi və qeyri-münasibliyi dəyərləndirir: istənilən səviyyələrə cavab verən nitq münasib adlanır. Münasiblik kommunikativ keyfiyyət olaraq daha çox adresatın səmimiliyinin olub-olmamağını ehtiva edir-nitqə etik keçiddir. Müvafiq olaraq münasiblik situasiya ilə bağlıdır, nitqdə yaranır, nitq mədəniyyətinin əsas atributlarından biri kimi işgüzar ünsiyyətin uğurunu təyin edir.

Nitqin münasibliyini şərtləndirən amillər içərisində aşağıdakılar daha önəmlidir:

1.Mövzunun (fikrin) məzmununa uyğun dil materialının seçilməsi;

2.Dil vasitələrinin nitqin məqam və şəraitinə uyğunluğu;

3.Nitq üslubundan asılı olaraq, dil vasitələrinin məqsədəuyğunluğu;

4.Dil materialının natiqin şəxsiyyətinə, savadına, dünyagörüşünə, sənətinə uyğunluğu.

Münasiblik ünsiyyət vəziyyətinin bütün göstəriciləri ilə daha sıx bağlıdır: o həm iştirakçılardan, həm onların məqsədlərindən, həm nitq mövzusundan, həm də ünsiyyətin daxili və xarici şərtlərindən asılıdır.İlk növbədə konkret işgüzar ünsiyyət şəraitində hər bir iştirakçının etik və ya qeyri-etik davranışları, əldə edilən və ya edilməyən motiv və məqsədlər qiymətləndirilir. Münasib olmayan yerlərdə dövlət sirlərindən, kəşfiyyat işlərindən, strateji əhəmiyyətli obyektlərdən danışmaq, onların haqqında məlumat vermək olmaz. Yaxud, danışıqda əxlaq normalarına görə heç kəs öz arvadının adını yad kişilər arasında çağırmır. Ümumiyyətlə, azərbaycanlılar qadın-qız adlarını məclislərdə, ictimai yerlərdə kişilər arasında çəkməyi düzgün saymırlar. Cavan gəlin və ya ər hətta valideynlərinin yanında belə "mənim arvadım", "mənim ərim" ifadələrini işlətmir, başqalarının yanında isə onların adlarını çəkməyi əxlaq qaydalarına görə münasib görmürlər. Dilçilikdə buna **tabu** deyilir. Elə bu səbəbdən A.Bakıxanovun "Kitabi-Əsgəriyyə" əsərində, Ə.Haqverdiyevin "Xəyalat" pyesində, A.Şaiqin "Məktub yetişmədi" hekayəsində qadın obrazı verilməmiş, qadın adı çəkilməmişdir. Keçmiş əxlaq normalarına görə kişi arvadının adını böyüklərinin yanında deyə bilməzdi, "uşaqların anası" və ya "filankəsin qızı" (əgər tanınmış kişinin qızı idisə) deyə işarə edərdi.

Yaxşı danışmaq, sərt mənanı yumşaltmaq üçün **evfemizmlərdən** də istifadə olunur. "Yox" əvəzinə "xeyr"; "yalandır" əvəzinə "doğru deyil", "həqiqətə uyğun deyil"; "xoş getdin" əvəzinə "xoş gəldin"; "demək" əvəzinə "buyurmaq"; "ölmək" əvəzinə "rəhmətə getmək", "ömrünü bağışlamaq" və s. kimi sinonim söz və ifadələri işlətməyə üstünlük verilir. Nitqin münasibliyi üçün formaca eyni, məzmunca müxtəlif olan sözlərə - omonimlərə yazılı nitqdə geniş yer ayrılır. Çünki şifahi nitqdə sözün mənasına daha çox fikir verildiyi halda yazılı nitq həm forma, həm də məzmun cəhətdən münasib və dəqiq olmalıdır

**Nitqin zənginliyi.** Zənginlik həm şəxsi, həm də mədəni nitqin çox vacib keyfiyyətidir.Nitqin zənginliyi üçün başlıca meyar danışanın (yazanın) geniş söz ehtiyatına malik olmasıdır. Müəyyən rabitəli mətndə nə qədər çox müxtəlif və təkraralanmayan söz, ifadə və cümlə işlədilirsə, həmin nitq o qədər də zəngin olar,

maraqla dinlənilər, yaxşı təsir bağışlayar, asan dərk olar. Adi insan 5000-9000 sözdən istifadə edirsə,yazıçı və jurnalistlərin nitqində 15000-18000 sözdən istifadə edilir.
Nitq zənginliyi leksik, sintaktik və digər sahələrdən asılı olsa da, leksik sfera bu xüsusda daha əhəmiyyətli rola malikdir. Zənginlik təkcə sözlərin sayından deyil, həm də onların məna dolğunluğundan asılıdır. Çoxmənalılıq, məcazlardan yerli-yerində istifadə, omonimlərin, frazeoloji vahidlərin, sinonimlərin işlənməsi nitqi zənginləşdirir.Zəngin nitq danışanın yüksək savadının, zəngin biliyinin göstəricisidir. O, dilə dəqiqlik gətirir, təkrarların qarşısını alır. Söz ehtiyatını zənginləşdirməyin ən bariz üsulu mütaliə etmək, çoxlu bədii əsər oxumaqdır.Beyninizin dəqiqədə 1000 söz oxumaq bacarığına malikdir. Bu keyfiyyətdən istifadə edərək, nitqinizi zənginləşdirin. Zənginliyin iki əsas növü var: dil və nitq zənginliyi. Dilin zənginliyi bütün səviyyələrdə vahidlərinin müxtəlifliyi, xəzinəsi ilə nitqin qurulmasıdır. Bu zənginliyin atributları lüğətlərdə (frazeologizm, sinonim, antonim, paronim, alınma sözlər, bu və ya digər bilik sahəsinə aid terminlər) toplanıb. Məsələn, dilin leksik-semantik, morfoloji və sintaktik sistemində öz rolu olan sinonimlik nitqdə, ədəbi dilin üslublar sistemində, fikrin ifadə tərzində çox mühüm rol oynayır:

1. yersiz təkrarın qarşısını alır;
2. məqamına düşməyən sözü, ifadəni, cümləni daha məqbulu ilə əvəz etmək üçün zəmin yaradır;
3. fikrin ifadə tərzindəki yeknəsəqliyi aradan qaldırır, əlvanlığı təmin edir;
4. ekspressiv və emosional yükü artırır;
5. funksional üslubları fərqləndirən “rəng”-əlamət olur;
6. ünsiyyətdə iştirak edənlərin dilə necə bələd olmasını, mədəni səviyyəsini nəzərə çarpdırır və s.

Dil zənginliyi nitq zənginliyi üçün əsas bazadır. Hər bir dil daşıyıcısının nitq zənginliyi onun dilə fəal sahib olma prosesində qazandığı idrak-təfəkkürün məhsuludur, hamımız sözləri eyni bir dildə danışdığımız xəzinədən görürük. Nitqin zənginliyi dil vasitələrinin şüurlu və aktiv mənimsənilməsi-danışığımızı rəngarəng etmək, dil vasitələrindən istifadə etməklə əldə edilir. Dil və nitq zənginlikləri bir-biri ilə sıx bağlıdır-dil nitqi qidalandırır.

**Nitqin təmizliyi**. Mədəni nitqə verilən tələblərdən biri də onun təmizliyi hesab olunur. Ədəbi dilin qaydalarından kənara çıxmamaqla ifadə olunan nitq təmizdir.İşgüzar ünsiyyətdə təmizlik mahiyyətcə düzgünlüyün təzahürüdür, bir qayda olaraq, müəyyən nitq səviyyəsində, xüsusilə leksik normada özünü göstərir. O nitq təmizdir ki, Azərbaycan ədəbi dilinin hüdudlarından kənara çıxmır, vulqar, arqo, jarqon, tüfeyli, dialekt, loru sözlərə meyillənmir.

Nitqdə yerli dialekt və şivəyə məxsus dil vahidlərinə yer verilməsidir. Xalqın böyük hissəsi canlı danışıq dilində danışsa da, müəyyən qismi ya dialekt şəraitində yaşadığına görə, ya da uşaqlıq illərində ailəsinin, yaxud yaşayış yerinin danışıq tərzinin təsiri altında dialekt danışığına meyllidir. Onların danışığında əgər, ***asanlıqla, yenə, dərman, manat, şəkil, nə üçün, olacağıq, o qədər, lap az, sən demə, tamam, qaldırmaq*** əvəzinə ***əyərrəri, hasannıxnan, genə, dərmən, manıt, şikil, nöş, olacoux, oxartanan, cıqqana, deməynən, eyzan, qalxızmağ*** kimi dialekt tələffüzlü sözlər işlənir. Dialekt, şivə sözləri fikrin hamı tərəfindən asanlıqla qavranılmasına maneçilik törədir. Ədəbi dildə yazıb oxuyan, dil vasitələrinə norma kimi yanaşan oxucular buna ədəbilikdən kənar nitq vahidləri kimi yanaşırlar.

Qaba, kobud və qeyri-ədəbi, söyüş səciyyəli sözlər *vulqar sözlər* adlanır. Tərifdən göründüyü kimi, vulqar sözlər iki qrupa ayrılır: kobud və söyüş xarakterli sözlər.Kobud sözlər istənilən əşya, hal, hərəkət və ya hadisəyə qaba şəkildə münasibət ifadə edir, təkcə şifahi nitqdə yox, bədii nümunələrdə də eyni məzmun kobud şəkildə, təsir dərəcəsini artırmaq məqsədilə işlədilir. Məsələn, “narazılığını bildirərək astadan danışmaq, söylənmək, şikayətlənmək” əvəzinə *mırıldamaq*: Mixail baba dodaqları altında *mırıldanaraq* kürkünü başına çəkdi (S.S.Axundov).

Elmi üslubda işlədilməsi məqbul sayılmayan söz qrupları sırasına *loru sözlər* də daxildir. Ədəbi bədii üslubda işlənən bu sözlərə personajların nitqində və canlı danışıqda rast gəlirik: *gop eləmək, goplamaq, zollamaq, ağzından nallamaq, güpəmək, anqırmaq, donquldanmaq, burcutmaq, qatıqlamaq, eşşək, heyvərə, qoduq, tülkü, sən qıfılla, qırıldatmaq, çərənləmək, hırıldamaq* və s. sözlər nitqdə rəqibini alçaltmaq, təhqir etmək, pis münasibət bildirmək məqsədi daşıyır.

*Tüfeyli sözlər* mətnlə əlaqəsi olmayan söz və ifadələrdir. Fikrin ifadəsi zamanı lazımi söz tapmadıqda, yersiz fasilələrdə bunlardan istifadə olunur. Məsələn, *adını sən de, canım sənə desin, zaddı, adını nədir, şeydir və* s.

Dilin təmizliyinə xələl gətirən söz qruplarından biri də *arqolardır.* Fransız dilindən keçmiş bu termin altında məhdud dairədə işlənib başqalarının başa düşmədiyi şərti ifadə və ya söz anlamındadır: tələbələrin işlətdiyi "quyruq" "kəsir", "akademik borc" mənasında, müəllimlərin işlətdiyi "pəncərə" "dərslər arasında qalan boş vaxt, saat" mənasındadır.

Süni ünsiyyət vasitəsi sayılan *jarqon sözlər* cəmiyyətdə müəyyən qrup insanlar tərəfindən düzəldilir və elə onlar tərəfindən də başa düşülür. Jarqonlar öz fikirlərini başqalarından gizlətmək və ya başqalarından fərqlənmək üçün, konkret bir zümrə tərəfindən işlədilən elə sözlərdir ki, onlar adi halda müstəqil mənada işlədilib hamı tərəfindən anlaşılsa da, jarqon səviyyəsində başqa cür mənalandırılır. Məsələn: işini bitirmək (öldürmək), əriştəsini kəsmək (həbs etmək), şestyorka (satqın), hərifləmək (aldatmaq), ütmək (pulunu əlindən almaq), başını qırxmaq (aldadıb almaq), atanda (ayıq ol, səni axtarırlar) və s.

Təmizlik elə bir nitq keyfiyyətidir ki, ona əməl etmədikdə dərhal nəzərə çarpır; kommunikasiyada tərəflərin bir-birnə münasibətində nitq tənzimlənməsini pozur, ünsiyyətə zərər gətirir. Nitqin təmizliyinə əcnəbi sözlərin yerli-yersiz işlənməsi də təsirini göstərir, belə alınmalar, adətən, müəyyən dəbin təsiri ilə baş verir.

**Nitqin dəqiqliyi.** Dəqiqlik nitqin ilk və əsas şərtidir. Fikrin aydın izahı dəqiq düşüncənin nəticəsidir. Dəqiqlik və yığcamlıq nitqin əsas məziyyətləri kimi zəngin söz ehtiyatı hesabına başa gəlir. Söz ehtiyatı zəngin olan adamın nitqi dəqiq ola bilər. Dəqiq nitq deyildikdə sözlərin ifadə olunan fikrə uyğun seçilməsidir ki, bunlar nitqin mənasına, məzmununa münasib olmaqla fikrin gerçəkliyi əks etdirməsinə şərt sayılır. Dəqiqlik, bir tərəfdən, nitqin gerçəklik və təfəkkürlə əlaqəsinin, digər tərəfdən, fikrin dil vasitələri ilə düzgün verilməsinin göstəricisidir.

Məsələn, təsadüf etdiyimiz nöqsanlardan biri bəzi sözlərin dəqiq seçilməməyi, mənasının nəzərə alınmamağıdır: *Müəllimlər yüksək təlim və tərbiyə uğrunda mübarizə aparırlar*-olmazmı tez-tez *uğrunda mübarizə aparırlar* ifadəsinin əvəzinə yeri gələndə, sadəcə, *çalışırlar, səy göstərirlər* yazaq? Qəzetlərdə oxuduğumuz *yun*

*istehsal edilmişdir, daş istehsal edilmişdir, süd istehsal edilmişdir, ağ qızıl istehsal edilmişdir,* əvəzinə *yun qırxılmışdır, süd sağılmışdır, daş çıxarılmışdır, pambıq yığılmışdır* yazsaq, daha aydın və dəqiq olmazmı?

Dəqiqliyin pozulması daha çox leksika ilə bağlıdır. Sinonimlərdən (yaxınmənalı sözlər, cavan-gənc; qoca-yaşlı-ahıl və s.)düzgün istifadə olunmaması, paronimlər (bir səsə görə fərqlənən sözlər, həyət-həyat, əsr-əsir və s.), mənası aydın olmayan əcnəbi sözlər fikrin qeyri-dəqiqliyinə gətirib çıxarır, bu sıraya iltisaqi (aqlütinativ) dillər üçün xarakterik olmayan sintaktik konstruksiyaları (cümlədə söz sırasının pozulması və s.) intonasiya və məntiqi vurğunu da aid etmək olar.

**Nitqin ifadəliliyi.** İşgüzar ünsiyyətdə ifadəlilik nitqin uyğun, uğurlu və effektli olması kimi qiymətləndirilir, əsas şərt orijinal olması, təkrarsızlığı, gözlənilməzliyi, yeniliyi və yaradıcı olmasıdır.Vəziyyətdən asılı olaraq, bununla kommunikasiyada maraq yaradılır. İfadəliliyi nitqin digər xüsusiyyətlərindən fərqləndirən cəhəti bütün üslublara aid olması, nitqin ən yüksək kommunikativ dəyəri-konkret şəraitdə yaratdığı təəssüratdır; ifadəlilik və ya ifadəsizlik qərarını adresant verir.

Nitqin ifadəliliyi, bir qayda olaraq, ifadəli danışmağa (yazmağa, oxumağa, dinləməyə) şüurlu cəhdin nəticəsidir. Təsadüfi deyil ki, bu keyfiyyət nitq-şüur nisbətində öyrənilir. İfadəlilik bütövlükdə həm ünsiyyət, həm də nitq mədəniyyətidir, bu səviyyədə ifadəlilik natiqlik sənətinə-ritorikaya yaxınlaşır; o zaman üzə çıxır ki, müəllif bacarıq və imkanlarına uyğun kreativ, yaradıcılıq potensialını üzə çıxarmağa ehtiyac duyur.

İşgüzar ünsiyyətin əsas vəzifəsi təkcə informasiya vermək və ya qəbul etmək deyil, həm də insanlar arasında qarşılıqlı münasibəti yeni, daha yüksək səviyyəyə qaldırmaq və onu dəstəkləməkdir. Bu münasibətlərdə *ifadəlilik* xüsusilə vacibdir, çünki o, məqsədin-yeni informasiyanın məhsulu kimi özünü göstərir. Burada sistemin dəyəri mətni ötürəndən qəbul edənə doğru hərəkət prosesində şəffaflıqdan və qeyri-şəffaflığa dəyər dəyişməsi ilə təyin edilir. Qeyri-şəffaflıq mətnin transformasiyasının müəyyən alqoritmi ilə müəyyən edilir, alınan nəticə yalnız adresant üçün deyil, ümumiyyətlə, gözlənilən standartın, ifadəliliyin pozulması sayəsində baş verir. İfadəlilik dəyər kimi, hər şeydən əvvəl, yaradıcılıq məqsədyönlülüyündə özünü göstərir, fərdiliyi, gözlənilməzliyi ilə orijinallıq yaradır.

İfadəlilik həm də adekvat düşünülmüş cavabda da özünü göstərə bilər, bu, bir qədər sərt və ya aktiv cavab reaksiyası təsiri bağışlayır, adresantı məlumatı qəbul etməyə məcbur edir, nəticədə tərəflərin reaksiyasına görə hökm vermək olar. Əvvəla, dinləyicini cavabda həmişə qane etmək mümkün olmur, ikinci, qarşı tərəfi təəccübləndirmək üçün dil və nitq vasitələri yönümündə mümkün olan bütün ifadəlilik vasitələrindən istifadə edilir. Beləliklə, ifadəlilik o zaman əldə edilir ki, mətndə istifadə olunan vasitələr və üsullar kompleksi sayəsində şüurlu seçimlə ünsiyyət prosesində nəzərdə tutulmuş məqsəd həyata keçsin. O, ünsiyyət sferasından, şərtlərindən, işirakçıların xüsusiyyətlərindən, məqsədlərindən, məsələnin məzmunundan və s.-dən asılıdır.

İfadəlilik effekti deyilənlərin estetik tərəfi, keyfiyyəti ilə də qiymətləndirilir: informasiyanı öz təfəkkür süzgəcindən keçirmək. Deyiləsi fikri hansı formada çatdırmaq?! Əgər nitq müəllifin kommunikativ məqsədlərinə uyğun gəlirsə. Lazım olan bütün dil vasitələri ifadə üsulu ola bilər. İfadəlilik elə bir kommunikativ keyfiyyətdir ki, özünü yalnız dil və nitq vasitələrinin imkanlarında göstərir: ifadəli nitq bacarığı mədəniyyət və ritorik nitq səviyyəsi ilə bağlıdır. Ona görə ifadəlilik üçün hazır resept, konkret məsləhət ola bilməz.

**Nitqin rabitəliliyi**. Nitq prosesində əgər sözlər yerli-yerindədirsə, cümlələr düzgün qurulmuşsa, mövzu rabitəli, əlaqəli şəkildə şərh olunursa, deməli, informasiya verən ifadə etdiyi fikri yaxşı bilir, onun mahiyyətini hərtərəfli dərk edir. Belə vaxt hadisənin, faktın izah olunma ardıcıllığı məntiqə əsaslanır. ümumiyyətlə, ardıcıllıqla şərh olunan material yaxşı anlaşılır, mənimsənilir.

**ƏDƏBİYYAT**


11. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
12. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
13. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
14. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
15. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu:4

## Sintaktik quruluşların üslubi imkanları

Mədəni nitqə yiyələnmək üçün dilin yalnız leksik-qrammatik normalarını gözləmək kifayət etmir. Bunun üçün nitq üslubi cəhətdən də düzgün qurulmalıdır. Yəni danışarkən elə sözlər seçilməli, cümlələr elə qurulmalıdır ki, fikir dəqiq və aydın ifadə oluna bilsin. Danışan və ya yazan işlətdiyi hər bir sözün əhəmiyyətini, onun nəzərdə tutulan fikrin ifadəsi üçün nə dərəcədə yararlı, dəqiq olmasını nəzərə almalıdır. Həm danışıq, həm də yazıda hər hansı bir söz öz həqiqi mənasından başqa, digər mənalarda da işlənilir. Mənadan doğan forma rənga-rəngliyi dilin üslubi imkanları əsasında yaranır ki, bütün bunlar dilin üslubiyyat bəhsində öyrənilir (2, 204).

Natiq Azərbaycan dilinin fonetik, leksik və qrammatik imkanlarını həm nəzəri, həm də praktik cəhətdən öyrənməli, nitqin dəqiqliyi, yığcamlığı, ahəng-darlığı, bədiiliyi üçün üslubi imkanlardan yerində, ünsiyyətin tələblərinə uyğun istifadə etməyi, ədəbi dilimizin ifadə vasitələrindən konkret şəraitlə bağlı yarar-lanmağı bacarmalıdır.

Nitq üslubu danışanın (eləcə də yazanın) dil vasitələrindən, onun fonetik, leksik və qrammatik imkanlarından məqsəd və məqama uyğun istifadə edə bilmə tərzidir, sistemidir. Bu istifadə bir sıra amillərlə, şərtlərlə (ünsiyyətin şəraiti, məqsədi, müsahibin marağı, anlama səviyyəsi və s.) bağlı olur və müxtəlif formalar kəsb edir. Bir halda danışan qarşısına müsahibindən nəyisə öyrənmək və ya ona hər hansı əşya, hadisə barədəsə məlumat vermək, başqa bir halda təbiət və cəmiyyətdəki hadisələr, qanunauyğunluqlarla bağlı biliklərini şərh etmək, digər bir məqamda əşya və hadisənin təsvirində müsahibin hisslərinə, duyğularına təsir göstərmək və sair məqsədlər qoyur. Üslub fərdidir, danışanların hər birinin özünəməxsus nitq üslubu vardır.

Dil vahidlərinin üslubi keyfiyyətləri müxtəlifdir. Bu keyfiyyətlər dilin fonetikası, leksikası və qrammatikasının imkanları sayəsində yaranır, nitqə üslubi

çalarlıq gətirir, onu səlis, çevik, mənalı və kəsərli edir, estetik təsir gücünü artırır. Dil vahidlərinin üslubi imkanlarından danışarkən prof.Ə.Dəmirçizadə yazır: "Üslub dedikdə biz sözlərin, ifadələrin, qrammatik vasitələrin və fonetik imkan-ların məqsədəuyğunluq əsasında seçilmiş vahidlər sistemini başa düşürük" (18, 32). "Nitq mədəniyyəti və üslubiyyatın əsasları" kitabında dil vahidlərinin üslubi imkanları eyni mövqedən qiymətləndirilir (37).

Fonetik, leksik, morfoloji, sintaktik normalar ədəbi dilin strukturu ilə bağlı olub nitqin düzgünlüyünü təmin edirsə, üslub normaları leksik-qrammatik normaların bir növ törəməsi olub nitqin gözəlliyini, ifadəliliyini, dəqiqliyini artırmaqla ünsiyyəti asanlaşdırır, onun təsirli, cəlbedici olmasını, danışan, oxuyan və dinləyənin ən incə məqamları, mətləbləri ifadə və dərk edə bilməsini təmin edir.

Dilin üsluibiyyatla bağlı olan bölmələrindən biri də sintaksisdir. Elə bir sintaktik vahid, quruluş yoxdur ki, nitqin üslubca zənginləşməsində bu və ya digər dərəcədə iştirak etməsin. Bu baxımdan sadə cümlənin məqsəd və intonasiyaya görə növlərinin imkanları genişdir. Onlardan sual cümləsi nitqdə daha çox məna çalarları kəsb edir. Məlumdur ki, sual cümlələrindən naməlum bir şey, hadisə haqda nəyi isə öyrənmək və ya fikrin doğruluğunu müəyyənləşdirmək məqsədilə istifadə olunur:

*Yavrum, quzum, adın nədir?*

*Gülbahar.*

*Söylə sənin atan, anan varmı?*

*Var.* (H.C.)

Sual cümlələri məqsəddən asılı olaraq digər bir sıra mənalarda da işlənir ki, bunlar nitqə rəngarənglik gətirir, onun emosionallığını, ekspressivliyini, ahəngdarlığını artırır, nitqi zənginləşdirir. Bu cümlələr intizar, təəccüb, narazılıq, nigarançılıq və s. mənaları da ifadə edir. Məsələn; *Yoxsa onların başında bir iş var?* (F.K.) (intizar, nigarançılıq); *Necə? Mən inqilabi sayıqlığımı itirmişəm? Kimsəyə gərək olmamaq?! Sən heç bilirsən bu nə deməkdir?* (B.V.) (təəccüb, etiraz); *Zəhləsini niyə tökdün, nə istəyirdin ondan?* (V.B.) (etiraz); *Nə istəyirsən məndən? Mən acından günorta dururam, qızıl var məndə, ay naxələf oğlu naxələf?!* (E)

(narazılıq); *Al, gör bu necədir?* (C.B.) (təhrik); *Niyə məni aldadırsan?* (C.Ə.) (məzəmmət).

Sual cümlələri ədatlarla işləndikdə burada müxtəlif məna çalarlığı ifadə olunur:

*Mənim qəlbim deyir ki, Hələ bunlar nədir ki* (M.M.). *Axı sənə yazığım gəlir?* (İ.Ş.);

*Bəs atan yoxdur?*

*Həm var, həm də yoxdur, müəllim* (Ə.H.)

Modal sözlər də suala qətilik, şübhə, ehtimal, güman və s. kimi emosional çalarlıq verir.

*Deyəsən, sənin arzuladığın vaxt gəlib çatmışdı* (P.M.); *Yaxşı, bəs sənə nə düşüb bu cür canfəşanlıq edirsən?* (A.); *Doğrudan da, işin var sənin?* (E.).

**Əmr cümlələrinin** işlədilməsində də fərqli məna çalarları, üslubi məqamlar vardır. Bu cümlələr danışanın məqsədindən asılı olaraq təkid, təklif, xahiş, məsləhət, nəsihət, çağırış, arzu, istək, təskinlik, yalvarış, qəzəb və s. kimi mənalar ifadə edir, müvafiq intonasiya ilə tələffüz olunur.

*Vaqqıldama bayquş kimi idbar dilənçi!* (Sabir) (qəzəb); *Tək vəzir qalsın, özün də yaxın gəl (*F.K.) (əmr, təkid);

*Gəl-gəl, a yaz günləri,*

*İlin əziz günləri* (A.Ş.) (arzu, istək)

*Allah sənin ömür, dövlətini artıq eləsin, ağa!* (M.F.A.) (yalvarış); *Həqdən ayrılma, şahım!... Elm və səbatımızı qoru, şahım* (İ.N.) (məsləhət, nəsihət); *Çağır gəlib mənə kömək etsinlər* (H.A.) (təkid).

**Nida cümlələri** də danışanın məqsədinə uyğun məna çalarları yaradır ki, bunlar nitqin ekspressivliyini, emosionallığını artırır, təsirini gücləndirir. Nidalar müxtəlif hissi halları – ağrı, təəccüb, təlaş, iztirab, yorğunluq, qorxu, kədər, həsrət, çağırış, müraciət, yalvarış və s. ifadə etməklə fərqli intonasiyalarla söylənilir. *Pəh-pəh, əcəb söz eşidirik, bu da bizim oxumuş, sahib-kamal qarda-şımız!* (N.B.V.) (təəssüf); *Boy, sən burada nə gəzirsən!* (M.S.) (təəccüb); *Afərin, dost, burada sənin sözlərinlə tamamilə şərikəm!* (M.H.) (razılıq); *Bəh-bəh, təbiətin nə gözəl guşələri*

*varmış!* (S.K.) (məmnunluq); *Vay-vay! Nə yaman müşkülə düşdü işim, allah!* (M.Ə.S.) (təlaş) və s.

**Feli sifət, feli bağlama** və **məsdər** tərkiblərinin də fikrin effektli çatdırılması, mənanın qabarıq verilməsi, emosionallığın artırılmasında müəyyən üslubi əhəmiyyəti vardır.

*Ey çılğın küləklər, nəşəniz daşarkən,*
*Bağların şehindən mey sorub coşarkən*
*Nalqıran dağları atlayıb aşarkən,*
*Məni də alınız, uçayım dağlara*
*Könlümdə nə varsa, açayım dağlara.*
(M.M.)

Bu parçada feli bağlama tərkibləri təsriflənən fellə verilən fikrin axıcılığında, təsirli, dolğun olmasında, oxucuya asan çatdırılmasında üslubi əhəmiyyət kəsb edir. Eləcə də **məsdər tərkibləri** cümlədə sözlər arasında əlaqəni yığcam şəklə salır, mənanı dəqiqləşdirir, fikrin qısa və yığcam ifadəsinə xidmət edir.

*Bəzən keçmişləri xatırlamaq da çox ağır olar* (C.C.); *Öz həyatinin meyvəsini babat qiymətə sata bilmək, ildə nağd üç-dörd yüz manat pul əldə etmək arzusu ilə gecə-gündüz çalışırdı (*Ə.Ə.).

Dilimizdə cümlə üzvlərinin məntiqi – qrammatik cəhətdən məqbul sayılan müəyyən **düzülüş ardıcıllığı** vardır: mübtəda xəbərdən əvvəl, təyin təyin olunandan qabaq, zərflik feli xəbərdən əvvəl, tamamlıq xəbərin yanında gəlir. Belə bir ardıcıllıq fikrin ifadəsi üçün yararlı sayılır. Xüsusən, yazılı nitqdə bu sıra düzümü daha çox gözlənilir.

Bəzən fikrin məzmunundan, subyektin məqsədindən asılı olaraq bu sıra pozulur, cümlə üzvləri öz yerlərini dəyişir. Bu dəyişiklik üslubi effekt yaratmaq, söz və söz birləşmələrini daha çox nəzərə çarpdırmaq məqsədi daşıyır. Belə inversiya şeir dilində özünü daha çox göstərir.

**Xəbərin mübtəda ilə yerini dəyişməsi**

*Dağılın buludlar, kəsilin gurultular, sakit olun ildırımlar* (Ə.Haqver-diyev); *Sızlar yada düşəndə ürəyimin telləri, O mehriban, o əziz tələbəlik illəri* (C.H.); *Lalə, bəsdir! Onu gəl gözləmə sən, Keçdi üstündən o dəhşətli bulud...*
(S.V.). Bu nümunələrdə xəbər (dağılın, sızlar, gözləmə, keçdi) mübtəda ilə yerini dəyişərək cümlənin əvvəlinə keçirilmiş, məntiqi vurğu altına düşmüş, cümlə bütövlükdə güclü emosional rəng almışdır.

**Tamamlığın xəbərlə yerini dəyişməsi**

*Dərdi verək küləklərə, ağlamayaq için-için. Toxum səpək küləklərə, xeyirxahlıq göyərtməkçin* (N.X.).

Tamamlığın xəbərlə inversiyası atalar sözlərində daha çox müşahidə olunur: *Saxla samanı, gələr zamanı; Açaram sandığı, tökərəm pambığı* və s. Müəyyən vasitəsiz tamamlıq olan cümlələrdə məntiqi vurğu mübtəda üzərinə düşərsə, həmin söz (mübtəda) xəbərin əvvəlinə gətirilir. Məsələn, *Əhvalatın hamı-sını mən bilirəm* (Ə.Haqverdiyev); *Nənəmdən xoş xəbəri mən gətirmişəm* (Ə.M.).

**Təyinin təyin olunan sözlə yerini dəyiÇməsi**

*Ürək böyük, arzular çox, yollar uzun, səbrimsə az* (C.V.); *Buludlar don geydi sarı, qırmızı* (N.X.)

Cümlədə üzvlərin yer dəyişməsi bütün hallarda müəyyən sözün daha çox nəzərə çarpdırılması tələbindən irəli gəlir ki, bu da nitqdə ifadəliliyi artırır, emosionallığı gücləndirir, məntiqi vurğunu nəzərə çarpdırır, nəticədə üslubi effekt yaranır.

Nitqin emosionallığını artıran, ona üslubi çalarlıq verən vasitələrdən biri də **xitablardır.** Xitablar dinləyicinin diqqətini söylənilən məsələyə cəlb etmək məqsədilə işlənilir. Başqa cür desək, bu vasitə ilə danışan dinləyəni söyləniləcək fikri eşitmək üçün hazır vəziyyətdə saxlayır.

Bundan başqa, xitablar digər məzmunlu cümlələrdə işlənərək nitqə üslubi rəngarənglik verir, onun təsirini artırır. Məsələn: *Xoş gördük, ay Səməd* (İ.A.) (səmimiyyət); *Ay aman! Heydər bəy, Səfər bəy, yetişin mən boğuldum!* (qorxu, təlaş) (M.F.A.); *Əzizim, dedim ki, boz at sağalan kimi səni tərkimə alıb dağlara aparacağam* (əzizləmə, istək); *Ay ana, təqsirin hamısı məndədir* (M.İ.) (etiraf) və s.

Bir sıra hallarda danışan cansız qüvvələrə müraciət edir ki, belə xitablar üslubi məqsəd daşıyır. Sırf ekspressiv səciyyə kəsb edən bu xitablar bədii ədəbiyyat üçün səciyyəvidir:

*Lalə, rəngindəki yanğın de, nədən?*
*Niyə məlulsan, a dağlar qızı, sən*? (S.V.)

*Çiçəyini, gülünü sevdim, Vətən!*
*Obanı, elini sevdim, Vətən!* (N.K.)

Bəzən daha güclü üslubi effekt yaratmaq məqsədilə xitablar təkrar olunur:

*Bakı, Bakı, ana Vətən!*
*Bizə şöhrət yarandın sən*! (S.V.)

*Bəziniz uyqulu, bəziniz uyqusuz*
*Küləklər, küləklər, ey əziz küləklər* (M.M.)

Müxtəlif hissi halları ifadə edən cümlələrdə xitablar bəzən nidalarla işlənir ki, bu ekspressivliyi artırır, məna çalarları yaradır:

*Ah, mehriban ana! Ah, əziz ana!*
*gündən bəridir, həsrətəm sana* (S.V.)

Sintaksisin üslubi imkanları, şübhəsiz ki, yuxarıda deyilənlərlə məhdudlaşmır. Digər sintaktik quruluşların - təktərkibli cümlələrin, söz-cümlələrin, mürəkkəb cümlələrin və sairənin də nitqin obrazlılıq və ifadəliliyini yaratmaq, təsir gücünü artırmaq, incə məna çalarlarını yaratmaq imkanları vardır. Natiq ünsiyyət prosesində onlardan istifadə edərək nitqini zənginləşdirməlidir.

**ƏDƏBİYYAT**

16. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
17. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
18. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
19. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
20. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001

## Mövzu:5

## Nitqin növləri və formaları

Nitqin funksiyaları, xüsusiyyətləri ilə yanaşı özünəməxsus formaları və növləri də vardır. Nitqin növlərini təsnif etmək üçün psixoloji ədəbiyyatda müxtəlif əlamətlərdən istifadə olunur. Eksteriorizasiya və interiorizasiya əlamətinə görə nitqin iki əsas növü mövcuddur: ***xarici və daxili nitq***. Xarici nitq başqaları ilə ünsiyyətə, informasiya mübadiləsinə yönəlmiş olub, eşidilən, görülən və tələffüz edilən nitqdir. Daxili nitqə gəldikdə, o hər şeydən əvvəl təfəkkür prosesinin təmin olunması ilə bağlıdır. O, psixoloji nöqteyi nəzərdən olduqca mürəkkəb hadisə olub nitqlə təfəkkürün qarşılıqlı əlaqəsini təmin edir.
Nitqin xarici növü ilə bağlı olaraq daha iki növü mövcuddur: şifahi nitq və yazılı nitq. Nitqin hansı formasından istifadə etməyimizdən asılı olmayaraq o həmişə həmin əsas növlərdən birinə aid olur.
Şifahi nitq tələffüz edilən, eşidilərək qavranılan, başa düşülən nitq növüdür. Bu nitqin köməyi ilə danışanlar arasında bilavasitə əlaqə yaranır. Şifahi nitq zamanı ünsiyyətdə olan adamlar bir-birini görür, eşidirlər. Danışan adamın mimikası və bədəninin ifadəli hərəkətləri, səsinin ahəngi nitqin məzmununun, buna bəslədiyi münasibətinin anlaşılmasına yardım göstərir.
Ünsiyyət şəraitindən, onun məqsəd və məzmunundan asılı olaraq şifahi nitq ya dialoji, ya da monoloji formada cərəyan edə bilər.

Danışan və dinləyənin nitq prosesində iştirakı həmişə eyni formada olmur. Bir nitq praktikasında danışan və dinləyən, demək olar ki, eyni dərəcədə fəaliyyət göstərir: sual verir, dinləyən cavab, danışan rəyini söyləyir, müsahib ona münasibətini bildirir. Başqa bir nitq formasında isə dinləyən ya ehtiyac, ya da imkanının olmaması üzündən müsahibinin danışığına müdaxilə etmir, münasibət göstərmir. Bu cür şərhetmə və dinləmə nitqin dialoji və monoloji formalarını yaradır. Nitqin dialoji formasına dialoji nitq də demək olar. Dialoji nitq müəyyən situasiyada iki və daha artıq şəxs arasında bir-birini izləyən, növbələşən canlı ünsiyyətdir, danışıqdır. Burada danışan şəxs ifadə edəcəyi fikri əvvəlcə daxilən öz-özünə düşünür, sonra onu sözlə ifadə edir. Fikri dinləyən, eşidən şəxs isə əvvəlcə dinləyir, sonra düşünür, düşündüklərini öz nitqi ilə ifadə edir, yəni müsahibinə cavab verir. Monoloji nitqdən fərqli olaraq dialoji nitqdə öncədən hazırlıq görülmür. Ona görə də dialoji nitqdə tərəflər daha fəal olurlar. Ancaq onu da qeyd edək ki, nitqin situasiyasından, təşkili formasından asılı olaraq dialoji nitqdə də hazırlıq görülə bilər. Dialoji nitqin bütün formalarında iştirakçılar hadisəni təfərrüatı ilə danışır, olanlara öz münasibətini bildirir. Dediklərinin daha inandırıcı olması üçün sübutlar, dəlillər gətirirlər. Tərəflər qarşılıqlı söhbət zamanı müraciətlər, ara sözlər, ritorik suallar vasitəsilə ümumi bir

bütövlük, fikir vəhdəti yaradırlar. Qeyd etmək yerinə düşər ki, dialoq zamanı leksik təkrarlar, cümlədə sözlərin sırasının pozulması, fikrin elliptik qurulması, pauzalar, suala sualla cavabvermə və s. özünü göstərir. Nitqin bu növündə jest, mimika, əl-qol hərəkəti və s. geniş istifadə olunur.

Dialoji nitqin aşağıdakı özünəməxsus xüsusiyyətləri vardır:

- dialoji nitq reaksiya tələb edən nitqdir;
- dialoji nitqdə həmsöhbət deyilənlərə öz münasibətini bildirir: sual verir, təsdiq edir, inkar edir və s.;
- dialoji nitqdə danışan adamların emosional-ekspressiv rabitəsi mövcud olur. Bu zaman dialoji nitqin iştirakçıları bir-birinin emosional-ekspressiv münasibətini qiymətləndirirlər;
- dialoji nitq müəyyən şəraitlə və ya obyektlə bağlı olur. Yəni situativ səciyyə daşıyır, söhbətin obyekti dəyişən kimi dialoqun istiqaməti və xarakteri də dəyişir.

Dialoq iki və ya daha çox həmsöhbətin qarşılıqlı əlaqəsi üçün nəzərdə tutulur. Məlumat mübadiləsi zamanı nitq tərəfdaşları rolları dəyişə bilir. Dialoq kortəbii (bir qayda olaraq, əvvəlcədən planlaşdırıla bilməz), elliptik (ifadələr monoloqdan daha qısa olur) olur. İşgüzar ünsiyyətdə dialoq işgüzar qarşılıqlı əlaqənin ən geniş yayılmış yollarından biridir. Şifahi işgüzar ünsiyyətin dialoq növlərinə işgüzar söhbət, işgüzar danışıqlar, reportajlar, müzakirələr, görüşlər, mətbuat konfransları, beyin hücumları və s. daxildir.

**Monoloji nitq.** Dialoji nitqlə müqayisədə monoloji nitq struktur baxımından sadədir. Nitq prosesində danışanın və dinləyənin iştirakı həmişə eyni formada olmur. Bəzən dinləyən sual verir, danışana öz rəyini söyləyir. Bəzən isə dinləyən müsahibinin danışığına müdaxilə etmir, münasibət bildirmir. Bunlar nitqin dialoji və monoloji formalarını yaradır. Monoloji nitq dialoji nitqlə müqayisədə struktur baxımından sadədir. Burada bir nəfər fikri geniş və ya müxtəsər şəkildə, rabitəli bir tərzdə ifadə edir. Bu zaman danışanın müsahibi və müsahibləri ilə əks əlaqəsi olmur. Monoloji nitqin əsas məqsədi nitqin əsas kommunikativ növlərindən (təsvir, təsdiqləmə, fikir söyləmə, səciyyələndirmə) istifadə etməklə hər hansı bir məzmunu başqasına çatdırmaqdır. Bu nitq proqramlaşdırılmış, təşkil olunmuş nitqdir. Belə ki, danışan deyəcəklərini əvvəlcədən düşünür, eyni zamanda ifadə edəcəyi fikrin həcmini bilir. Bundan başqa, ifadə edəcəyi fikrin xarakterini müəyyənləşdirir, auditoriyaya müraciət formasını dəqiqləşdirir. Hansı materialları deyəcəyini, müsahibinin və müsahiblərinin səviyyəsini, deyəcəklərinin onlara necə təsir edəcəyini təsəvvüründə qabaqcadan canlandırır. Monoloji nitq mütəşəkkil nitq növü

hesab olunur. Məsələn, müəllimin mühazirəsi monoloji nitqdir. Bədii ədəbiyyatda da çoxlu sayda monoloji nitqə rast gəlirik. Məsələn, İsgəndərin monoloqu, Hamletin monoloqu və s. Monoloji nitq fasiləsiz, ardıcıl, əlaqəli və məntiqli olmalıdır. Ona görə də monoloji nitqdən istifadə edən çatdıracağı məlumatın məzmununu dərindən bilməli və aydın dərk etməlidir. Eyni zamanda zəngin söz ehtiyatına malik olmalı, nitqin təsirlilik və emosionallıq xüsusiyyətlərini qorumalıdır. Danışdığı dilin qayda-qanunlarını mükəmməl bilməlidir. İşgüzar ünsiyyətdə monoloq bir şəxsin davamlı bir ifadəsidir. Nisbətən fasiləsiz, ardıcıl və məntiqli, nisbi dolğunluğa malikdir, quruluşu mürəkkəbdir. Yığıncaqda məruzə, hesabat və mesaj janrları, səhmdarlara, həmtəsisçilərə edilən çıxışlar ilə təmsil olunan monoloq, bir qayda olaraq, vərəqdən oxunan, yazılı bir xarakter daşıyan və buna görə də dərhal mövcud olan nitqdir. İki formada – şifahi və yazılı formada ifadə olunur.

Monoloji nitqin quruluş sxemi və xüsusiyyətlərinə görə fərqlənən bir sıra növləri də vardır: **mühazirə, məruzə, məlumat, çıxış, nitq** və s.

**Təşkil olunmuş nitq.** Təşkil olunmuş nitq deyəndə monoloji nitq nəzərdə tutulur. Adından məlum olduğu kimi, əvvəlcədən planlaşdırılmış, nəzərdə tutulmuş nitqdir. Bu nitq üçün hazırlaşmaq, plan tutmaq, ədəbiyyat oxumaq, mövzunun əhatə edilməsi, fikrin ardıcıllığına nail olmaq üçün qeydlər aparmaq, ifadə olunacaq məzmunu dərk etmək, onun dinləyiciyə daha yaxşı çata bilməsi üçün münasib sözlər seçmək, cümlələr qurmaq, müvafiq söyləmə tərzi – intonasiyanı müəyyənləşdirmək və s. lazım gəlir. Məlumatı səthi, lüğət ehtiyatı zəif olan adamlar qabaqcadan hazırlaşmadan auditoriya qarşısında çıxış etməkdə, danışıq prosesində qurmaq istədikləri cümlələri tamamlamaqda, zəruri sayılan sözləri seçməkdə çətinlik çəkirlər. Bu zaman lüzumsuz fasilələrə yol verilir. Belə fasilələrdən can qurtarmaq üçün danışan çox zaman mətləbə heç bir dəxli olmayan tüfeyli söz və ifadələr (məsələn, demək olar ki, deməli, əsasən, əsas etibarilə, necə deyərlər, söz məsəli, zaddı, adı nədi, adın sən de, əgər belə demək mümkünsə və s.) işlətməyə məcbur olur ki, bu da nitqin qırılmasına, diqqətin yayınmasına səbəb olur. Natiq belə bir vəziyyətlə qarşılaşmamaq üçün söyləyəcəyi fikri qeydlər şəklində yazıya köçürməli, sonra onu şifahi şəkildə ifadə etməlidir. Bu cür təşkil olunmuş nitqdə aşağıdakılar nəzərə alınmalıdır: a) söhbətə maraqlı, cəlbedici, yığcam giriş verə bilmək; b) məzmun ilə bağlı faktlar, misallar, nümunələr toplamaq, onları nitqdə məqamına görə işlətmək; c) nitqin məzmununu yazmaq; ç) nitqi yaddaşına köçürmək, dəfələrlə məşq edib, söyləmək; d) mövzunu dinləyicilərin qarşısında şərh etmək. Natiq öz əməli fəaliyyətində “nəyi demək?”, “harda demək?”, “necə demək?” suallarına cavab tapmağa çalışmalıdır. “Nəyi demək?” sualı dinləyici üçün maraqlı, aktual olan məsələlərin, problemlərin şərhini, izahını nəzərdə tutur. Fərz edək ki, natiq işğal olunmuş torpaqlarımızda maddi sərvətlərin ermənilər tərəfindən talan olunması

məsələsini gündəmə gətirər. Şübhəsiz, bu barədə söhbət maraqla dinləniləcəkdir. “Harada demək?” sualına cavab vermək üçün natiq dediklərini əsaslandırmaq məqsədilə yeraltı və yerüstü sərvətlərimizdən hansılardan, nə qədər qarət edilməsi və bunun nəticəsində ölkəmizə dəyən maddi ziyanla bağlı faktları, sübutları söhbətin hansı yerində gətirəcəyini müəyyənləşdirməlidir. “Necə demək?” sualının müqabilində natiq auditoriyanın diqqətini özünə cəlb etmək üçün sərrast cümlələrdən, rəngarəng ifadə vasitələrindən, uyarlı intonasiyadan istifadə etməyi, səbəb-nəticə əlaqəsi əsasında söhbətini yekunlaşdırmağı bacarmalıdır. Müəllimlik fəaliyyətində nitqin birinci formasından daha geniş istifadə edilir. Sinif, auditoriya qarşısında müəllimin izahı, məruzəsi, şübhəsiz, əvvəlcədən öyrənilmiş, planlaşdırılmış fikirlər, məlumatlar əsasında qurulur. Burada ölçülüb-biçilmiş fikirlər aydın və yığcam cümlələrlə ifadə olunur, konkret faktlarla söylənilənlər, dəlillərlə, nümunələrlə əsaslandırılır, lüzumsuz təfərrüata yol verilmir. Təşkil olunmuş danışığı (eləcə də yazını) təkcə monoloji nitqlə əlaqələndirmək düzgün olmaz. Nitqin situasiyasından, təşkili formasından asılı olaraq dialoji nitqə də hazırlıq görülür. Natiq radio və televiziya verilişlərinə, digər rəsmi yerlərə, dəyirmi masalara hər hansı bir mövzu ətrafında fikir mübadiləsi, müzakirə məqsədiə dəvət olunursa, o, qoyulan problemi dərindən öyrənilməli, özünün verəcəyi sualları müəyyənləşdirməli, müsahibinin ehtimal olunan sualları ətrafında fikirləşməli, onlara məntiqi cəhətdən düzgün, məzmunca bitkin cavablar hazırlamalıdır.

Nitqin ikinci forması **spontan,** yəni xüsusi hazırlıq olmadan, bədahətən, sərbəst söylənilən nitqdir. Bu, danışıqda bir növ improvizasiyadır. Bəzən belə iti, yeyin, tez, hazır, qabaqcadan düşünülməmiş nitqə ekspromt da deyilir. Adamlar öz gündəlik fəaliyyətində rəy söyləmək, məlumat vermək, münasibət bildirmək, müəyyən məsələni izah etmək, aydınlaşdırmaq və s. formalarda danışmağa cəlb olunurlar. Belə nitq təşkil olunmuş nitqlə müqayisədə xeyli çətindir. Burada danışan ani vaxt ərzində fikirlərini cəmləşdirməli, nədən danışacağını, nələri qeyd edəcəyini, hansı faktı gətirəcəyini, mülahizələrini nə cür əsaslandıracağını, həmin məzmunu vermək üçün hansı formanı seçəcəyini, yəni nitqinə necə başlayacağını, 108 fikrinin daha aydın, daha təsirli olması üçün hansı söz və ifadələri, cümlələri işlədəcəyini, nitqin intonasiyasını və s. özü üçün müəyyənləşdirməlidir. Spontan nitqdə dil vahidləri, faktlar sərbəst şəkildə, dilin təbii axını nəticəsində yaranır, onlardan ən yararlısı, asanı işlənilir. Nitqin bu şəklində məzmun və forma, demək olar ki, eyni zamanda, paralel şəkildə yaradılır. Spontan nitqdə danışanın həyat təcrübəsi, dünyagörüşü, zəngin müşahidələri, təbiətinin coşqun və rəvanlığı, fikri istedadı və hazırcavablığı böyük əhəmiyyət kəsb edir. Nitq şəraitindən asılı olaraq spontan danışıq eyni adam üçün həm asan, həm də çətin ola bilər. Küçədə, işdə, evdə və s. yerlərdə suallara cavab verməkdə, söhbətlərdə iştirak etməkdə elə bir çətinlik özünü göstərmir. Lakin

başqa şəraitdə, məsələn, qəflətən radio və ya televiziya verilişləri üçün müsahibəyə cəlb olunduqda, ictimai yerlərdə çıxışa, söz deməyə dəvət edildikdə danışan adamın gərginliyi istər-istəməz bir qədər artır, fikri fəallığı intensiv şəkil alır. O, həm fikrini cəmləşdirməli, deyəcəklərini rabitələndirməli, müsahibinə (və ya müsahiblərinə) çatdıracağı əsas fikri müəyyənləşdirməli, həm də onu daha münasib, daha təsirli dil vahidləri ilə ifadə etməli olur. Spontan nitq dilin təbii və canlı danışıq formasıdır. Mühazirəçi nitqin göstərilən hər iki formasından istifadə bacarığına yiyələnməlidir. Xüsusən, spontan nitqə daim hazır olmalı, hər hansı bir şəraitdə öz fikrini toplamağı, sistemləşdirməyi, onu münasib sözlərlə, ifadələrlə başqalarına çatdırmağı bacarmalıdır.

**Aktiv və passiv nitq.** İstər dioloji, istərsə də monoloji nitq **aktiv** və **passiv** ola bilir. Hər iki termin şərti xarakter daşımaqla danışanın və ya dinləyənin fəaliyyətini səciyyələndirir. Aktiv nitq forması ünsiyyət zamanı danışan adamın, başqa sözlə kommunikatorun nitqi hesab olunur. Dinləyicinin nitqi bu zaman bir növ passiv formada cərəyan edir. Belə ki, biz başqasını dinləyən zaman bir növ danışanın sözlərini ürəyimizdə öz-özümüzə təkrar edirik. Bu zaman nitq zahirən təzahür etməsə də nitq fəaliyyəti burada özünü göstərir.
Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, uşaqlarda nitqin aktiv və passiv formaları eyni vaxtda baş vermir. Belə ki, uşaqlar birinci növbədə passiv nitqə yiyələnirlər. Onlar böyüklərin danışığını başa düşür, onların dedikləri sözlərə reaksiya verirlər. Tədricən uşaqlarda aktiv nitq formalaşır və onlar da sözlərdən bilavasitə fəal şəkildə istifadə etməklə ünsiyyətə girirlər. Xarici dillərin öyrənilməsi zamanı bu hal daha aydın təzahür edir. Xarici dilin öyrənilməsinin ilkin mərhələsində passiv nitq üstünlük təşkil edir. Xarici dili öyrənən adam həmin mərhələdə xeyli sözü aydın başa düşdüyü halda onlardan öz fəal nitqində istifadə etməkdə çətinlik çəkir. Lakin həmin dilə, onun lüğət ehtiyatına dərindən yiyələndikdən sonra aktiv nitq formasından istifadədə də çətinlik çəkmir.

**ƏDƏBİYYAT**


21. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
22. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
23. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
24. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
25. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## ***Mövzu-6***
## ***Azərbaycan ədəbi dilinin normalar sistemi***

Hər xalqın və millətin ancaq bir dili olur. Həmin dil o xalq və ya millətin ümumi dili olduğu üçün ümumxalq dili deyilir. Məsələn, Azərbaycan ümumxalq dili, rus ümumxalq dili, türkmən ümumxalq dili, qazax ümumxalq dili və s. Ümumxalq dili çox geniş anlayışdır. Belə ki, ümumxalq dili dedikdə xalqın bütün dil vasitə və formalarının məcmusu nəzərdə tutulur. Dildə hər nə varsa, bunların hamısını ümumxalq dili əhatə edir. Öz inkişafının müəyyən mərhələsinədək Azərbaycan dili vahid tərkibli ümumxalq dili formasında olmuşdur. Lakin sonralar bu dilin tərkibində bir-birindən az-çox fərqlənə bilən qollar əmələ gəlmişdir. Bu qollar, başlıca olaraq, cəmiyyət üzvlərinin dildən nə dərəcədə istifadə edə bilməsi ilə əlaqədar yaranmışdır. Məlumdur ki, hər bir xalq və ya millətin bütün üzvləri ümumxalq dilindən eyni şəkildə, eyni qaydada istifadə edə bilmirlər. Məsələn, ziyalılar, xüsusən alim və yazıçılar dildən daha məharətlə istifadə etməyə meyl göstərirlər. Onlar ümumxalq dilinin söz və ifadələrini, qayda-qaynunlarını daha da cilalayır və daha mükəmməl şəklə salırlar. Lakin savadsız və azsavadlılar isə dildən bir növ xam şəkildə istifadə edirlər. Bu deyilənlərə görədir ki, müasir Azərbaycan ümumxalq dili, tərkibcə 2 qola ayrılır: 1) ədəbi danışıq, yaxud ədəbi dil, 2) qeyri-ədəbi danışıq, yaxud danışıq dili. Bu şərti bölgüdə ədəbi dil və danışıq dili məfhumlarını, eyni zamanda, dilin tərkib tərəfləri də adlandırmaq olar. Ümumxalq dilinin iki qola ayrıldığını M. Qorki çox gözəl şərh etmişdir: "*Dilin ədəbi və xalq dili deyə ikiyə bölünməsi yalnız onu göstərir ki, necə deyərlər, bir xam dil var, bir də sənətkarlar tərəfindən işlənilmiş dil*". Ümumxalq dilinin iki qola ayrılmasını şərti mənada başa düşmək lazımdır, çünki yuxarıda qeyd edildiyi kimi, hər xalqın bir neçə deyil, ancaq bir dili olur. Buna görə də Azərbaycan ədəbi dili dedikdə bir dili, Azərbaycan danışıq dili dedikdə isə başqa dili düşünmək olmaz. Bunların hər ikisinin əsası eynidir.

Ümumxalq dilinin cilalanmış, müəyyən normalara salınmış qoluna ədəbi dil deyilir. Ədəbi dil ictimai müəssisə və idarələrdə, nəşriyyat və mətbuatda, kino və teatrlarda, radio və televizorda, maarif və mədəniyyət ocaqlarında və s. istifadə olunan dildir. Hər bir ədəbi dil həm şifahi, həm də yazılı formalara, eyni zamanda zəngin üslubi rəngarəngliyə malik olur. Ədəbi dilin hamı üçün aydın və ümumi olması onun əsas əlamətlərini təşkil edir. Ədəbi dil mədəni və tarixi hadisədir. Bu dil cəmiyyətin mədəni tələbatı əsasında və müəyyən zərurət nəticəsində şifahi yolla yaranır. Azərbaycan ədəbi dili ümumxalq dili əsasında şifahi formada təşəkkül tapmağa başlamışdır. Ədəbi dilimiz formalaşmağa başladığı dövrdən ümumxalq dilinin mövcud vasitə və materiallarına əsaslanmış, onların müəyyən hissəsini seçib qəbul etmişdir. Bu zaman ümumxalq dilinin ancaq bir sahəsi deyil, onun bütün quruluşu, yəni səs sistemi, lüğət tərkibi və qrammatik quruluşu nəzərə alınmış və seçmə əməliyyatı aparılmışdır. Bu seçmə əməliyyatı, təxminən, aşağıdakı formalarda olmuşdur:

1) ümumxalq dilinin səs sistemindəki fonemlərdən, eləcə də fonetik qayda və hadisələrdən daha ümumi və səciyyəvi olanları götürülmüşdür;
2) ümumxalq dilinin lüğət tərkibindən hamı üçün ümumi olan, aydın mənalı, mədəni səciyyəli, sözlər seçilib qəbul edilmişdir;
3) qrammatik quruluşdan isə müxtəlif variantlı şəkilçilər və digər qrammatik qanunlar üzərində seçmə əməliyyatı aparılmışdır. Bütün bunlarla bərabər, ədəbi dilin formalaşmasında ümumxalq dili dialektlərinin də xüsusi rolu olmuşdur. Belə ki, bu və ya digər ədəbi dil ümumxalq dilinin müəyyən dialekti əsasında yaranıb inkişaf edir. Lakin bu dil müxtəlif dövrlərdə əsasını təşkil etdiyi dialekt çərçivəsindən kənara çıxır və ümumxalq dilinin başqa vasitələrindən də istifadə edir. Məhz Azərbaycan ədəbi dili də belə bir tarixi proses keçmiş və buna görə ədəbi dilimiz hazırkı heç bir dialektin eyni deyildir. İndiki ədəbi dilimiz bütün dialektlərin yaxşı cəhətlərini özündə əks etdirərək onların hamısından fərqlənir. Müasir Azərbaycan ədəbi dilinin hazırkı yüksək inkişaf səviyyəsi uzun əsrlərin məhsuludur. Ədəbi dilimiz tarix boyu mürəkkəb inkişaf prosesi keçirmişdir. Azərbaycan ədəbi dilinin inkişafı aşağıdakı dövrlərə bölünür:
*1)ədəbi dilin formalaşması və tədrici inkişaf dövrü (XIX əsrə kimi);*
*2)ədəbi dilin sabitləşməsi dövrü (XIX əsrdən 1920-ci ilə qədər);*
*3)ədəbi dilin geniş inkişaf yolu keçməsi dövrü (sovet dövrü).*
Ədəbi dilimizin bu inkişaf mərhələlərində yazıçıların, alimlərin, ictimai xadimlərin, müəllimlərin, milli mətbuatın və mətbuat işçilərinin xüsusi rolu olmuşdur. Bunlardan, xüsusən yazıçılar ədəbi dilimizin formalaşmasında, onun sonrakı dövrlərdəki inkişafı üçün ümumxalq dilindən söz və formalar, yaxud yeni söz və ifadələr yaratmaqda daha böyük rol oynamışlar.
Müasir Azərbaycan ədəbi dili özünəməxsus daxili qaydalara və ədəbi normalara malikdir. Normativlik ədəbi dildə başlıca şərtdir. Ümumi normalar olmadan ədəbi dil də ola bilməz. Ədəbi normalar fikrin aydın, dəqiq ifadə olunmasına, hamı tərəfindən eyni formada anlaşılmasına, düzgün və vahid nitq yaratmağa kömək edir. Ədəbi dilin normaları dilin bütün sahələrinə aid olur; məsələn: 1) fonetik normalar; 2) orfoepik normalar; 3) orfoqrafik normalar; 4) qrammatik normalar; 5) üslubi normalar; 6) semantik normalar; 7) leksik normalar. Nümunə üçün bunlardan leksik normaların tələbinə nəzər salaq. Ədəbi dilin leksik normalarına kobud, loru və söyüş xarakterli sözləri ədəbi dildə işlətmək olmaz. Müasir leksik normalara əsasən çətin ərəb və fars sözləri dilimizdə işlənmir. Yuxarıda qeyd olunan normalardan hər birinin özünəməxsus çoxlu qaydaları vardır. Ədəbi dilin normaları daimi deyildir. Bunlar dilin inkişafı ilə bağlı olaraq zaman keçdikcə təkmilləşir, dəyişir və zənginləşir. Müasir dövrün tələblərini ödəyə bilməyən normalar sıradan çıxır. Yeni tələblər əsasında yaranan zəruri normalar isə dilə daxil olur. Hər bir yeni ədəbi norma xalqın ruhuna uyğun yaradılır. Bu prinsipə müvafiq düzəlməmiş normalar dildə yaşaya bilmir və tez sıradan çıxır. Ədəbi dilin orfoqrafik normaları dövlət tərəfindən təsdiq olunur. Digər normalara da ictimaiyyət tərəfindən riayət edilir.

Bunların qanuniləşməsinə xüsusi fikir verilir. Ədəbi dil normalarının sabitləşməsində və möhkəmlənməsində digər idarə və müəssisələrlə yanaşı, ali məktəblərin də xüsusi rolu vardır. Buna görə də ədəbi dilin təmizliyi və inkişafı üçün ali məktəblərdə ədəbi normalara düzgün riayət etmək, onun sabitliyi uğrunda müntəzəm olaraq mübarizə aparmaq lazımdır.

*Ədəbi dildə norma* anlayışı çox geniş olub, bütün elm sahələrində mövcuddur və bu, "norma" termini ilə ifadə edilir. Latın mənşəli norma sözünün müasir dildə iki başlıca mənası vardır:

*Birincisi – "Qanuna salınmış; qayda, üsul* (hamı tərəfindən qəbul edilmiş adi, məcburi qayda, nizam)"; *ikincisi – "müəyyən edilmiş ölçü, miqdar, orta kəmiyyət*". Norma – ədəbi dilin qorunması və saxlanmasının təminatıdır; onun mühafizəkarlığı ədəbi dil üçün faydalıdır. T. Hacıyevin sözləri ilə desək *"Norma konkret tarixi dövrdə kollektiv tərəfindən qəbulu etiraf olunan, üslublar arasında müvafiq şəkildə paylanan və onları təmin edən dil faktlarının müəyyən qanun dairəsində cəmləşən təzahürüdür, norma tarixi kateqoriyadır".* Dil ictimai hadisə kimi cəmiyyətin, o dildə danışanların dəyişməsi ilə əlaqədar dəyişmə və təkmilləşmədədir. Bir dövr üçün məqbul sayılan norma başqa ictimai-tarixi dövrdə eynilə qalmır. T. Hacıyev yazır: "*Tarixilik normanın, bir tərəfdən, gələcəyə meylində, o biri tərəfdən, keçmişə bağlanmasındadır."*

Ümumi leksik vahid kimi "norma" termini dilçilikdə də özünə yer tapmışdır. Bu elmdə müəyyən növ qayda və hadisələrə "dil norması" deyilir. Dil norması anlayışı dilçiliyin inkişafının bütün dövr və mərhələlərində diqqət mərkəzində olmuşdur. Bu anlayışla klassik yunan dilçiliyi məşğul olmuş, XVII–XVIII əsrlərdə isə normativ qrammatikalarda, izahlı lüğətlərdə bəhs edilmişdir. XIX əsrin bütün rüblərində norma problemi tez-tez müzakirə obyektinə çevrilmişdi. XX əsrdə nitq mədəniyyəti problemlərinin şərhi ilə əlaqədar norma məsələləri daha ətraflı öyrənilməyə başlanılmışdı. Norma ədəbi dildə milli dilin digər dil hadisələri arasında süzgəc, qoruyucu rolu oynayır: ünsiyyət cəhətdən zəruri olmayan vasitələrin ədəbi dildə tətbiqinə yol vermir, bütün təsadüfi, funksional baxımdan düzgün olmayan ifadələri ayırır. Norma ədəbi dilin qorunması və saxlanmasının təminatıdır; onun mühafizəkarlığı ədəbi dil üçün faydalıdır.

Hər dilin öz inkişaf yolu, qaydaları və normaları var. Hər dildə norma ümumxalq, ədəbi dil və dialekt səciyyəlidir. Ümumxalq, ədəbi dil və dialekt normaları arasında müəyyən fərqlər özünü göstərir. Ümumxalq dili normaları daha genişdir. Bu dilin təşəkkül və formalaşması ilə bağlıdır. Əslində norma bütövlükdə dilin özündə mövcuddur. Belə olmasa idi, kollektiv üzvləri bir-birini anlamazdı, bir-biri ilə ünsiyyət yarada, fikir mübadiləsi apara bilməzdilər. Dilin normaları onun sistem xarakterində, bir-birindən asılı və bir-biri üçün şərt olmasındadır. Dil sistemindəki norma makronorma, dialekt normaları isə mikronormadır. Makronorma ədəbi dildə fəaliyyət göstərən nitq elementlərinin seçmə yolla qaydaya salınmasıdır. Xalq dilində normanın inkişafı qeyri-ixtiyari, kortəbii, ədəbi dildə isə ixtiyaridir, şüurlu

yaradılmadır. Xalq dilində norma sabit, davamlı, xüsusən onun ilk mərhələlərində tez-tez dəyişir, yeniləşir. Ədəbi dil normalarının tərkibində formalaşır. Makronorma ilə mikronormalar arasında sıx əlaqə mövcuddur. Ədəbi dil seçmə və əvəzetmə əməliyyatı ilə meydana çıxan, təşkil olunan nitqin təzahürüdür. O, ümumxalq dilinin müəyyən normaya tabe edilən normativ tələbləri çərçivəsində fəaliyyət göstərən qoludur.

Müasir dil normalarını elmi şəkildə təsəvvür etmək üçün *"dil norması"* anlayışını ətraflı müəyyənləşdirmək lazımdır. Bu problem isə *ədəbi norma, norma meyarı, normanın dəyişməsi prosesi, birinin digərini əvəz etməsi, norma variantlarının meydana çıxması, norma ənənəsi* və sair bu kimi məsələlərin şərhi ilə bağlıdır.

Dilçilik anlayışı kimi *ədəbi dil* norması dedikdə, cəmiyyət üzvləri tərəfindən qəbul edilmiş məcburi hər hansı bir qayda nəzərdə tutulur. Ədəbi dil norması milli və tarixi hadisədir. Buna görə də mövcud normalar hər xalqın mədəniyyəti ilə bağlı olur. Həm də bunlar tarixən uzun illər ərzində cilalanır və ədəbi dil üçün səciyyəviləşir.

Nitq mədəniyyəti yüksək inkişaf səviyyəsinə çatmış dilin müəyyən qanunauyğunluqları ilə tənzim olunan sabitləşmiş qaydalar sistemidir. Nitq mədəniyyətinin normaları həm yazılı, həm də şifahi nitqin qaydalarından ibarətdir. Şifahi nitqin qaydaları bir sistem kimi mövcud olan dilin nitq fəaliyyətində reallaşması ilə yaranır. Sözlərdə fonomorfoloji ardıcıllıq, sözdüzəldici və sözdəyişdirici şəkilçilərin sözlərə qoşulma prinsipləri, cümlə üzvlərinin sırası və s. dilin sabit daxili əlaqə normalarıdır.

Ədəbi dilin yazılı normalarının yaranmasında dilxarici amillər əsas yer tutur. Əlifba-qrafika, yazı qaydaları, durğu işarələri, alınmaların və kalkaların nizama salınması və s. dilxarici amillərin təsiri ilə sabitləşən yazılı dil normalarıdır. Nitq mədəniyyəti həm ədəbi dil, həm də üslubiyyat normalarını əhatə edir.

Ədəbi dil normalarının təşəkkül tapması və təkmilləşməsində həmçinin mədəniyyət xadimlərinin də rolu olduqca böyükdür. Meydana çıxan hər bir normanın möhkəmləndirilməsində yazı xüsusi əhəmiyyət kəsb edir. Yazı vasitəsilə ədəbi dil normaları sabitləşdirilir, ənənəyə çevrilir.

Fəaliyyətdə olan ədəbi dil normalarının geniş yayılmasının təbliğində orta və ali məktəblərin, radio və televiziyanın rolu əvəzsizdir. Buna görə də həmin müəssisə və birliklərin üzərinə ciddi dil məsuliyyəti düşür. Məktəblərdə hər bir dil vahidi ədəbi cəhətdən ölçülüb-biçilməli, radio və televiziya verilişlərində isə dil normalarına ciddi riayət olunmalıdır. Əks təqdirdə burada buraxılan hər hansı bir dil qüsuru milyonlarla dinləyici və tamaşaçının öz nitqində səhvlərə yol verməsinə səbəb ola bilər. Cəmiyyətin mədəni nitq səviyyəsinin yüksəldilməsi üçün ədəbi dilin müasir normalarının düzgün təsvirinə böyük zərurət və ehtiyac vardır.

**1. FONETİK NORMALAR.** Ədəbi dil sistemində zahiri cəhətdən diqqəti cəlb edən ilk əlamət fonetik normalara əməl olunub-olunmamasıdır. Buraya fonetik hadisə və qanunlar, vurğuya dair ədəbi dil normaları daxildir:

*a) Fonetik hadisələrə dair normalar. Fonetik hadisə* dedikdə dil vahidlərinin fonetik qabığında baş verən müxtəlif təzahürlər nəzərdə tutulur. Onlar iki qrupa ayrılır: şifahi danışığa aid olanlar və yazılı dil üçün orfoqrafik norma kimi məcbur sayılanlar. İkinci halda fonetik hadisələr qanun hesab olunur, şifahi nitqdəki fonetik hadisələr məcburi yox, ixtiyaridir. Bütün türk dillərində olduğu kimi, Azərbaycan dilində də sait və samitlərin möhkəm ahəngi mövcuddur. Buna əsasən sözlərdə səslər növünə və cinsinə görə bir-birini dəqiq izləyir. Məsələn, *alma, güzgü, işçi* sözlərinə qoşulan ünsür son saitin tələbinə uyğun işlənir – *almalar, güzgüdən, işçilər* və s. Bu növ fonetik qaydalar ədəbi dilimizdə normalaşmış və sabitləşmişdir. Vaxtı ilə dilimizdə düzgün işlənən *yapraq, kiprik, topraq kimi* sözlərdə səslərin yerdəyişməsi əsasında onlar *yarpaq, torpaq, kirpik* formasına düşmüş və hazırkı ədəbi dil normalarına uyğunlaşdırılmışdır.

Fonetik hadisənin aşağıdakı növləri vardır:

1. Uyuşma (assimilyasiya) – tam uyuşma-yarımçıq uyuşma; irəli və geri uyuşma

a) tam uyuşmada səs təsirinə düşdüyü səslə eyniləşir: kəsərli-kəsərri, yerli-yerri

b) yarımçıq uyuşmada səs təsirinə saldığı səsi eyni yox, yaxın məxrəcli səsə çevirir: manatlıq-manatdığ, ismətli-ismətdi

c) irəli uyuşmada səs özündən sonra gələn səsə təsir edərək onu öz məxrəcinə həmcinsləşdirir: mənlik-mənniy, şadlıq-şaddığ

d) geri uyuşmada sonrakı səs əvvəlki səsi öz məxrəcinə həmcinsləşdirir: izsis-issiz, isinmən-isimmək.

2. Səs fərqləşməsi (dissimilyasiya) – eyni və ya yaxın məxrəcdə olan iki səsdən biri digərinə təsir edərək, onu öz məxrəcindən uzaqlaşdırır: qararmaq-qaralmaq, sararmaq-saralmaq.

3. Səsartımı (proteza) – söz əvvəlində, sonunda samitlər yanaşı işlənmədiyi üçün arasına danışıq səsi əlavə olunur– Ramin-İramin;

4. Səsdüşümü (eliziya) – sait səsin ixtisara düşməsi ilə bağlı olduğu üçün onu bəzən sait düşümü də adlandırırlar;

5. Yerdəyişmə (metateza) – söz daxilində səslərin qarşılıqlı şəkildə öz mövqeyini dəyişməsidir, yalnız danışıq üçün xarakterikdir – yarpaq-yapraq, pəhriz-pərhiz.

*b) Vurğuya dair normalar.* Azərbaycan ədəbi dilində orfoepik normalardan biri vurğunun sözün son hecasına düşməsidir. Lakin tələffüzdə vurğu ilə bağlı bu ədəbi dil normasının pozulması halları da baş verir. Məsələn, *“başqa”* əvəzinə *başqa, “bütün”* əvəzinə *bütün, “çağır”* əvəzinə *çağır, “oxu”* əvəzinə *oxu* şəklində tələffüzə rast gəlirik.

Alınma sözlərdə vurğunun düzgün işlədilməsi də ədəbi dil normalarına daxildir. Dünyada elə dil yoxdur ki, onun lüğət tərkibində alınma sözlər olmasın. Buna görə də həmin alınmaların daxil olduğu dilin düzgün tələffüz normalarına uyğunlaşdırılması qanunauyğun haldır. Azərbaycandilli şifahi nitqdə alınma

sözlərin vurğusu ilə bağlı aşağıdakı hallara təsadüf edilir. Məsələn, *“İngiltərə”* əvəzinə *İngiltərə*, *“kafedra”* əvəzinə *kafedra*, *“parlament”* əvəzinə *parlament*, *“poliqrafiya’”* əvəzinə *poliqrafiya* və s.

Dünya dillərində vurğu özünü müxtəlif şəkildə büruzə verdiyi kimi, vurğu normaları da müxtəlifdir. Məsələn, alman və rus ədəbi dillərinin vurğu normalarına görə, vurğu sərbəstdir. Polyak dilində vurğu sözün sonundan ikinci hecanın üzərinə düşür və s.

**ORFOEPİK NORMALAR.** Dilin orfoepik normaları birdən-birə deyil, tarixən formalaşmışdır. Dünyanın bir çox dillərində orfoepik normalar olduqca sabitləşmiş, vahid qanun halına düşmüşdür. Səslər tələffüzün əsas vasitəsidir, tələffüz qayda-qanunlarının sistemli məcmusu orfoepik normadır. Azərbaycan dilçiliyində də orfoepik normalara dair bir sıra tədqiqatlar aparılmışdır.

*a) Fonemlərin tələffüzünə dair normalar.* Dildə fonemlərin tələffüzünə dair normalara saitlərin uzun və qısa tələffüzü, samitlərin karlaşması və cingiltiləşməsi, samit səslərin əvəzlənməklə tələffüzü, tələffüz zamanı səsin düşməsi və s. daxildir. Məsələn, *a:lim, əda:lət, mu:siqi, e:lan, mö:cüzə, mə:lumat* (səs uzanması), *bulu(t), kita(p), aktı(f), kollekti(f), nö(k)san, a(f)tomobil, qona(x), müx(d)əsər, məf(d)il, tax(d)a, hət(d)a, to(k)qa, mütək(g)ə* (samitlərin karlaşması və ya cingiltiləşməsi), *sü(m)bül, zə(m)bil, tə(m)bəl, vi(j)dan, sə(t)də, ə(j) dad, qa(ş)dı, he(ş) zaman, kö(ş)dü* və s. (samitlərin əvəzlənməsi), *doşan, nöbə, töbə* və s. (səslərin tələffüzdə düşməsi).

Göstərilən misallar müasir Azərbaycan ədəbi dilində tələffüz normalarının tərkib hissəsinə daxildir.

b) Alınma sözlərin tələffüzünə dair normalar. Dildə alınma sözlər mənimsənilmə prosesində tədricən daxil olduğu dilin ədəbi tələffüz normalarına tabe olur. Lakin bu “tabeolma” prosesi olduqca çətin və mürəkkəb bir vəziyyətdə keçir. Çünki bəzən alınma sözlərin fonetik tərkibində yad səslər və səs birləşmələri olur ki, bunlar daxil olduğu dilin səs sisteminə uyğun gəlmir. Buna görə də bəzən bu cür alınmaların müxtəlif tələffüz variantlarına təsadüf edilir. Məsələn: *maqazin //mağaza, dram // drama, problem //problema, tunel // tonel.*

Alınma sözlərin ədəbi tələffüzdə özünü göstərən variantlılığı ədəbi dil üçün müsbət hal deyildir. Buna görə də belə çoxvariantlılıq tədricən tək forma ilə əvəz olunmalıdır.

**ORFOQRAFİK NORMALAR.** Orfoqrafiya (yunan sözü olub, “düzgün yazıram” deməkdir) yazılı nitq normasıdır, fonetika ilə sıx bağlıdır.

12 yanvar 2004-cü il sərəncamına əsasən “Azərbaycan dilinin orfoqrafiya lüğəti” 2004-cü il, eləcə də 2013-cü və 2021-ci illərdə nəşr olunmuşdur. Yeni orfoqrafiya normaları Azərbaycan Respublikası Nazirlər kabinetinin 2019-cu il 16 aprel tarixli 174 saylı Qərarı ilə təsdiqlənmiş və 3 noyabr 2020-ci il tarixli 438 nömrəli qərarı ilə müəyyən dəyişiklik edilmişdir.

**LEKSİK NORMALAR.** Dilin leksik tərkibi cəmiyyətin maddi və mənəvi həyatı, onun dəyişilməsi, inkişafı ilə daha çox bağlıdır. Buna görə də leksika sahəsində

müxtəlif növ norma meydana çıxmışdır ki, bunların da dilçilik mövqeyindən müəyyənləşdirilməsi son dərəcə mürəkkəb və qəlizdir. Leksik norma sözün mənası və ya mənalarını yaxşı bilmək, onu yerində və düzgün işlətməkdir. Söz dildə leksik-semantik mənası olan, cümlənin əsasını təşkil edən ən kiçik, müstəqil dil vahididir, leksik mənaya malikdir. Leksik norma probleminə dair çoxlu məsələ vardır. Bunlardan bir neçəsinə nəzər yetirək.

*1) Sözün seçilib yerində işlədilməsinə dair normalar.* Sözlərin fikrə uyğun seçilib nitqdə işlədilməsi normaları *sözdən düzgün istifadə norması* adlanır. Dildəki hər növ sözlər yerli-yerində istifadə edilib ədəbi dil normalarına uyğunlaşdırılmalıdır. Azərbaycan danışıq dilində tez-tez *"nöqteyi-nəzər", "tərəfi-müqabil"* və s. kimi söz və birləşmələrin işlədilməsi ədəbi dil norması baxımından qüsurlu hesab olunur.

*2) Yeni sözlərin işlədilməsinə dair normalar.* Dildə yeni sözlərin yaranması canlı dillərin təbiətinə və tələblərinə müvafiq olur. Bu obyektiv proses zamanı dildə onlarca yeni-yeni sözlər – neologizmlər meydana çıxır.

*a) Neologizmlərdən istifadə.* Dildə yeni söz işlətmək çətin prosesdir. Bunun üçün həmin sözün fonetik tərkibi, qrammatik quruluşu, semantik tutumu dəqiqləşdirilməli və sonradan ədəbi dilə daxil edilməlidir. Əks təqdirdə hər hansı bir neologizmi yerli-yerində ədəbi dil normalarına uyğun işlətmək hər zaman uğurlu olmur. Neologizmlərdən ifrat dərəcədə istifadə etmək dildə *purizmə yaxınlaşmaqdır (purizm–*dili xarici sözlərdən təmizləmə cəhdi, ümumiyyətlə, dili yeni sözlərdən – neologizmlərdən, təhriflərdən və s.-dən təmizləmə cəhdində ifrata varma.*)* Ədəbi dilin inkişafı prosesində purizmə qarşı daima mübarizə aparılmışdır.

XX əsrin 20-ci illərində Azərbaycan ədəbi dilinə süni şəkildə bir çox yeni sözlər daxil etdirmək meyli olmuşdur. Məsələn: *toplantay* (dövlət), *yaşaq* (əhali), *yaygan* (mədən), *topal* (cəm), *titrənc* (zəlzələ), *yerbilik* (coğrafiya), *uzaqgör* (teleskop), *uçan* (təyyarə), *görük* (pəncərə), *törədiş* (sənaye) və s. Ədəbi dilimizin sonrakı inkişafı həmin neologizmləri özünə yaxın buraxmamışdır.

*b) Terminlərdən istifadə.* Ədəbi dil normalarının tərkib hissəsi kimi terminlərdən düzgün istifadə etmək həmişə dil quruculuğunda diqqət mərkəzində durmuşdur. Terminlərdən həddindən çox yerli-yersiz istifadə dildə anlaşılmazlıq yaradır. Bundan əlavə, terminlərin ana dilinin öz hesabına yaradılması ədəbi dil normalarına daha çox uyğun gəlir. Alınma terminlərə aludəlik ədəbi dilin inkişaf prosesinə mənfi təsir göstərir. Termin paralelliyi də ədəbi dil normalarının pozulmasına səbəb olur. Məsələn, *abstrakt-mücərrıd, obraz-surət, sait-səsli, peyzaj-mənzərə, funksiya-vəzifə, aptek-əczaxana, məfhum-anlayış, konfrans-müşavirə* və s. Ədəbi dil normalarının təsiri nəticəsində termin paralelliyi tədricən sıxışdırılıb aradan çıxarılmalıdır.

*c) Başqa dilin sözlərindən istifadə.* Dilə gələn hər bir alınma söz "ədəbi vətəndaşlıq" hüququ qazana bilmir. Belə sözlərin həddindən çox qəbul olunması dili ağırlaşdırır. Azərbaycan ədəbi dilinin inkişaf mərhələlərində alınmalardan istifadə

müxtəlif vəziyyətdə özünü göstərmişdir. Məsələn, 20-30-cu illərdə ərəb, fars, rus və Avropa sözlərinin ədəbi dilə gətirilməsi güclü olmuşdur. Bu meyil həmin dövrün ədəbi dil normalarına uyğun gəlirdisə, bu gün alınma sözlərdən yerli-yersiz istifadə etmək ədəbi dil norması baxımından qüsurlu hesab olunur.

**QRAMMATİK NORMALAR**. Qrammatik norma dilin quruluşuna, onun nitq prosesindəki fəaliyyətinə aiddir. Bura sintaktik əlaqə formaları, şəkilçilərin ardıcıllığı, sözlərin cümlədə sıralanması, cümlə üzvlərinin dəqiq yeri, mənsubiyyət, hal, dərəcə, zaman, şəxs və s. kimi qrammatik kateqoriyaların ədəbi dildə gözlənilməsi ilə bağlı qaydalar daxildir. Bu baxımdan qrammatik normalar morfoloji və sintaktik normalar kimi öyrənilir. Ədəbi dilin morfoloji normalarına aşağıdakı qaydaları daxil edə bilərik:

1) Azərbaycan dilində miqdar saylarından sonra gələn isimlər tək halda işlədilir: iki top, dörd tələbə və s. Isimlərin çoxluq ifadə etməsi üçün cəm şəkilçisini qəbul etməsi lazım gəlmir. “Beş cür futbol topları”, “on müxtəlif idman köynəkləri” işlətmək morfoloji normanın pozulması deməkdir.

2) Azərbaycan dilində mənsubiyyət kateqoriyası şəxs əvəzliklərinin iştirakı olmadan da düzəlir: kitabım, eviniz və s. Yığcamlıq yaratmaq məqsədilə sahib şəxs ixtisara düşür. Eləcə də, 1-ci və 2-ci şəxsin cəmində ikinci tərəfin mənsubiyyət şəkilçiləri olmadan mənsubiyyət anlayışını ifadə etmək mümkündür: bizim məktəb, sizin ev. Lakin mənim məktəb, sənin ev, onun və ya onların bağ deyilməz. Bu, normanın pozulma halıdır.

3) 2-ci şəxsin cəmində xəbərlik kateqoriyasının –sınız4 şəkilçisi –sız4 şəklində tələffüz olunur: futbolçusunuz [futbolçusuz]. Bu qayda artıq yazıda da tətbiq olunur: gəlirsiniz – gəlirsiz; xoş gəlmişsiniz – xoş gəlmisiz.

4) Feilin inkarlıq kateqoriyası təsdiq formada olan feilə -ma/-mə şəkilçisini artırmaqla düzəlir. Məs: o yazır – o yazmır; sən oxuyursan – sən oxumursan. Amma inkarlığı -ma/-mə şəkilçisi olmadan da yaratmaq mümkündür. Nə, nə də ədatları işlənəndə feilin inkarlıq şəkilçisini işlətməyə ehtiyac qalmır: o nə yazır, nə də oxuyur. Biz bu cümləni “o nə yazmır, nə də oxumur” şəklində ifadə etsək, dilimizin morfoloji norması pozulmuş olacaqdır. Nə, nə də ədatları feilin qarşısında deyil, cümlənin başqa üzvlərinin yanında gələndə şagird və tələbələr qrammatik normanın pozulmasını aydın təsəvvür etmirlər. Məs: “Nə müəllimin yazdığı aşağı kredit balı, nə də dekanın göstərişi mənim qanuni oxuduğum Akademiyadan çıxarılmağıma haqq qazandıra bilməz”. Qəzet səhifələrində, dərslik və dərs vəsaitlərində, ən çox da danışıq dilində bu qayda tez-tez pozulur.

5) Zərf kimi işlənə bilən sözlər həm isim (səhər, günorta), həm sifət (yaxın, uzaq), həm də say (az, çox) kimi çıxış edə bilməz. Professor Yusif Seyidov bu fikri belə əsaslandırır: “Bir nitq hissəsinə aid olan söz başqa bir nitq hissəsi ola bilməz”.

6) Adlara (isim, sifət, saylara) əvvəl kəmiyyət, sonra mənsubiyyət, daha sonra hal, ondan sonra isə xəbər kateqoriyasının əlamətləri (şəkilçilər) artırılır: tələbə+lər+imiz+in+dir.

7) Feilin kökünə əvvəl təsirlik, sonra növ, daha sonra şəkil, ondan sonra isə şəxs - xəbər əlaməti artırılır: sil+dir+il+məli+dir. Bura inkarlıq, kəmiyyət şəkilçilərini, hətta –mı4 sual ədatını da artırmaq mümkündür: sil+dir+il+məli+dir+mi?
8) Sifətin çoxaltma dərəcəsi qrammatik əlamətlərlə yanaşı bütöv sözlərlə də düzəldilir. "Təmiz" əvəzinə "aydan arı, sudan duru" ifadəsi, "qırmızı" əvəzinə "qan qırmızı", "lalə kimi qırmızı", "lalədən də qırmızı", "ağ" əvəzinə "süd kimi ağ" və ya "süddən də ağ" kimi bənzətmə bildirən birləşmələr daha təsirli üslubi effekt yaradır.
9) Eyni və ya yaxın mənalı sözlərin təkrarlanması normanın pozulma halıdır:

1. Onun yazdığı yazını oxudum.
2. Bu fəaliyyət 20-ci əsrin əvvəlində daha da fəallaşdı və s.

10) Az, xeyli, bir az saylarından sonra gələn isimlər təkdə işlənməlidir. Əgər cəmdə olarsa, norma pozulur: az uşaqlar (olmalıdır: az uşaq).
11) Bir sıra, bir çox saylarından sonra gələn isimlər cəmdə işlənməlidir. əks halda norma pozulur: bir sıra ölkə (olmalıdır: bir sıra ölkələr).
12) "Büsbütün" sözündə morfoloji norma pozulub. Çünki dərəcələnmək sifətin xüsusiyyətidir. Bütün əvəzlik olduğundan bu hal yanlışdır.
13) "Rahatsız" sözündə morfoloji norma pozulub. Əslində -sız4 şəkil-çisi isimdən sifət yaradır. Nümunədə isə sifətə artırılaraq sifət yaratmışdır.
14) Şirvan bölgəsində dialektdə işlənən "nə qapını ört, nə pəncərəni" cümləsi əslində "ya qapını ört, ya pəncərəni" mənasında işlənir.
15) Cümlənin xəbəri felin arzu şəkli əvəzinə, qeyri-qəti gələcək za-manda və ya şərt şəklində işlənərsə, morfoloji norma pozulur. Məs: "Kaş onu tez-tez görərdim", "kaş getsə idim" və s. Əslində "kaş görə idim", "kaş gedə idim" olmalıdır.
16) "Vaqif Səmədoğluna" ifadəsində morfoloji norma pozulub. "Vaqif Səmədoğluya" olmalıdır.
17) Morfoloji normanın pozulma hallarından biri feli sifət şəkilçiləri ilə bağlıdır. Feli sifət şəkilçiləri müxtəlif zaman mənaları bildirir: "deyilmiş söz" keçmiş, "deyilən söz" indiki, "deyiləcək söz" gələcək zamanı bildirir. Nitq prosesində bunların bir-birinin əvəzinə işlədilməsi kobud morfoloji pozuntudur. Bu hal məntiqi yanlışlığa səbəb olur. Məs: "Dünyanın inkişaf edən ölkələri sırasında İtaliya layiqli yer tutur". Əslində "inkişaf etmiş" olmalıdır.
18) Asemantik şəkilçilərdən istifadə məqamında morfoloji norma pozulur. Məs: "Bölgədə tam sakitçilikdir". Burada –çi şəkilçisi artıqdır, sakitlik olmalıdır. Bu hal öhdəçilik sözü üçün də xarakterikdir. "Gürcüstan Qafqazlarda yerləşir" cümləsində isə -lar şəkilçisi artıqdır.

**ƏDƏBİYYAT**


26. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017

27. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003

28. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017

29. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010

30. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001

## Mövzu:7

## Nitqin üslubları. Fonetik üslubiyyat

Bütün dünya dillərində dil vahidləri müəyyən üslubi əlamətlərə malikdir. Bu üslubi keyfiyyətlər dil vahidlərinin birində çox və zəngin, digərində az və nisbətən zəif ola bilir. Dil vahidlərinin üslubi yükü üslubiyyatda izlənilir, tədqiq olunur. Adətən, bu proses ən kiçik dil vahidindən başlanılır.

**1. ÜSLUBİ FONETİKA.** Dilin səs sistemində baş verən zəngin üslubi çalarlar üslubi fonetikanın məzmununu təşkil edir. Səslərin uzanması, qısalması, samit səslərin təkrarı, cingiltiləşmə, vurğu, heca, ahəng qanunu, sonor samitlərin işləkliyi, intonasiya və s. fonetik əlamətlərin nitqdə müxtəlif məna çalarlıqları yaratması dil üçün müsbət hal sayılır. Müşahidələr göstərir ki, uşaq poeziyasında misraların azhecalılığı üstünlük təşkil edir. Bu, uşaq təfəkkürünün səviyyəsi ilə bağlı olaraq fikrin sadə, oynaq bir dillə ifadəsi deməkdir. Məsələn:

*Buz kimi nəfəsimlə,*

*Nəriltili səsimlə*

*Bir tufan olub əsdim,*

*Qar töküb yolu kəsdim.*

*Dondu çaylar, bulaqlar...*

*Üflədim bir dəfə, bax,*

*Qopdu yel, əsdi sazaq,*

*Aldı çölü duman, çən,*

*Səngərdə, düzdə düşmən*

*Tab etməyib şaxtaya*

*Donub döndü taxtaya. (Ə.Cəmil)*

Şeirdə çoxhecalılıqdan, əsasən, dərin fəlsəfi fikirlərin ifadəsində istifadə edilir. Məsələn:

*Ölüm – məlum bir iblisdir, o, varlıqdan kənar olmaz.*

*Ölümsüz, fitnəsiz, şərsiz, deyirlər, bir diyar olmaz.*

*Onun tufanı qopduqca uçar evlər və ehramlar,*

*Onun ruzigarı əsdikcə qış ağlar, ilk bahar olmaz. (S.Vurğun)*

Demək, şeirdə çoxhecalılıq və azhecalılıq fonetik üslubi vasitə kimi özünü göstərir. Dildə sait və samit səslərdən məqsədəuyğun şəkildə istifadə edilməsi də müəyyən üslubi məqsəd güdür. Məsələn:

*Car çəkir çarxların çaxnaşıq səsi,*

*Car çəkir, qışqırır nəhəng motorlar. (S.Vurğun)*

Göründüyü kimi, şair burada "ç", "c" samitləri iştirak edən sözləri şeirə gətirməklə qızğın əmək cəbhəsinin ahəngini nitqdə poetik şəkildə ifadə etməyə nail olmuşdur. Ümumiyyətlə, bədii ədəbiyyatda sənətkarlar eyni səslərin təkrarından müəyyən ahəngdarlıq yaratmaq vasitəsi kimi məharətlə istifadə edirlər. Məsələn: *Pıçıldaşır şirinşirin şıltaq ləpələr. (S.Vurğun) Yardın yağıların, yardın bağrını. (S.Rüstəm) Sönmüş bir sevginin soyuğu gəlir. (S.Rüstəm) Sahilin axşamlar aşıbdaşırmı, O şıltaq ləpələr pıçıldaşırmı? (F.Mehdi*) Verilmiş poetik nümunələrdə (ş), (y), (s) samitləri iştirak edən sözlərin işlədilməsi bədiiliyi daha da artırmağa xidmət edir. Bəzən bədii cəhətdən sönük olan hər hansı bir mətn gözəl intonasiya ilə oxunduqda da diqqəti cəlb edir. Təkcə poeziyada deyil, nəsr əsərlərində də nitqdə ahəngdarlıq yaradan fonetik vasitələrdən istifadə olunur. S.Rəhimov öz əsərlərində alliterasiya vasitəsilə müxtəlif üslubi situasiyalar yaratmağa nail olmuşdur. Ədibin əsərlərində eyni səslərlə başlayan sözlərin söz birləşməsi və ya cümlə daxilində yanaşı işlədilməsi təsadüfi deyil, məqsədyönlü və şüurlu yaradıcılıq əlaməti hesab oluna bilər. Məsələn:

1. Köhlən kimi kişnədi.

2. Qucağı qundaqlı Qarabirçək...

Mənim canım qəbirdə də qaynayacaqdır.

3. Kosa əlini qat-qat qırışan qara dərili çənəsinə gətirdi.

4. Boz sürüləri becərən saqqallı sərkar.

5. Ürəyinə dərin dərd düşüb.

6. Qulağına qədər qızardı.

7. Canına cəfa basır.

8. Xətir üçün xəstə yatan Sübhanverdizadə.

9. Yağ yeyib yaxada gəzərdilər.

10. Dağbaşı duruxa-duruxa dilləndi, düyünləri dolaşdı.

11. Ağzını biryolluq buradan çəkmiş, bostanını baxımsız başlı-başına buraxmışdır və s. ("Saçlı")

Bunlardan əlavə, üslubi fonetikanın əsas problemlərinə tələffüz üslubları (neytral tələffüz, kitab tələffüzü, yaxud "yüksək" tələffüz, adi danışıq tələffüzü, yaxud "alçaq" tələffüz, bütöv və ya yarımçıq tələffüz), tələffüz üslubları və tiplərinin şifahi və yazılı nitqin funksional üslublarına uyğun gəlməsi, ayrı-ayrı səs və səs birləşmələrinin üslubi variantları, müxtəlif vurğu variantları və onların üslubi keyfiyyətləri (neytral, adi, sadə), intonasiyanın üslubi imkanları və onun komponentləri (ahəng, fasilə, tembr, nitqin tempi və s.) nitqin fonetik quruluşunun funksional növlər, janrlar və formalarla bağlılığı və s. daxildir.

**ƏDƏBİYYAT**


31. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
32. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
33. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
34. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
35. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu:8

## Üslubi leksika. Leksik-semantik söz qruplarının üslubi imkanları

**ÜSLUBİ LEKSİKA.** Nitqdə sözlərin müxtəlif boyalarda və çalarlarda işlənməsi üslubi leksikanın əsas məzmununu təşkil edir. Sözlər müxtəlif məcazi mənada işləndiyinə görə onlar müəyyən üsluba xidmət edir. Azərbaycan dilində ali, bahadır, qara, ekran, elçi, zirvə, yoldaş və s. sözlər öz həqiqi mənalarından əlavə başqa sözlərlə yanaşı işlənərək yeni mənalar ifadə edir. Məsələn, ali məqsəd (əsas məqsəd), əmək bahadırı (əmək qəhrəmanı), qara kağız (ölüm kağızı), mavi ekran (televiziya), xalq elçisi (deputat), zirvəyə ucalmaq (yüksəlmək) və s. Bütün üslublarda olduğu kimi, üslubi leksikanın əsasını da sinonimlik hadisəsi təşkil edir. Bədii ədəbiyyatda sinonimlikdən müxtəlif məqsədlərlə istifadə olunur. Nümunə üçün aşağıdakı bədii parçalarda "ev" anlayışını ifadə edən sinonim cərgələrə diqqət yetirək:

*1. Safo kişi gözlərini Gülsənəm tərəfə ağardaraq, – Qarı arvaddır, – dedi, – hər nədir, səsini kəs, qoy rədd olsun öz cəhənnəminə (S.Rəhimov).*

*2. Tükəzban: Otuz il gördüyüm bu yoxsul ocaq... (S.Vurğun)*

*3. Səlbinaz xanım – Bir gün olmaz ki, bu xaraban dava, canbazlıq olmasın (V.Vəzirov).*

*4. Sən üst mərtəbədəsən, Mən aşağıda. İnsan yuvasıdır Yuxarı da, aşağı da (R.Rza).*

Bu bədii parçalarda işlənən "cəhənnəm", "ocaq", "xaraba", "yuva" sözlərinin həqiqi mənaları tamamilə başqa-başqadır. Lakin diqqət yetirildikdə məlum olur ki, həmin bədii parçalarda onlar müxtəlif çalarlarda "ev" anlayışını ifadə edir. Üslubi leksikada ümumişlək sözlərin imkanlarından daha çox istifadə olunur. Bu sözlər insanların əsas fikir və hislərini ifadə etdiyinə görə hamı tərəfindən eyni və ya yaxın səviyyədə anlaşılır. Buna görə də həmin sözlərin semantik tutumundan bədii ədəbiyyatda yüksək sənətkarlıqla istifadə olunduqda müvəffəqiyyətlə obrazlı ifadələr alınır.

*Yerdən ayağını quş kimi üzüb,*

*Yay kimi dartınıb, ox kimi süzüb,*

*Yenə öz sürüsün nizamla düzüb*

*Baş alıb gedirsən hayana, ceyran?*

*Nə gözəl yaraşır Muğana ceyran! (S.Vurğun)*

Buradakı sözlərin hamısı ümumişləkdir. Lakin həmin sözləri şeirə gətirib ustalıqla işlətmək isə yüksək sənətkarlıq tələb edir. Üslubi leksikanın problemləri içərisində terminoloji sözlərin müxtəlif üslublarda işlənmə imkanları xüsusi yer tutur. Bu, bədii yaradıcılığa daha çox aiddir. Müəyyən sahədən bəhs edən bədii əsərdə mütləq həmin sahə ilə bağlı terminlər işlənir. Terminlərdən bu cür istifadə olunması əsərin real həyatla bağlılığını daha da gücləndirir. Məsələn, Ə.Əbülhəsənin müharibə mövzusunda yazılmış "Dostluq qalası" romanında bu məqsədlə bir çox hərbi termin və termin səciyyəli sözlər işlənmişdir. Nümunə üçün bir parçaya diqqət yetirək. *"On gündən çox idi ki, o, snayperlik kursunu qurtarıb rotaya gəlmişdi. Bu günlərdə Lidiya batalyon, sonra hissə, diviziya, daha sonra snayper və cəbhə komsomolçularının konfranslarında iştirak etmişdir. Top atəşindən yeni üsulla istifadə etmək haqqında rotalarda, batareyalarda təlimat müşavirələri çağırılmaq haqqında batalyon, batareya və rota komandirlərinə tapşırıq verildikdən sonra müşavirə qurtardı".* (Ə.Əbülhəsən). Burada yazıçı hərbi terminləri işlətməklə real sözlə müharibə səhnələri yaratmağa nail olmuşdur. Üslubi leksikada dialektizm, jarqonizm, adi və loru danışıq sözləri, habelə alınma sözlərin işlənmə xüsusiyyətləri də diqqəti cəlb edir.

***Leksikanın üslubi imkanları. Sinonim vasitələr***. Danışıq zamanı üslubi effekt və səlislik yaratmaq, lüzumsuz təkrarlara yol verməmək, fikin daha təsirli, ifadəli və dəqiq ifadə edilməsi məqsədilə rəngarəng sinonimlərdən istifadə olunur ki, onlar nitqin təsir gücünü artırır, emosionallıq və ekspressivlik yaradır ki, onlar incə məqamları ifadə etmək üçün geniş və rəngarəng üslubi imkanlara malikdir. Danışan fikir və hisslərini daha dəqiq ifadə etmək üçün sinonim cərgəyə məxsus lazımi sözü yerli-yerində elə işlədir ki, bu, nitqdə dəqiqliyi yaradır, eyni zamanda

ahəngdarlıq təmin edir. Bu baxımdan Ulu öndər H.Əliyevin nitqi təsirli və zəngin olmuşdur. Onun dilində *həyəcan-narahatlıq, arzu-istək, kömək-qayğı-mənəvi dayaq, bilikli-savadlı, hörmət-ehtiram-minnətdarlıq, fikir-duyğu-istək* və s. kimi ifadələrə, sinonimlərə tez-tez rast gəlmək mümkündür ki, bu da onun dilinin leksik cəhətdən zəngin olduğunu göstərir.

Leksik vasitələrdən, o cümlədən sinonimlərdən istifadə şifahi nitqə bir növ yaradıcı xarakter verir. Natiqlər, müəllimlər və başqaları hərə öz bacarığı, nitq tutumu və lüğət ehtiyatının səviyyəsi dairəsində sinonimlər işlətməyə çalışırlar. Sinonimlər vasitəsilə yaranan rəngarənglik nitqi maraqlı edir, dinləyicilər belə danışıq tərzini rəğbətlə qarşılayırlar. Dilimizin leksikası sinonimlik baxımından olduqca zəngindir: qoçaq, igid, cəsur, qorxmaz, qəhrəman; güc, qüvvə, taqət; el, vətən, diyar, yurd, oba, ocaq; keçid, aşırım; dünya, aləm, cahan, kainat; üz, sifət, bəniz, camal, surət; xoşbəxtlik, səadət; iftixar, qürur; söz, deyim; gələcək, istiq-bal; ayrılıq, hicran; incə, zərif, nəfis, lətif; tək, tənha; od, atəş; səs, səda, avaz və s.

Nümunələrdən göründüyü kimi, sinonim cərgələri əmələ gətirən kompo-nentlərin hər biri öz semantik dairəsinə görə digərlərindən fərqləndiyi üçün mənaca tam üst-üstə düşmür. Onların hər biri həmin cərgədəki əsas sözü müəyyən cəhətdən aydınlaşdırır, dəqiqləşdirir.

Nitqdə sinonimlərdən aşağıdakı məqsədlərlə istifadə olunur:

a) nəzərdə tutulmuş fikrin daha təsirli, emosional, dəqiq və incə məna çalarında dinləyiciyə çatdırılması;

b)məzmundan asılı olaraq müəyyən məna koloriti (məsələn, komiklik, liriklik və s.) yaratmaq;

c) nitqin etik normalarını gözləmək, dil vahidlərindən ictimai nəzakət qaydalarına uyğun istifadə etmək, kobud, qaba, eyibli sözlərin (vulqarizmlərin) işlənməsinə yol verməmək;

ç) nitqdə lüzumsuz təkrarlardan qaçmaq.

Sinonimlərdən istifadə, hər şeydən əvvəl, sözlərin yersiz təkrarından yaranan nitq qüsurunun (məsələn, *yazıçı-yazıçıdır. Bu qədər özbaşınalıqdan təkbaşına baş çıxarmaq olmaz; Qısa hazırlıq tam şəkildə hazırdır; İşin sonunda iş sona çatdı;*

*Qiymətlə qiymətləndirildi, döyüşlərdə döyüşmək, yazı yazmaq, geyimləri geymək, yeni bir yenilik, nüfuzdan düşmüş nüfuz, xəbərdən xəbəri yoxdur, layihəni həyata keçirmək üçün layihə hazırlamaq, atəşkəsi kəsmək* və s. kimi*)* qarşısını alır. Bəzən dil kasıblığı, söz ehtiyatının məhdudluğu üzündən danışan, eləcə də yazan eyni sözü, ifadəni (məsələn, *deyir, deyir ki, demək, deyə, xüsusilə, təbii ki* və s.) cümlələrdə təkrarlayır ki, bu da nitqin ağırlaşmasına, təsirinin azalmasına səbəb olur. Belə halda sözün sinonimlərindən istifadə edilsə (məsələn; *deyir, söyləyir, bildirir, açıqlayır, göstərir, qeyd edir, buyurur, bəyan edir* və s.), nitq daha yaxşı səslənər və aydın dərk olunar.

Sinonim vasitələrdən istifadə natiqlik sənətində xüsusi əhəmiyyət kəsb edir. Müşahidələr göstərir ki, kifayət qədər söz ehtiyatına malik olan, sözləri yerindən işlətməyi bacaran şəxsin nitqi aydın, cazibədar və təsirli olur. Dilin sinonimik imkanları, üslubi funksiyalarını yaxşı mənimsəyən natiq nəzərdə tut-duğu fikri dinləyiciyə çatdırmaq üçün söz seçməkdə çətinlik çəkmir, zəngin, emosional və ekspressiv ifadə vasitələrindən bacarıqla istifadə edə bilir ki, bu da nitqin təsir gücünü artırır.

Natiq öz danışığında (eləcə də yazısında) leksik sinonimlərlə yanaşı, sinonim frazeoloji vahidlərdən də istifadə etməyi bacarmalıdır. Məsələn: dili dolaşmaq – dili topuq vurmaq, gözə gəlmək – göz dəymək, evinə od vurmaq – külünü göyə sovurmaq, rəhmətə getmək – dünyasını dəyişmək, ürək-göbəyi düşmək – bağrı yarılmaq, başını itirmək – çaş-baş düşmək, hörmətdən düşmək – nüfuzunu itirmək və s. sinonim frazeoloji vahidlər nitqin emosionallığını, təsir gücünü, ifadəliliyini artırır, onun xəlqiliyini təmin edir.

***Antonim sözlər.*** Nitq prosesində təzadlı, ziddiyyətli hadisə və əşyaları qabarıq, obrazlı bir şəkildə təsvir etmək, qiymətləndirmək, nəzərə çarpdırmaq məqsədilə antonimlərdən istifadə olunur. Bədii təsvir vasitəsi kimi antonimlər nitqdə lakoniklik, konkretlik, obrazlılıq yaradır. Antonimlərdən dilin bütün üslublarında istifadə olunsa da, onlar üslubi vasitə kimi bədii ədəbiyyatda, poeziyada daha geniş şəkildə işlədilir: *Mən yaşıd qardaşam qocayla, gənclə,*

*Sirli bir aləməm bütün aləmdə.*

*Nifrət məhəbbətlə, sevinc kədərlə,*
*Baş-başa uyuyur mənim sinəmdə.*
***N.Xəzri***

Bu parçada lirik qəhrəmanın dünyaya, insanlara münasibəti, ümumiyyətlə, bədii portreti *qoca-gənc, nifrət-məhəbbət, sevinc-kədər* kimi antonimlərlə qabarıq şəkildə nəzərə çatdırılır.

Antonim sözlərdən əşya və hadisələrin qarşılaşdırılması, müqayisə yolu ilə təzadlı lövhələrin yaradılması məqsədilə istifadə olunur. Bu baxımdan aşağıdakı nümunələrə diqqət edək:

*Sən mənim qəribə qismətim, payım,*
*Gecələr gündüzüm, gündüzlər ayım.*
*Güneydə-quzeyim, qışda yazımsan,*
*Sən mənim həmişə əlçatmazımsan.*
***B.Vahabzadə***

*Mən bir xarabalıqla bir gülüstanın,*
*Mən xəzanla baharın, qocayla gəncin,*
*Mən ölümlə həyatın, qəmlə sevincin*
*Arasında qurulmuş böyük bir körpüyəm.*
***M.Müşfiq***

Burada *gecə-gündüz, güney-quzey, qış-yaz, xarabalıq-gülüstan, xəzan-bahar, qoca-gənc, ölüm-həyat, qəm-sevinc* kimi antonimlərlə təzadlı lövhələr yaradılmışdır.

Natiqlik təcrübəsində danışan bəhs etdiyi əşya və hadisələrin kəmiyyət, keyfiyyət, zaman və məkan məzmunlarının əks və ziddiyyətli cəhətlərini ifadə edərkən daha uyarlı və təsirli antonim sözlərdən istifadə etməyi bacarmalıdır. Bu məqsədlə antonimlər məntiqi vurğu ilə, nəzərə çarpacaq bir tərzdə tələffüz olunmalıdır.

Obrazlılıq yaradan, fikri, mətləbi məntiqi çalarlarla diqqətə çatdıran ifadə vasitələri kimi nitq mədəniyyətində, natiqlik sənətində frazeologizmlərin – idiom, ibarə,

hikmətli söz, atalar sözü, zərbi-məsəl, metafora, metonimiya, sinekdoxa və sairənin də rolu böyükdür.

***Frazeoloji birləşmələr.*** Nitqin emosionallığını, obrazlılıq və ifadəliliyini yaradan ən təsirli vasitələrdən biri frazeoloji birləşmələrdir. Məcazi məna kəsb edən bu birləşmələrin nitqdə yaratdığı canlılıq, obrazlılıq onların qarşılığı olan leksik sinonimlərdən qat-qat qüvvətlidir. Müqayisə edək: *danışmaq-söz açmaq; doğulmaq-dünyaya gəlmək; ölmək-dünyasını dəyişmək; incimək-üz çevirmək; çaşmaq-özünü itirmək; gedib-gəlmək-ayaq döymək; yoxlamaq-ağzını aramaq; tutulmaq-ələ keçmək; yaşamaq-ömür sürmək; dirçəlmək-baş qaldırmaq* və s.

Dilimizdə frazeoloji birləşmələr forma və məzmunca olduqca zəngindir. Danışıq prosesində onlardan bütövlükdə nitqi qüvvətləndirmək, məna rəngarəngliyi və ifadəlilik yaratmaq məqsədilə tez-tez istifadə olunur. Məsələn, *ağzına dil atmaq, canını boğazına yığmaq, kirpiyi ilə od götürmək, Çin səddi qoymaq, qayğı göstərmək, milləti satmaq, aranı qarışdırmaq, danışıqları pozmaq, quşu gözündən vurmaq, quşu quş ilə tutmaq, toydan sonra nağara, qabağına kötük itələmək* və s.

Dinləyici ilə təmasda olan natiq (müəllim) öz nitqinin, danışığının digər cəhətlərilə yanaşı, məcazi söz və ifadələrlə zəngin olması qayğısına da qalmalı, dilimizin ayrı-ayrı funksional üslublarına – bədii, ictimai-siyasi, publisistik, məişət, adi danışıq üslublarına aid frazeoloji birləşmələri məqsədəuyğun şəkildə işlətməyi bacarmalıdır.Bu birləşmələr nə qədər yerli-yerində işlədilsə, nitq bir o qədər zəngin, əlvan və rəngarəng olar. Ulu öndərimiz Heydər Əlıiyevin nitqi bu baxımdan nümunəvi idi. “Ümumiyyətlə, Heydər Əliyevin nitqlərində, çıxışla-rında, məruzələrində çox az cümlə tapmaq olar ki, orada frazeoloji vahidlər işlənməmiş olsun” (32, 103).

Söz ustaları nitqlərində dilin bu ifadəlilik vasitəsinin sinonim cərgəsindən də istifadə edirlər. Məsələn*; Onlar bu yolda böyük əziyyətlər çəkmiş, gecəni-gündüzə qataraq işləmiş, alın təri axıtmış, əllərindən gələni əsirgəməmişlər*: Bu tipli cümlələrdə və ya mətnlərdə sinonim cərgəni təşkil edən frazeoloji vahidlər bir-birini tamamlayır, nitqdə ifadəlilik, aydınlıq və bütövlük yaradır.

**Atalar sözü, zərbi-məsəllər, aforizmlər**. Xalq zəkasının, müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi olan atalar sözü, zərbi-məsəl və aforizmlərdən ünsiyyət prosesində geniş istifadə olunur. Bu yığcam, müdrik, obrazlı ifadələr öz dərin mənaları ilə yanaşı, gözəl səslənməyə də malikdir. Orada səslərin, xüsusən samit səslərin alliterasiyası, saitlərin assonansı deyilişdə ahəngdarlıq yaradır ki, bu da həmin ifadələri qulağayatımlı edir, ölçülü nəzm kimi səslənməsinə səbəb olur. Məsələn; *uma-uma döndüm muma; asta vur, usta vur; kor-kor, gör-gör; qız yükü, duz yükü; bala dadı bal dadı; pulu pul, minnəti minnət* və s. Bu qəbildən olan atalar sözü və məsəllər nitqə səslənmə baxımından xüsusi effekt verir, söylənilən fikri konkretləşdirir, onu daha mənalı edir.

Natiqlik praktikasında, xüsusən tərbiyəvi mövzuda aparılan söhbətlərdə ibrətamiz ifadələrdən fikri əsaslandırmaq, dinləyəni hər hansı bir işin icrasına sövq etmək və ya ondan çəkindirmək, düşündürmək, deyilənləri əsaslandırmaq, yekunlaşdırmaq və s. məqsədlərlə istifadə olunur. Düzgün, yerinə düşən atalar sözü və məsəllər söylənilən fikrin, bir növ, məntiqi özəyi olur. Dinləyici bu hikmətli ifadələrin köməkliyi ilə nə vaxtsa eşitdiyi və ya oxuduğu bir əhvalatı xatırlaya və bütövlükdə yaddaşında bərpa edə bilir. Adamlar bəzən hər hansı bir atalar sözünü əsas götürüb onun məzmununa uyğun mühakimələr söyləyirlər. Bu mənada atalar sözü, zərbi-məsəllər bir çox hallarda şagird və tələbə inşaları üçün mövzu kimi seçilir. Məsələn; *Arzu arzudan doğur; Torpaq ovuclayan qızıl ovuclayar; Dirilik birlikdədir; El sevəni aləm sevər; Vətənə gəldim, imana gəldim* və s.

Natiq həyatın müxtəlif sahələrinə aid olan bu hikmətli ifadələrdən nitqində yerində və məqsədəuyğun istifadə etməyi, onları mövzularla, izah olunan məsələlərlə uyğunlaşdırmağı bacarmalıdır. Atalar sözü və zərbi-məsəllər, aforizmlər yerində deyiləndə daha təsirli olur. Gözəl müəllim, istedadlı natiq olan mərhum yazıçımız İ.Şıxlı öz danışığında, mühazirələrində, əsərlərində xalqın yaratdığı bu zəngin ifadələrdən ustalıqla istifadə edirdi. Vətənin ağır günləri idi. Torpaqlarımız bir-birinin ardınca işğal olunurdu. Belə ağır vaxtda satqınlar, dönüklər əl-qol açmışdı, meydan sulayırdı. Ermənilərdən də qorxulu olan belə-lərini xalqa tanıtmaq lazım idi. Elə bu vaxt İ.Şıxlının dövrü mətbuatda kəsərli bir yazısı çap olundu. Yazıçı

"sapı özümüzdən olan baltalar" məsəlini misal çəkərək satqınlar, xainlərlə bağlı dolaşıq fikirlərə bir aydınlıq gətirdi. Xalq dost və düşmənini tanıdı. Bu zərb-məsəl indi də yaramazları adlandırmaq üçün ən tutarlı ifadə kimi işlədilir.

Gətirdiyimiz nümunə bir daha sübut edir ki, hikmətli ifadələr, məsəllər, əhvalatlar yerində, vaxtında deyiləndə nitqi zənginləşdirir, onun təsir gücünü artırır.
**Ritorik sual.** Müasir Azərbaycan dilində sual cümləsinin elə bir forması işlədilir ki, bu cümlələr cavab almaq deyil, nitqin təsirini artırmaq, dinləyicini düşünməyə sövq etmək məqsədi daşıyır. Bunlar ritorik sual cümləsi adlanır. Məsələn;

*Arzuya bax, sevgilim, tellərindən incəmi?*

***(M.Müşfiq)***

*Vətənim verdi mənə nanu-nəmək,*
*Vətəni, məncə, unutmaq nə demək?*

***(A.Səhhət)***

Vətən və ana. Bu iki sözdən şirin və müqəddəs nə ola bilər? və s.

Bu qəbildən olan sualların bir qismi (bədii suallar) dildə frazeoloji vahid kimi sabitləşmişdir: "Ağ at arpa yeməz?", "Varlığa nə darlıq?", "Çay nədir, say nədir?", "Dəvəyə çimdik neylər?" və s. Natiqlik sənətində bu tipli cümlələrdən dinləyicilərin diqqətini səfərbər etmək, müəyyən fikri qətiləşdirmək, məlum olanı bir daha təsdiqləmək (məsələn, *Danışığında qüsurlara yol verən müəllim öz şagirdlərini mədəni nitqə yiyələndirə bilərmi?; Özünə umac ova bilməyən, özgəyə necə əriştə kəsə bilər?* və s.) məqsədilə istifadə edilir. Mühazirəçi lazım bildikdə (sualın izahına ehtiyac duyulduqda) bu suallara özü cavab verə bilər.

Nitqin üslubi rəngarəngliyinin təmin edilməsində dilin bədii təsvir vasitələrinin (metafora, metonimiya, sinekdoxa, epitet, müqayisə, bənzətmə, mübaliğə, tabu sözlər və s.) də rolu böyükdür. Onlardan bir neçəsini yığcam şəkildə şərh edirik.

**Metafora.** Metafora yunan sözü olub mənası "məna keçirilməsi" deməkdir. Metafora müxtəlif əşyalar arasında əlaqə - (bənzətmə, oxşarlıq, müqayisə) kimi dərk edib, onları eyni səs tərkibli sözlə adlandırmaqdır. Məsələn; canavarın başlıca

xüsusiyyəti güclü, yırtıcı, vəhşi, dağıdıcı olmasıdır. Hər hansı adamda belə xüsusiyyət olarsa, ona "canavar" deyilir və bu sözlə bağlı dildə metafora yaranır. Yaxud, bic, hiyləgər adama "tülkü" deyilərsə, bu da metaforadır. Hal-hazırda məşhur səhnə ustaları, müğənni və başqalarının "ulduz" adlandırıl-ması da metaforadır. Dilimizdə heyvan adlarından: pələng, aslan, canavar, tülkü, çaqqal, ayı, ilan, qoyun, quzu, maral, ceyran, öküz, eşşək, qurbağa və s.; quş adlarından tərlan, bülbül, kəklik, sona, göyərçin, bayquş; həşərat adlarından hörümçək, əqrəb və s. sözləri metaforik mənada işlənə bilir. Danışıq dilində insan-lar dəyərləndirilərkən onlara verilən mənfi və müsbət qiymətlər müvafiq metaforalarla ifadə olunur. Müsbət xüsusiyyəti ifadə edəndə *ceyran, maral, aslan, pələng, sona, bülbül, göyərçin,* mənfi xüsusiyyətləri göstərmək üçün *tülkü, öküz, ilan, qurbağa* və s. kimi metaforalar işlədilir.

Metaforalar əşya və hadisələrin müəyyən bənzəyiş əlaqələri əsasında yaranır. Dilçilik ədəbiyyatında bu oxşarlığın aşağıdakı formaları göstərilir:

zahiri oxşarlıqla əlaqədar yaranan metaforalar. Bəzən insana aid cəhətlər adi oxşarlıq nəticəsində başqa əşyaların üzərinə keçirilir. Məsələn; *qabın boğazı, ayaqqabının burnu, çayın qolu, südün üzü* və s.

daxili əlamətlərinə görə oxşarlıq nəticəsində əmələ gələn metaforalar. Məsələn; *tülkü, maral, aslan, canavar, quzu, göyərçin, sona* və s. Heyvan və quş adları insan üzərinə köçürüldükdə həmin sözlər metaforaya çevrilir. İnsana və ümumiyyətlə, canlılara məxsus xassələr əşyaların üzərinə köçürüləndə metafora əmələ gəlir. Məsələn; *ölüm gəzir, fikir doğur, işlər axsayır, ay doğur* və s.

Metafora, adətən, bədii təsvir vasitəsi kimi qiymətləndirilir və onun haqqında bu səpkidə bəhs edilir. Eyni zamanda məcazın bu növündən emosional-ekspressiv xarakterli nitqdə təsirli bir vasitə kimi istifadə olunur. Qədim Roma alimi Kvinntilian metaforanı məcazın ən yaxşı növü hesab etməklə onu "təbiətin vergisi" kini qiymətləndirmişdir: "Metafora, yaxud məna köçürməsi nitqi gözəlləşdirməklə bərabər, adları olmayan əşyalara da ad verir" (22, s.16).

Mədəni nitqdə, natiqlik sənətində metaforadan istifadənin əhəmiyyəti böyükdür. Natiq dərin və incə hissləri verə bilmək, dinləyicinin estetik zövqünü oxşamaq, ona

qüvvətli emosional təsir göstərmək üçün dilin bu ifadəlilik vasitəsini ustalıqla işlətməyi bacarmalıdır.

**Metonimiya.** Daxili və xarici əlaqələr əsasında mənanın bir sözdən başqa sözə keçirilməsi metonimiya adlanır. Məsələn, **qabın içindəki** əvəzinə **qab** sözü (Bir qab yedim); **əsər** əvəzinə **əsərin müəllifinin** adı (məs.; Mən Vurğunu əzbər bilirəm); **adamlar** əvəzinə məkan (**kənd, məktəb, ölkə** və s.) sözlər. (məs.; **Kənd** yuxudan yenicə oyanırdı. **Məktəb** yarışda birinci yerə çıxdı. Bütün ölkə ayağa qalxdı) və s. işlədilir.

Metonimiyanın metaforadan fərqi odur ki, birincidə sözlərin bənzərlik əlaqəsi, sonuncuda isə semantik tutumu əsas götürülür. Metonimiya dilin ifadəlilik imkanlarını artırır.

**Sinekdoxa.** Məcazın bu növündə eyni söz həm bütöv, həm də bütövün hissələrini bildirir. Sineqdoxanın daha geniş yayılmış forması sözün cəm əvəzinə təkdə işlənməsidir. Məsələn; *Tələbənin (tələbələrin) vəzifəsi yaxşı oxumaqdır. Kiçik (kiçiklər) böyüyün (böyüklərin) yanında danışmaz; İxtisasını yaxşı biləni (bilənləri) işə qəbul edirlər* və s. Sinekdoxanın bir növündə şəxsi bildirmək üçün bədən üzvləri və ya paltar adı işlənir. Məs.: ağsaqqal, keçəl, ağbirçək, sarıköynək, çalpapaq, qırmızıpapaq və s.

Məcazi mənası sabitləşən bu sinekdoxalar dildə müstəqil leksik vahid kimi işlədilir.

**Epitet.** Epitet məcazi mənada işlənən obrazlı, bədii təyindir. Bu söz yunanca *epithos* sözündən olub mənası "əlavə" deməkdir. Burada əşya və hadisələrə məxsus əlamət oxşar olan başqa bir əşya və hadisəyə əlavə edilir. Məs.: *çılpaq ləpələr, qoca dünya, qara gözlü gecə, ala gözlü gündüzlər, durna gözlü bulaqlar, şən ləpələr, saqqallı uşaq, ipək telli, durna ğözlü, nazlı bahar, göy gözlü dəniz, şən ləpələr, yorğun bulud, mərmər sinə, xəncər kirpik* və s.

"Şimali Midiyanın lətif təbiəti bağçaların boyuna biçdiyi yaşıl və çiçəkli donu tikib bitirmək üzrə idi. Kəpəz dağından əsən külək fəzada nazlanan buludları Xanəgah kəndinin meşələrinə doğru sürdüyü zaman şam ağacları da ağır-ağır başlarını əyirdi. Yağış bir saat əvvəl dayanmış, buludların suvardığı çöllər, meşələr,

bağ-bağçalar gülürdü. Yasəmənlər dağınıq saçlarını yaşıl budaqların üstünə sərib qurudur, xanəndə bülbüllər qızıl gülün yanağından tərləri silmək üçün gül budaqlarını tərpədir, lalələr isə piyaləsinin qaldırıb bahar cəmiyyətinin şərəfinə içmək istəyirdi. Nərgizgülü şadlığından yaşlanmış gözlərini silərək bahar səhnəsinə tamaşa edir, bənövşələr başını çiyinlərinə qoyub düşünür, bəstəkar kəkliklər isə meşə səyahətinə çıxan gənc bir şairi qarşılamaq üçün salam musiqisini çalırdı" (M.S.Ordubadi). Bu nümunədəki ifadəlilik, ekspressivlik epitetlərin (eləcə də digər məcazların) vasitəsilə verilmişdir.

Epitetlər qüvvətli bədii təsvir vasitələrindəndir. Onlar bədii üslubun hər hansı bir janrında işlənərək müxtəlif xarakterli əşya və hadisələrin səciyyə-ləndirilməsinə xidmət edir. Məsələn,

*Hər səhər, hər axşam, hər axşam, hər səhər Çox zaman sərsəri*
*küləklər bixəbər Bir yığın dost kimi qapını döyərlər*
*Küləklər, küləklər, bəstəkar küləklər*
*Dünyanı dolaşan bəxtiyar küləklər.*

M.Müşfiq bu misralarda mənalı və təsirli epitetlərin köməyi ilə (sərsəri küləklər, bixəbər dost, bəstəkar küləklər, bəxtiyar küləklər) bu təbiət hadisəsini, onun xüsusiyyətlərini obrazlı şəkildə səciyyələndirir, küləklər haqda təəssüratı gücləndirir.

**ƏDƏBİYYAT**


36. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
37. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
38. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
39. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
40. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu-9
## Üslubi onomastika

Onomastika ötən əsrin 60-cı illərində müasir Azərbaycan dilçiliyinin prioritet istiqamətlərindən biri olub, diqqəti ən çox cəlb edən vacib elmi-tədqiqat sahələrindən birinə çevrilib. Ümumiyyətlə, dildəki hər bir xüsusi adın -onomastik

vahidin ictimai-tarixi inkişafın məhsulu olduğunu yada salsaq, bu sahənin əhəmiyyətini daha aydın təsəvvür etmək olar. Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktordır, tarixin canlı şahidləridir. Buna görədir ki, Afad Qurbanov onomastik tədqiqatın əhəmiyyətini və həmin qədər də məsuliyyətini nəzərə alaraq bu sahədə ciddi elmi tədqiqatları sistemli, ardıcıl şəkildə apararaq Azərbaycan dilçilik elmində onomastika məktəbini yarada bildi.

Afad Qurbanov onomastik vahidlərin özünəməxsus spesifik cəhətlərini nəzərə alaraq onların hər birinin sosial işarələr olduğu qənaətində idi və buna görə onomastik vahidlərin tədqiqini bir neçə cəhətdən əhəmiyyətli hesab edirdi:

a) dilin lüğət tərkibinin bütövlüklə xarakteristikasını vermək üçün onomastik vahidlərin tədqiqi son dərəcədə vacibdir;

b) onomastik vahidlərin çoxunda indi olmayan forma və anlayışların izi qala bildiyinə görə bunların tədqiqi dilçiliyin ən mürəkkəb və mühüm sahələri hesab edilən dil tarixi, dialektologiya və üslubiyyat üçün zəruri faktlar verə bilir;

c) onomastik materialın öyrənilməsi dilçiliklə yanaşı tarix, etnoqrafiya, sosiologiya və coğrafiya elmlərinin bir sıra problemlərinin açılmasına kömək edir;

ç) onomastik vahidləri düzgün bilmək və yazmaq insanın ümumi mədəniyyətinə təsir edən vasitələrdəndir.

Buna görədir ki, akademik A.Qurbanov onomalogiyanın tədqiqat obyektinin istiqamətlərini belə yönəldilməsini zəruri sayırdı:

- Dilimizin leksikasındakı xüsusi sözlərin müxtəlif cəhətlərini araşdırmaq;

- Xüsusi sözlərin mənşəyini, areallığını, dil mənsubluğunu müəyyənləşdirmək;

Xüsusi sözlərin struktur cəhətlərini, yaranma yollarını, semantikasını, dildəki üslubi çalarlarını və s. öyrənmək.
onomastika ötən əsrin 60-cı illərində müasir Azərbaycan dilçiliyinin prioritet istiqamətlərindən biri olub, diqqəti ən çox cəlb edən vacib elmi-tədqiqat sahələrindən birinə çevrilib. Ümumiyyətlə, dildəki hər bir xüsusi adın -onomastik
vahidin ictimai-tarixi inkişafın məhsulu olduğunu yada salsaq, bu sahənin əhəmiyyətini daha aydın təsəvvür etmək olar. Xüsusi adlar keçmişin izlərini özündə mühafizə edib müasir zamana kimi gətirən real faktordır, tarixin canlı şahidləridir. Buna görədir ki, Afad Qurbanov onomastik tədqiqatın əhəmiyyətini və həmin qədər də məsuliyyətini nəzərə alaraq bu sahədə ciddi elmi tədqiqatları sistemli, ardıcıl şəkildə apararaq Azərbaycan dilçilik elmində onomastika məktəbini yarada bildi.

Afad Qurbanov onomastik vahidlərin özünəməxsus spesifik cəhətlərini nəzərə alaraq onların hər birinin sosial işarələr olduğu qənaətində idi və buna görə onomastik vahidlərin tədqiqini bir neçə cəhətdən əhəmiyyətli hesab edirdi:

a) dilin lüğət tərkibinin bütövlüklə xarakteristikasını vermək üçün onomastik vahidlərin tədqiqi son dərəcədə vacibdir;

b) onomastik vahidlərin çoxunda indi olmayan forma və anlayışların izi qala bildiyinə görə bunların tədqiqi dilçiliyin ən mürəkkəb və mühüm sahələri hesab edilən dil tarixi, dialektologiya və üslubiyyat üçün zəruri faktlar verə bilir;

c) onomastik materialın öyrənilməsi dilçiliklə yanaşı tarix, etnoqrafiya, sosiologiya və coğrafiya elmlərinin bir sıra problemlərinin açılmasına kömək edir;

ç) onomastik vahidləri düzgün bilmək və yazmaq insanın ümumi mədəniyyətinə təsir edən vasitələrdəndir.

Buna görədir ki, akademik A.Qurbanov onomalogiyanın tədqiqat obyektinin istiqamətlərini belə yönəldilməsini zəruri sayırdı:

- Dilimizin leksikasındakı xüsusi sözlərin müxtəlif cəhətlərini araşdırmaq;

- Xüsusi sözlərin mənşəyini, areallığını, dil mənsubluğunu müəyyənləşdirmək;

Xüsusi sözlərin struktur cəhətlərini, yaranma yollarını, semantikasını, dildəki üslubi çalarlarını və s. öyrənmək.

Onomastik vahidlər Azərbaycan ədəbi dilinin bədii üslubunun lüğət tərkibini zənginləşdirir, əsərin məzmununa, ideyasına, surət xəttinə və.s xidmət edir. Tarixi inkişaf boyu xalqın formalaşmasının bütün mərhələlərində iştirak edən onomastik vahidlərin tarixi-müqayisəli aspektdə tədqiqi əvəzsiz rol oynayır. Onomastika müasir dilçilikdə hərtərəfli tədqiqə ehtiyacı olan bir bölmədir. Azərbaycan dilçiliyində onomastikanın müxtəlif sahələrindən bəzi qrammatika kitablarında, monoqrafiyalarda, dərsliklərdə danışılmasına və geniş izahı verilməsinə baxmayaraq, onomastikanın ədəbi dilimizin bədii üslubunda öz həllini tapmayan nəzəri məsələləri vardır. Dilçilikdə “onomastika” sözünün iki mənası izah olunur:

1) dildə mövcud olan xüsusi adların hamısı;

2) dilçiliyin xüsusi adları öyrənən bəhsi. A.Qurbanov isə dildəki xüsusi adların məcmusunun – onomastika, ondan bəhs edən dilçilik sahəsinin isə onomalogiya adlandırılmasını daha məqsədəyönlü hesab etmişdir (146, 129). T.I.Hacıyev və K.N.Vəliyev “Azərbaycan ədəbi dilinin tarixi” monoqrafiyasında onomastikanın xalqın tarixini əks etdirən faktorlardan biri olduğunu əsaslandıraraq yazmışlar:

“insan adlarının yaratdığı təbəqələr xalqın tarixi inkişafının mərhələlərinə uyğundur.” (103, 64) Onomastika bütövlükdə xüsusi adların toplusudur. Xüsusi adlar isə öz vəzifə, funksiya və mənalarına görə ümumi adlardan kəskin surətdə fərqlənir. Onomastikanın əsas tədqiqat obyekti olan xüsusi adları öyrənmək üçün ona müxtəlif istiqamətdən yanaşmaq lazımdır. Xüsusi adların yaranması – praktik cəhət; adların həm elmi, həm də metodoloji cəhətdən öyrənilməsi isə nəzəri cəhətdir. Həm ümumi, həm də xüsusi adların yaranması bizi nitqin yaranması dövrünə aparıb çıxarır. Ümumilikdə, ad anlayışı çox qədimdir. Ümumi adlar ilkindir, xüsusi adlar isə ümumi adlardan törəmişdir. Qeyri-real olsa da, təsəvvür etsək ki, adlar yaranan zaman yazıya alınsa idi, demək olar ki, onomastik vahidlərin etimologiyasını aydınlaşdırmağa ehtiyac olmazdı. Nitqin yaranması və tədricən inkişafı ilə bağlı olaraq, xüsusi adların yaranması zərurəti meydana çıxmışdır. Xüsusi adlar xalqın tarixini, psixologiyasını, milli adət-ənənələrini, dünyagörüşünü, həyat tərzini və s. izah edir, aydınlaşdırır. Adlandırma zamanı, ilk növbədə, millətin öz dilinə məxsus spesifik cəhətlər əks etdirilir. Müasir dövrümüzdə onomalogiya dilçiliyin tam müstəqil şöbəsi kimi formalaşmışdır. Dilimizin onomastikası çox mürəkkəb sistemə malikdir. Bir sıra problemlərin açılması və mükəmməl onomastik nəzəriyyə yaradılması dilçiliyin mühüm vəzifələrindən biridir. Dilimizin lüğət tərkibindəki bütün isimlər iki yerə bölünür: ümumi isimlər və xüsusi isimlər. Bu bölgü dilin leksik tərkibinin ən qədim ənənəvi bölünmə üsuludur. Xüsusi isimlərin və ümumi isimlərin öyrənilməsi dilçilik elminin əsas vəzifələrindən biridir. Onomalogiyada ümumi isimlər – apelyativ leksika, xüsusi isimlər onomastik leksika terminləri ilə əvəz olunmuşdur. Onomastik vahidlər öz vəzifə, funksiya və mənalarına görə ümumi adlardan kəskin sürətdə fərqlənir. “Onomastikanı dilçiliyin xüsusi bir qolu” adlandıran A.V.Superanskaya yazmışdır: “Xüsusi adlar linqvistik kateqoriyalara daxil olan bütün sözlər kimi eyni elementlərdən təşkil olunsa da, cəmiyyətə fərqli xidmət edir.” (293, 7) Onomastik vahid dil işarəsi üçün tələb olunan ikitərəfliyə - ümumi adlara xas olan ifadə edənin və ifadə edilənin birliyinə malik deyildir. Eynicinsli bütün əşyalar umumi isimlər, eynicinsli əşyaları bir-birindən fərqləndirmək üçün verilən adlar isə xüsusi isimlərdir. Xüsusi adların, yəni xüsusi isimlərin bir neçə qrupa böləndüyünü nəzərə alsaq, onomastikanın da həmin bölgüyə uyğun olaraq bölmələri olduğunu görərik. Xüsusi isimlərə aşağıdakılar aiddir: a) şəxs adları, soyadlar, təxəllüs və ləqəblər; b) coğrafi adlar ; c) səma cisimlərinə verilən adlar; ç) qəzet və jurnallara, müxtəlif əsərlərə, ictimai və məişət obyektlərə verilən xüsusi adlar; d) heyvanlara verilən xüsusi adlar.

Xüsusi isimləri onomastik vahidlərlə eyniləşdirərək aşağıdakı kimi qruplaşdırmaq olar:

a) şəxslərin adları, soyadları, təxəllüs və ləqəblərini antroponimlərə;

b) bütövlükdə coğrafi adları toponimlərə;

c) müxtəlif yaşayış məntəqələrinin adları – yəni şəhər, rayon, kənd adları toponim və oykonimlərə;

ç) səma cisimlərinin adları (ay, planet və s.) astronim və ya kosmonimlərə; d) çay, göl, dəniz, okean adlarını hidronimlərə;

e) heyvanlara verilən xüsusi adları zoonimlərə;

ə) bina – tikili adlarını oykodonimlərə və ya urbanonimlərə;

f) qəzet və jurnallara, müxtəlif əsərlərə verilən xüsusi adları isə ideonimlərə aid etmək olar.

Elmi ədəbiyyatda "onomastika bütün xüsusi adların təcəssümü, toponimlər coğrafi adlar, antroponimlər insan adları, etnonimlər tayfa və millət adları, hidronimlər dəniz, çay, göl adları, kosmonimlər kosmik obyekt adları, teonimlər səcdəgah adları, zoonimlər heyvanlara verilən xüsusi adlar, ktematonimlər müəssisələrə və digər əşyalara verilən xüsusi adlar" kimi izah olunur (280, 3). Bədii üslubda onomastik leksikanı müəyyənləşdirərkən sözün etimoloji, semasioloji, morfoloji, leksik, fonetik cəhətləri ilə bərabər, onun sintaktik rolu da nəzərə alınmalıdır. Onomastik vahidin mənası cümlənin tərkibində müəyyənləşir. Vahidin ədəbi dilin bədii üslubunda öyrənillməsi nəticəsində "poetik onomastika" adlı tədqiqat sahəsi yaranır. Hər hansı bir onomastik vahidin yaranma tarixini bilmək isə bizi həmin dövrdə xalqımızın yaşayış tərzi, adət-ənənəsi, psixologiyası, dini mənsubluğu, milli təfəkkürü, müxtəlif xalqlarla əlaqəsi, əhalinin iqtisadi durumu və s. haqqında müəyyən təsəvvür yaradır. A.Qurbanov tədqiqatlarında dilçiliyin tarixi köklərini XIV əsrlə deyil, eramızdan əvvəlki dövrlərlə əlaqələndirərək fikrini elmi və məntiqi cəhətdən əsaslandırır: "Məlumdur ki, insanlar hələ uzaq keçmişdə dilin nə olduğunu, onun quruluşu, bir dilin xüsusən öz ana dilinin başqa xalqın dilindən fərqlənməsi ilə maraqlandığı dövrdən dilçilik elmi tədricən yaranmağa başlamışdır. Belə ki, dilçilik heç də bəzilərinin güman etdiyi kimi gənc elm deyil. Onun yaranma tarixi çox-çox qədimdir, bu elmin tarixi eramızdan əvvəlki əsrlərdən başlayır." (146, 15) Onomastik leksikanın yaranmasının bir qismi xalqın dili, dilin mənşəyi, etimologiyası ilə əlaqəli olsa da, digər bir qismi məhz obyektlərin coğrafi quruluşu, relyefi ilə sıx bağlıdır. Buna görə də dilçiliyin onomastika bölməsi tarix və coğrafiya elmi ilə sıx bağlıdır. V.A.Juçkeviç coğrafi adlardan və onu tədqiq edən elm sahəsindən danışarkən göstərir ki, adların linqvistik planda tədqiqi statistik məlumatlar, coğrafi və tarixi analizlərlə tamamlanmalıdır. (261, 12) Buna görə də V.A.Nikononun fikri ilə razılaşmamaq mümkün deyil: "Coğrafi adlar da sözdür, buna görə də bütün sözlər fiziki coğrafiyaya yox, dil qanunlarına tabedir. Toponimika özü üçün xüsusi vasitələr icad etmir, dildə mövcud olan vasitələrdən istifadə edir." (279, 66) Tədqiqatların birində yazılır: "Qədim dövr tarixçiləri toponim və etnonimlərə mötəbər sənəd kimi müraciət edirlər. Həqiqətən bu qəbildən olan sözlər mövcud torpağın əsl yaddaşıdır. Bu ərazidə nəsillər dəyişir, müxtəlif dilli

etnoslar gəlib-gedirlər, toponimlər isə yerində durub müşahidə aparır, gələnləri qəbul edir, gedənləri yola salır, ancaq ona ilk dəfə verilən adı özü ilə yaşadır. Azərbaycan toponimləri də bu torpağın qədim tərcümeyi-halını bizə çatdırır." (103, 25) Dilçiliyin ən böyük şöbələrindən biri olan onomalogiya dilimizdə mövcud olan bütün xüsusi adların yaranmasını, inkişafını, dəyişməsini, vəzifələrini, leksik və qrammatik quruluşunu, üslubi imkanlarını və s. öyrənir. Onomastikanın özünəməxsus yarımşöbələri vardır və bu yarımşöbələr bütün dünya dilləri üçün, demək olar ki, eynidir. Bu yarımşöbələr məna çalarlarına görə fərqlənsələr də, onların arasında vəhdət mövcuddur. Bu şöbələr həm də bir-birinin yaranması üçün zəmin yaradır, biri digərini tamamlayır. Qeyd etdiyimiz kimi, xüsusi adların yaranması, inkişafı müxtəlif ictimai-siyasi, tarixi, hətta iqtisadi inkişafla da bağlıdır. XIX əsr Azərbaycan ədəbi dilinin bədii üslubunun onomastikası, ilk növbədə, ümumxalq dilinin xüsusi adlar məcmusudur, sonra isə xüsusi adların bədii ədəbiyyatda işlənmə məqamı – poetik onomastikadır.

**ƏDƏBİYYAT**


41. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
42. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
43. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
44. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
45. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu:10

## Üslubi frazeologiya

**ÜSLUBİ FRAZEOLOGİYA.** Üslubi frazeologiyanın əsasını sinonimlik təşkil edir. İstər canlı danışıqda, istərsə də bədii ədəbiyyatda fikri daha dəqiq, eyni zamanda müxtəlif emosional çalarlarda təzahür etdirmək üçün eyni bir anlayış müxtəlif frazeoloji birləşmələrlə ifadə edilir. Azərbaycan danışıq nitqində tez-tez "vəzifədən ikiəlli tutmaq", "vəzifədən dördəlli tutmaq" ifadələri işlənir. Bildiyimiz kimi, həmin ifadələr vəzifəpərəst, şöhrətpərəst insanlar üçün deyilir. Belə ifadələr öz-özlüyündə bir-birindən mənasına görə fərqlənir. "Vəzifədən dördəlli tutmaq" ifadəsi "vəzifədən ikiəlli tutmaq"dan daha qüvvətli semantik tutuma malikdir. Canlı danışıq nitqində "od qiymətinə", "su qiymətinə" ifadələri "baha" və "ucuz" sözlərinin ifadə etdikləri mənaları bildirir. Burada da müxtəlif sinonim variantlar özünü göstərir. Məsələn, Baha – lap baha – bahadan baha – od qiymətinə; Ucuz – lap ucuz – ucuzdan ucuz – su qiymətinə. Bədii ədəbiyyatda frazeoloji vahidlər daha zəngin üslubi xüsusiyyətlərə malikdir. Məsələn, S.Rəhmanın komediyalarında eyni mənanın müxtəlif birləşmələrlə ifadəsinə diqqət yetirək:

1. “*Başının üstünü kəsdirdilər” – “Nəfəs almağa qoymurlar”.*

*2. “Başsız qoymaram” – “Tez-tez göz olacağam”.*

*3. “Hərarətimi artırım” – “Motoruma benzin töküm”.*

*4. “Özünü itirirsən” – “Dilin topuq çalır” və s.*

Göründüyü kimi, həmin frazeoloji vahidlər, təxminən, eyni mənanın ifadəsinə xidmət göstərir. Dildə frazeoloji vahidlər olduqca zəngin üslubi xüsusiyyətlər kəsb edir.

Nitqin emosionallığını, obrazlılıq və ifadəliliyini yaradan ən təsirli vasitələrdən biri frazeoloji birləşmələrdir. Məcazi məna kəsb edən bu birləşmələrin nitqdə yaratdığı canlılıq, obrazlılıq onların qarşılığı olan leksik sinonimlərdən qat-qat qüvvətlidir. Müqayisə edək: *danışmaq-söz açmaq; doğulmaq-dünyaya gəlmək; ölmək-dünyasını dəyişmək; incimək-üz çevirmək; çaşmaq-özünü itirmək; gedib-gəlmək-ayaq döymək; yoxlamaq-ağzını aramaq; tutulmaq-ələ keçmək; yaşamaq-ömür sürmək; dirçəlmək-baş qaldırmaq* və s.

Dilimizdə frazeoloji birləşmələr forma və məzmunca olduqca zəngindir. Danışıq prosesində onlardan bütövlükdə nitqi qüvvətləndirmək, məna rəngarəngliyi və ifadəlilik yaratmaq məqsədilə tez-tez istifadə olunur. Məsələn, *ağzına dil atmaq, canını boğazına yığmaq, kirpiyi ilə od götürmək, Çin səddi qoymaq, qayğı göstərmək, milləti satmaq, aranı qarışdırmaq, danışıqları pozmaq, quşu gözündən vurmaq, quşu quş ilə tutmaq, toydan sonra nağara, qabağına kötük itələmək* və s.

Dinləyici ilə təmasda olan natiq (müəllim) öz nitqinin, danışığının digər cəhətlərilə yanaşı, məcazi söz və ifadələrlə zəngin olması qayğısına da qalmalı, dilimizin ayrı-ayrı funksional üslublarına – bədii, ictimai-siyasi, publisistik, məişət, adi danışıq üslublarına aid frazeoloji birləşmələri məqsədəuyğun şəkildə işlətməyi bacarmalıdır.Bu birləşmələr nə qədər yerli-yerində işlədilsə, nitq bir o qədər zəngin, əlvan və rəngarəng olar. Ulu öndərimiz Heydər Əlıiyevin nitqi bu baxımdan nümunəvi idi. “Ümumiyyətlə, Heydər Əliyevin nitqlərində, çıxışla-rında, məruzələrində çox az cümlə tapmaq olar ki, orada frazeoloji vahidlər işlənməmiş olsun” (32, 103).

Söz ustaları nitqlərində dilin bu ifadəlilik vasitəsinin sinonim cərgəsindən də istifadə edirlər. Məsələn*; Onlar bu yolda böyük əziyyətlər çəkmiş, gecəni-gündüzə qataraq işləmiş, alın təri axıtmış, əllərindən gələni əsirgəməmişlər*: Bu tipli cümlələrdə və ya mətnlərdə sinonim cərgəni təşkil edən frazeoloji vahidlər bir-birini tamamlayır, nitqdə ifadəlilik, aydınlıq və bütövlük yaradır.

**Atalar sözü, zərbi-məsəllər, aforizmlər**. Xalq zəkasının, müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi olan atalar sözü, zərbi-məsəl və aforizmlərdən ünsiyyət prosesində geniş istifadə olunur. Bu yığcam, müdrik, obrazlı ifadələr öz dərin mənaları ilə yanaşı, gözəl səslənməyə də malikdir. Orada səslərin, xüsusən samit səslərin alliterasiyası, saitlərin assonansı deyilişdə ahəngdarlıq yaradır ki, bu da həmin ifadələri qulağayatımlı edir, ölçülü nəzm kimi səslənməsinə səbəb olur. Məsələn; *uma-uma döndüm muma; asta vur, usta vur; kor-kor, gör-gör; qız yükü, duz yükü; bala dadı bal dadı; pulu pul, minnəti minnət* və s. Bu qəbildən olan atalar sözü və məsəllər nitqə səslənmə baxımından xüsusi effekt verir, söylənilən fikri konkretləşdirir, onu daha mənalı edir.

Natiqlik praktikasında, xüsusən tərbiyəvi mövzuda aparılan söhbətlərdə ibrətamiz ifadələrdən fikri əsaslandırmaq, dinləyəni hər hansı bir işin icrasına sövq etmək və ya ondan çəkindirmək, düşündürmək, deyilənləri əsaslandırmaq, yekunlaşdırmaq və s. məqsədlərlə istifadə olunur. Düzgün, yerinə düşən atalar sözü və məsəllər söylənilən fikrin, bir növ, məntiqi özəyi olur. Dinləyici bu hikmətli ifadələrin köməkliyi ilə nə vaxtsa eşitdiyi və ya oxuduğu bir əhvalatı xatırlaya və bütövlükdə yaddaşında bərpa edə bilir. Adamlar bəzən hər hansı bir atalar sözünü əsas götürüb onun məzmununa uyğun mühakimələr söyləyirlər. Bu mənada atalar sözü, zərbi-məsəllər bir çox hallarda şagird və tələbə inşaları üçün mövzu kimi seçilir. Məsələn; *Arzu arzudan doğur; Torpaq ovuclayan qızıl ovuclayar; Dirilik birlikdədir; El sevəni aləm sevər; Vətənə gəldim, imana gəldim* və s.

Natiq həyatın müxtəlif sahələrinə aid olan bu hikmətli ifadələrdən nitqində yerində və məqsədəuyğun istifadə etməyi, onları mövzularla, izah olunan məsələlərlə uyğunlaşdırmağı bacarmalıdır. Atalar sözü və zərbi-məsəllər, aforizmlər yerində deyiləndə daha təsirli olur. Gözəl müəllim, istedadlı natiq olan mərhum

yazıçımız İ.Şıxlı öz danışığında, mühazirələrində, əsərlərində xalqın yaratdığı bu zəngin ifadələrdən ustalıqla istifadə edirdi. Vətənin ağır günləri idi. Torpaqlarımız bir-birinin ardınca işğal olunurdu. Belə ağır vaxtda satqınlar, dönüklər əl-qol açmışdı, meydan sulayırdı. Ermənilərdən də qorxulu olan belə-lərini xalqa tanıtmaq lazım idi. Elə bu vaxt İ.Şıxlının dövrü mətbuatda kəsərli bir yazısı çap olundu. Yazıçı "sapı özümüzdən olan baltalar" məsəlini misal çəkərək satqınlar, xainlərlə bağlı dolaşıq fikirlərə bir aydınlıq gətirdi. Xalq dost və düşmənini tanıdı. Bu zərb-məsəl indi də yaramazları adlandırmaq üçün ən tutarlı ifadə kimi işlədilir.

Gətirdiyimiz nümunə bir daha sübut edir ki, hikmətli ifadələr, məsəllər, əhvalatlar yerində, vaxtında deyiləndə nitqi zənginləşdirir, onun təsir gücünü artırır.

**ƏDƏBİYYAT**

46. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
47. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
48. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
49. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
50. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001

## Mövzu:11

## Üslubi morfologiya. Feilin üslubi imkanları

Nitq hissələri məna və morfoloji əlamətlərinə görə müxtəlif üslubi imkanlara malikdir. Üslubi morfologiyanın əsasını morfoloji vahidlərin üslubi sinonimliyi və üslubi təhkimliyi təşkil edir. Dildə ismə məxsus kateqoriyaların hər birinin müəyyən üslub çalarları özünü göstərir. Yiyəlik hal müxtəlif məna çalarlarında əksərən şəkilçili, bəzən isə şəkilçisiz işlənir. Məsələn: Feldşer Mahirəyə yanaşdı və cibindən üstü bəzəkli papiros qutusunu çıxardı (M.Hüseyn). Bəllidir ki, "papiros qutusunu" birləşməsində I tərəf qeyri-müəyyən yiyəlik haldadır. Həmin birləşməni "papirosun qutusunu" formasında da işlətmək olar. Lakin göründüyü kimi, bu forma nitqə ağırlıq gətirir. Hal şəkilçiləri isimlərdən əlavə, başqa nitq hissələrinə məxsus sözlərlə də işlənir. Bu da üslub hadisəsidir. Dildə mənsubiyyət şəkilçisi söz birləşməsində müəyyən sözlərin ixtisarına şərait yaradır. Məsələn:

*Nə üzüm qaradır, nə dilim qısa,*

*Çıxsam da alovlar, odlar içindən.*

*Mərdliyim, saflığım azçox qalıbsa,*

*Sadə adamlara minnətdaram mən. (H.Arif)*

Bu bədii şeir parçasında "üzüm", "dilim", "mərdliyim", "saflığım" isimləri I şəxsin mənsubiyyət şəkilçisini qəbul etmiş və özündən əvvəl "mən(im)" əvəzliyinin işlənməməsinə şərait yaratmışdır (mənim üzüm, mənim dilim, mənim mərdliyim, mənim saflığım). Bu da üsluba bir yüngüllük gətirmişdir. Üslubi məramlardan asılı olaraq sifətlərdə sinonimləşmə hadisəsi baş verir. Məsələn, "qəşəng", "gözəl", "yaxşı", "əla" sifətləri müxtəlif məqamlarda isimlərə qoşulub əlamət, keyfiyyət bildirir. Heç vaxt "gözəl sənətkar" əvəzinə "qəşəng sənətkar" işlənmir, işlənsə də, bu üslub səhv hesab olunmalıdır. Çox zaman "gözəl" sözü canlı danışıqda öz həqiqi mənasından kənar işlənir. Məsələn, gözəl tarixçi, gözəl alim, gözəl həkim və s. Fikrimizcə, bu birləşmələrdə "gözəl" sözü "yaxşı" sözünün sinonimi kimi işlənir. Məsələn, yaxşı tarixçi, yaxşı alim, yaxşı bəstəkar, yaxşı həkim... Lakin həmin birləşmələrdə "gözəl" sifətinin işlənməsi üslubi cəhətdən daha məqsədəuyğundur. Dildə sayların, əvəzliklərin, zərflərin, fel və köməkçi nitq hissələrinin də özlərinə məxsus üslubi əlamət və xüsusiyyətləri mövcuddur.

**Feil** ilə bağlı bir sıra üslubi məqamlar da vardır ki, nitq praktikasında natiq bu incəliklərdən yararlanmağı bacarmalıdır. Məs.; feilin zamanları qrammatik mənaları ilə yanaşı, bəzən üslubi məqamlara da xidmət edə bilir. Bu özünü bir zaman formasının başqa zaman forması yerində işlənməsi şəklində göstərir. Məsələn, keçmiş zamanda olmuş hal-hərəkət qeyri-qəti gələcək zamana məxsus forma ilə verilir.

*Bir gün kişi ova çıxar, orda at səksənər, tərlan havaya qalxar, kişinin ayağı üzəngidə qalar* (S.R.). Yaxud keçmiş zamandakı hal və hərəkət indiki zamanı formasında ifadə olunur.

*Həmin qış gecəsi Əbdül qalın yorğanının altında yatmaq istəyir, amma yata bilmir* (E.).

Bəzən icrası gələcək zamanda yerinə yetiriləcək iş, hal, hərəkət indiki zaman forması ilə işlədilir.

*Sərvər - Və onun əvəzində qulluqçu Sənəmi alıram, yazdınmı?!* (Ü.Hacıbəyli).

Feilin şəxs şəkilçilərinin də müəyyən üslubi imkanları vardırş. Məsələn, I şəxsə aid hərəkət ikinci şəxsin təki formasında verilir.

*Mən nə edə bilərəm, əlbəttə, daha yaxşı oxumaq üçün gərək yataqxanada qalasan, həm vaxtın olsun, həm də yorulmayasan* (Ş.Q.).

**ÜSLUBİ DERİVATOLOGİYA.** Sözyaratma prosesində müxtəlif üslubi və ekspressiv-emosional vasitələr özünü göstərir. Bunları iki qrupa bölmək olar:

a) kitab üslubunda sözyaratma vasitələri;

b) adi danışıq üslubunda sözyaratma vasitələri.

Kitab üslubunda sözyaratma vasitələri dedikdə, leksik (Ay – planet, ay – ilin 30 günü; iynə – tikiş iynəsi, iynə – tibb aləti; göy – səma, göy – rəng; gözəl – keyfiyyət bildirən söz, Gözəl – xüsusi ad; şirin – dad bildirən söz, Şirin – xüsusi ad, Bakı – şəhər adı, "Bakı" – mehmanxana adı, nərgiz – çiçək adı, Nərgiz – şəxs adı, "Nərgiz" – kafe adı və s.), morfoloji (-çı)4 (yazıçı, dəmirçi, qoruqçu, üzümçü); (-lı)4 (yağ-lı, çiçək-li, duz-lu, üz-lü və s); sintaktik (meşəbəyi, əmioğlu, qırxayaq, sacayağı, əlüzyuyan, üçbucaq, beşdaş, davadərman, yorğandöşək, altüst, varyox, yazıpozu və s.) nəzərdə tutulur. Adi danışıq üslubunun özünəməxsus sözyaratma xüsusiyyətləri vardır. Məsələn, Azərbaycan dilinin kitab üslubunda fel əsasən II şəxsin əmr formasında şəkilçisiz (al, gəl, de, apar və s.) işlənir. Lakin həmin forma adi danışıq üslubunda sana, sənə şəkilçisi ilə (alsana, gəlsənə, desənə, aparsana) işlənir. Sözyaratmanın üslubi xüsusiyyətlərindən biri sinonimlikdir. Məsələn, ümidsiz – naümid, anormal – qeyrinormal, bivəfa – vəfasız, göy – səma, ürək – qəlb – könül, dünya cahan – aləm – kainat və s.

**ƏDƏBİYYAT**


51. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
52. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
53. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
54. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
55. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu: 12

## Köməkçi nitq hissələrinin üslubi imkanları

Köməkçi nitq hissələrinin – qoşma, bağlayıcı, ədat və modal sözlərin fikirdəki incə çalarların ifadə edilməsində, ekspressivliyin yaradılmasında müəyyən üslubi xüsusiyyətləri vardır ki, natiqlik sənətində bunlara diqqət yetirilməlidir. Bu baxımdan qoşmaların müəyyən üslubi çalarlıq yaratmaq xüsusiyyətləri daha çox

nəzərə çarpır. Ayrı-ayrı qruplar üzrə təsnif olunan qoşmaların bir çoxu həmin təsnifatda nəzərdə tutulmuş mənalarla yanaşı, nitqdə əlavə çalarlıq da yarada bilir. Məsələn,

***Qədər qoşması:***

Zaman hüdudu mənasını yaradır,

Gecə yarsına qədər külək daha da gücləndi (G.H.)

Tahir onu axıra qədər danışmağa qoymadı (M.H.)

Məkan hüdudu mənasını ifadə edir.

*Qızın əynində tünd-qırmızı maldan qolları dirsəyə qədər don var idi* (İ.Ə.); *Qafar dayı onları darvazaya qədər yola salıb geri qayıtdı (M.H.).*

Müqayisə mənasını yaradır.

*Mən hələ indiyə kimi o qədər güclü, məlahətli bir səs eşitməmişəm* (İ.Ə.). ***Kimi qoşması***

Məsafə məhdudluğunu göstərir:

*Qaraca qız Piri kişini bağın qapısına kimi ötürüb qayıtdı* (S.S.A.).

Zaman məhdudiyyəti mənasını ifadə edir:

*Gülənbər həmin günün gecəsi səhərə kimi anasının yanında qaldı* (Ə.M.).

Müqayisə mənasını daşıyır:

*Sazın sədaları dərələrdən sel kimi, təpələrdən yel kimi keçib ellərə yayıldı* (F.E.); *Taxıl zəmiləri dəniz kimi dalğalanırdı* (M.Ə.).

Digər qoşmalar da mətndə məqsəddən asılı olaraq, bir çox məqamlarda işlənib məna çalarları yarada bilir.

Sözlərin və cümlələrin mənasını qüvvətləndirən bir nitq hissəsi kimi *ədatların* da nitqin (xüsusən şifahi nitqin) aydınlığı, emosionallığı, mənanın nəzərə çarpdırılması və s. baxımından rolu böyükdür. "Ədatlar nitqdə ayrı-ayrı sözlərə, söz birləşmələrinə və bütün cümləyə müxtəlif məna çalarlıqları verir: ifadənin səlisləşməsinə, fikrin məntiqi qurulmasına kömək edir. Ədatlar aid olduğu sözə və cümləyə dinləyicilərin diqqətini yönəldir, onların üzərinə məntiqi vurğu düşməsinə səbəb olur" (45, 449).

Ədatların üslubi imkanı o qədər genişdir ki, hər hansı bir ədat mətndə müxtəlif məna çalarları yarada bilir. Məsələn, qüvvətləndirici **ki** ədatı aşağıdakı mənaları yaradır.

Təkid mənası:

*Mən ki görməmişəm sevgini susan,*
*Məhəbbət zirvədə başlənən qar*mış (N.K.)

Sual, təəccüb mənası:

*Ay bala, bir yerin ağrımır ki?* (M.Cəlal)
*Bəs burada heç kəs yoxdur ki?* (S.R.)

Hədələmə mənası:

*Görərik, səni elə tora salım ki...*

4. Fikrin təsdiqi mənası:

*ki, yaxşı adamdır, usta!* (M.Cəlal)

*Təəssüf mənası:*

*Namaz bura gələndə qiyamət qopmaz ki* (Ə.Haqverdiyev).

6. Sevinc, diqqət və s. emosional mənası:

*Ohoo, bəy dəstəsi ilə bizə təşrif gətirir ki?* (M.İ.)

**Axı ədatı.**

Axı ədatı sual məzmununu gücləndirməklə bir neçə mənada işlənərək üslubi çalarlıq yaradır.

Sual məqamında:

*Axı bizim nə günahımız var?* (M.H.)

Etiraz, narazılıq məqamında:

*Bir də axı sən dediyin sözlər bizim işimiz de*yil (M.Cəlal).

Təəssüf məqamında:

*Ay camaat, dəftərxanada qalan var axı!* (M.Cəlal).

Məzəmmət, nəsihət, məsləhət məqamında:

*Axı sən dünyagörüşlü adamsan* (S.R.).

Xəbərdarlıq məqamında:

*Axı necə olursa-olsun düşmən yenə düşməndir* (Y.S.).

*Axı mən tək gəlməmişəm.*

Xahiş-yalvarma məqamında:

*Axı mən iş adamıyam* (S.R.).

Danışanın (yazanın) ifadə olunan fikrə və obyektiv varlığa münasibətini bildirən **modal sözlər** də nitqə müxtəlif məna çalarları (inamsızlıq, razılıq, narazılıq, təəssüf, şübhə, təəccüb, tərəddüd, kinayə və s.) verir, onun emosionallığını, ekspressivliyini artırır, fikrin ifadəsində yığcamlığı təmin edir.

*Deyilənlərə görə, o türbədə müqəddəs bir adam basdırılmışdı* (İ.Ş.); *Deyəsən, uzaqdan qaraltılar görünür* (M.S.O.); *Doğrusu, bu sözləri deyəndə rəhmətlik atamı xatırlayıram* (M.H.); *Zənnimcə, siz təqsirkarsınız* (İ.Ş.); *Nəhayət,nisbətən yüngülləşdi, həyəcanı, narahatlığı azaldı* (V.B.).

**ƏDƏBİYYAT**


56. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
57. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
58. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
59. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
60. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu: 13

## Üslubi sintaksis

Nitqdə ən çox fəaliyyət göstərən üslubi fiqurlar dilin sintaktik quruluşu ilə bağlıdır. Burada özünü göstərən müxtəlif funksional üslubların, o cümlədən elmi üslubun, bədii üslubun, canlı danışıq üslubunun və s. tipik, səciyyəvi sintaktik ünsürləri vardır. Söz birləşmələri, idarə, yanaşma, uzlaşma əlaqələri, cümlə üzvlərinin sıralanması, söz birləşmələri daxilində başqa bir söz və ya ifadənin işlədilməsi, sadə cümlənin müxtəlif tipləri və növləri, mürəkkəb cümlənin quruluşu, əlavə və xüsusiləşmələr və başqa sintaktik vahidlər nitqdə heç də hər zaman müəyyən bir qəlib çərçivəsində eyni formada və quruluşda işlənmir. Üslubi sintaksisin əsasında da birinci növbədə sintaktik sinonimlik durur. Eyni bir fikri üslubi məqamla bağlı olaraq sadə və mürəkkəb cümlə ilə ifadə etmək mümkündür. Məsələn, Günəşin üfüqləri qaralırdı ki, gəmi sahilə yaxınlaşdı. Günəşin üfüqləri qaralanda gəmi sahilə yaxınlaşdı. Bu cümlələrin məzmunu tamamilə eynidir. Lakin biri mürəkkəb, digəri

sadə cümlə şəklində qurulmuşdur. Üslubi sintaksisin ən xarakterik nümunələri nitqdə cümlə üzvlərinin sıralanmasında özünü göstərir. Nitqdə müəllifin məqsədindən asılı olaraq cümlə üzvlərinin sıralanması müxtəlif formada baş verir. Sintaktik vasitə olan intonasiya nitqdə çox mühüm üslubi rol oynayır. Xüsusilə bədii üslubda intonasiyadan obrazın daxili aləminin açılmasında, müəyyən hadisə, mühit, şərait haqqında aydın təsəvvür yaratmaq üçün geniş istifadə olunur. Eyni bir cümlənin müxtəlif intonasiyada tələffüzü də buna xidmət edir və bunun nəticəsində nəqli, sual, nida cümlələri əmələ gəlir. Dil vahidlərinin üslubi imkanları müasir dilçiliyin əsas problemi kimi diqqət mərkəzində durur. Onun nitqin müxtəlif formaları əsasında öyrənilməsi sahəsində hələ müəyyən tədqiqatlar aparılmasına ehtiyac duyulur.

Dilin üsluibiyyatla bağlı olan bölmələrindən biri də sintaksisdir. Elə bir sintaktik vahid, quruluş yoxdur ki, nitqin üslubca zənginləşməsində bu və ya digər dərəcədə iştirak etməsin. Bu baxımdan sadə cümlənin məqsəd və intonasiyaya görə növlərinin imkanları genişdir. Onlardan sual cümləsi nitqdə daha çox məna çalarları kəsb edir. Məlumdur ki, sual cümlələrindən naməlum bir şey, hadisə haqda nəyi isə öyrənmək və ya fikrin doğruluğunu müəyyənləşdirmək məqsədilə istifadə olunur:

*Yavrum, quzum, adın nədir?*

*Gülbahar.*

*Söylə sənin atan, anan varmı?*

*Var.* (H.C.)

Sual cümlələri məqsəddən asılı olaraq digər bir sıra mənalarda da işlənir ki, bunlar nitqə rəngarənglik gətirir, onun emosionallığını, ekspressivliyini, ahəngdarlığını artırır, nitqi zənginləşdirir. Bu cümlələr intizar, təəccüb, narazılıq, nigarançılıq və s. mənaları da ifadə edir. Məsələn; *Yoxsa onların başında bir iş var?* (F.K.) (intizar, nigarançılıq); *Necə? Mən inqilabi sayıqlığımı itirmişəm? Kimsəyə gərək olmamaq?! Sən heç bilirsən bu nə deməkdir?* (B.V.) (təəccüb, etiraz); *Zəhləsini niyə tökdün, nə istəyirdin ondan?* (V.B.) (etiraz); *Nə istəyirsən məndən? Mən acından günorta dururam, qızıl var məndə, ay naxələf oğlu naxələf?!* (E) (narazılıq); *Al, gör bu necədir?* (C.B.) (təhrik); *Niyə məni aldadırsan?* (C.Ə.) (məzəmmət).

Sual cümlələri ədatlarla işləndikdə burada müxtəlif məna çalarlığı ifadə olunur:

*Mənim qəlbim deyir ki, Hələ bunlar nədir ki* (M.M.). *Axı sənə yazığım gəlir?* (İ.Ş.);

*Bəs atan yoxdur?*

*Həm var, həm də yoxdur, müəllim* (Ə.H.)

Modal sözlər də suala qətilik, şübhə, ehtimal, güman və s. kimi emosional çalarlıq verir.

*Deyəsən, sənin arzuladığın vaxt gəlib çatmışdı* (P.M.); *Yaxşı, bəs sənə nə düşüb bu cür canfəşanlıq edirsən?* (A.); *Doğrudan da, işin var sənin?* (E.).

**Əmr cümlələrinin** işlədilməsində də fərqli məna çalarları, üslubi məqamlar vardır. Bu cümlələr danışanın məqsədindən asılı olaraq təkid, təklif, xahiş, məsləhət, nəsihət, çağırış, arzu, istək, təskinlik, yalvarış, qəzəb və s. kimi mənalar ifadə edir, müvafiq intonasiya ilə tələffüz olunur.

*Vaqqıldama bayquş kimi idbar dilənçi!* (Sabir) (qəzəb); *Tək vəzir qalsın, özün də yaxın gəl (*F.K.) (əmr, təkid);

*Gəl-gəl, a yaz günləri,*

*İlin əziz günləri* (A.Ş.) (arzu, istək)

*Allah sənin ömür, dövlətini artıq eləsin, ağa!* (M.F.A.) (yalvarış); *Haqdən ayrılma, şahım!... Elm və səbatımızı qoru, şahım* (İ.N.) (məsləhət, nəsihət); *Çağır gəlib mənə kömək etsinlər* (H.A.) (təkid).

**Nida cümlələri** də danışanın məqsədinə uyğun məna çalarları yaradır ki, bunlar nitqin ekspressivliyini, emosionallığını artırır, təsirini gücləndirir. Nidalar müxtəlif hissi halları – ağrı, təəccüb, təlaş, iztirab, yorğunluq, qorxu, kədər, həsrət, çağırış, müraciət, yalvarış və s. ifadə etməklə fərqli intonasiyalarla söylənilir. *Pəh-pəh, əcəb söz eşidirik, bu da bizim oxumuş, sahib-kamal qarda-şımız!* (N.B.V.) (təəssüf); *Boy, sən burada nə gəzirsən!* (M.S.) (təəccüb); *Afərin, dost, burada sənin sözlərinlə tamamilə şərikəm!* (M.H.) (razılıq); *Bəh-bəh, təbiətin nə gözəl guşələri varmış!* (S.K.) (məmnunluq); *Vay-vay! Nə yaman müşkülə düşdü işim, allah!* (M.Ə.S.) (təlaş) və s.

**Feli sifət, feli bağlama** və **məsdər** tərkiblərinin də fikrin effektli çatdırılması, mənanın qabarıq verilməsi, emosionallığın artırılmasında müəyyən üslubi əhəmiyyəti vardır.

*Ey çılğın küləklər, nəşəniz daşarkən,*

*Bağların şehindən mey sorub coşarkən*

*Nalqıran dağları atlayıb aşarkən,*

*Məni də alınız, uçayım dağlara*

*Könlümdə nə varsa, açayım dağlara.*

(M.M.)

Bu parçada feli bağlama tərkibləri təsriflənən fellə verilən fikrin axıcılığında, təsirli, dolğun olmasında, oxucuya asan çatdırılmasında üslubi əhəmiyyət kəsb edir. Eləcə də **məsdər tərkibləri** cümlədə sözlər arasında əlaqəni yığcam şəklə salır, mənanı dəqiqləşdirir, fikrin qısa və yığcam ifadəsinə xidmət edir.

*Bəzən keçmişləri xatırlamaq da çox ağır olar* (C.C.); *Öz həyatinin meyvəsini babat qiymətə sata bilmək, ildə nağd üç-dörd yüz manat pul əldə etmək arzusu ilə gecə-gündüz çalışırdı (*Ə.Ə.).

Dilimizdə cümlə üzvlərinin məntiqi – qrammatik cəhətdən məqbul sayılan müəyyən **düzülüş ardıcıllığı** vardır: mübtəda xəbərdən əvvəl, təyin təyin olunandan qabaq, zərflik feli xəbərdən əvvəl, tamamlıq xəbərin yanında gəlir. Belə bir ardıcıllıq fikrin ifadəsi üçün yararlı sayılır. Xüsusən, yazılı nitqdə bu sıra düzümü daha çox gözlənilir.

Bəzən fikrin məzmunundan, subyektin məqsədindən asılı olaraq bu sıra pozulur, cümlə üzvləri öz yerlərini dəyişir. Bu dəyişiklik üslubi effekt yaratmaq, söz və söz birləşmələrini daha çox nəzərə çarpdırmaq məqsədi daşıyır. Belə inversiya şeir dilində özünü daha çox göstərir.

**Xəbərin mübtəda ilə yerini dəyişməsi**

*Dağılın buludlar, kəsilin gurultular, sakit olun ildırımlar* (Ə.Haqver-diyev); *Sızlar yada düşəndə ürəyimin telləri, O mehriban, o aziz tələbəlik illəri* (C.H.); *Lalə, bəsdir! Onu gəl gözləmə sən, Keçdi üstündən o dəhşətli bulud...*

(S.V.). Bu nümunələrdə xəbər (dağılın, sızlar, gözləmə, keçdi) mübtəda ilə yerini dəyişərək cümlənin əvvəlinə keçirilmiş, məntiqi vurğu altına düşmüş, cümlə bütövlükdə güclü emosional rəng almışdır.

**Tamamlığın xəbərlə yerini dəyişməsi**

*Dərdi verək küləklərə, ağlamayaq için-için. Toxum səpək küləklərə, xeyirxahlıq göyərtməkçin* (N.X.).

Tamamlığın xəbərlə inversiyası atalar sözlərində daha çox müşahidə olunur: *Saxla samanı, gələr zamanı; Açaram sandığı, tökərəm pambığı* və s. Müəyyən vasitəsiz tamamlıq olan cümlələrdə məntiqi vurğu mübtəda üzərinə düşərsə, həmin söz (mübtəda) xəbərin əvvəlinə gətirilir. Məsələn, *Əhvalatın hamı-sını mən bilirəm* (Ə.Haqverdiyev); *Nənəmdən xoş xəbəri mən gətirmişəm* (Ə.M.).

**Təyinin təyin olunan sözlə yerini dəyiÇməsi**

*Ürək böyük, arzular çox, yollar uzun, səbrimsə az* (C.V.); *Buludlar don geydi sarı, qırmızı* (N.X.)

Cümlədə üzvlərin yer dəyişməsi bütün hallarda müəyyən sözün daha çox nəzərə çarpdırılması tələbindən irəli gəlir ki, bu da nitqdə ifadəliliyi artırır, emosionallığı gücləndirir, məntiqi vurğunu nəzərə çarpdırır, nəticədə üslubi effekt yaranır.

Nitqin emosionallığını artıran, ona üslubi çalarlıq verən vasitələrdən biri də **xitablardır.** Xitablar dinləyicinin diqqətini söylənilən məsələyə cəlb etmək məqsədilə işlənilir. Başqa cür desək, bu vasitə ilə danışan dinləyəni söyləniləcək fikri eşitmək üçün hazır vəziyyətdə saxlayır.

Bundan başqa, xitablar digər məzmunlu cümlələrdə işlənərək nitqə üslubi rəngarənglik verir, onun təsirini artırır. Məsələn: *Xoş gördük, ay Səməd* (İ.A.) (səmimiyyət); *Ay aman! Heydər bəy, Səfər bəy, yetişin mən boğuldum!* (qorxu, təlaş) (M.F.A.); *Əzizim, dedim ki, boz at sağalan kimi səni tərkimə alıb dağlara aparacağam* (əzizləmə, istək); *Ay ana, təqsirin hamısı məndədir* (M.İ.) (etiraf) və s.

Bir sıra hallarda danışan cansız qüvvələrə müraciət edir ki, belə xitablar üslubi məqsəd daşıyır. Sırf ekspressiv səciyyə kəsb edən bu xitablar bədii ədəbiyyat üçün səciyyəvidir:

*Lalə, rəngindəki yanğın de, nədən?*

*Niyə məlulsan, a dağlar qızı, sən*? (S.V.)

*Çiçəyini, gülünü sevdim, Vətən!*

*Obanı, elini sevdim, Vətən!* (N.K.)

Bəzən daha güclü üslubi effekt yaratmaq məqsədilə xitablar təkrar olunur:

*Bakı, Bakı, ana Vətən!*

*Bizə şöhrət yarandın sən*! (S.V.)

*Bəziniz uyqulu, bəziniz uyqusuz*

*Küləklər, küləklər, ey əziz küləklər* (M.M.)

Müxtəlif hissi halları ifadə edən cümlələrdə xitablar bəzən nidalarla işlənir ki, bu ekspressivliyi artırır, məna çalarları yaradır:
*Ah, mehriban ana! Ah, əziz ana!*

*gündən bəridir, həsrətəm sana* (S.V.)

Sintaksisin üslubi imkanları, şübhəsiz ki, yuxarıda deyilənlərlə məhdudlaşmır. Digər sintaktik quruluşların - təktərkibli cümlələrin, söz-cümlələrin, mürəkkəb cümlələrin və sairənin də nitqin obrazlılıq və ifadəliliyini yaratmaq, təsir gücünü artırmaq, incə məna çalarlarını yaratmaq imkanları vardır. Natiq ünsiyyət prosesində onlardan istifadə edərək nitqini zənginləşdirməlidir.

**ƏDƏBİYYAT**


61. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
62. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
63. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
64. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
65. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu-14
## Azərbaycan dilinin funksional üslubları

Funksional üslublar ədəbi dilin insan fəaliyyətinin ayrı-ayrı sahələrinə uyğun işlədilməsidir. Başqa sözlə, üslublar nitqdə təzahür edir. Ona görə də dilin üslubları müəyyən vəzifə yerinə yetirdiyi üçün dilçilikdə funksional adlanır.

Funksional üslub meyarı. Dilçilik elmində üslubların müəyyənləşdirilməsinə dair hərtərəfli əsaslandırılmış dəqiq meyar yoxdur. Lakin bununla bərabər, ayrı-ayrı dövrlər üzrə üslubların müəyyənləşdirilməsində bəzi zəruri əlamətlərin əsas götürülməsi mülahizələri mövcuddur. Məsələn, *müasir üslubların* varlığının və müstəqilliyinin müəyyənləşdirilməsi meyarı üçün iki amil zəruri hesab edilir:

a) Üslub adlandırılan hər hansı ədəbi dil müxtəlifliyi gərək insan fəaliyyətinin müəyyən sahəsində geniş işlənilsin və müəyyən vəzifə yerinə yetirsin. Məsələn, insanların elmi fəaliyyət sahəsində elmi üslubdan istifadə etdiyi kimi.

b) Belə ədəbi dil müxtəlifliyinin hər birinin lazımi qədər fərqləndirici ifadə vasitələrinin olması.

Bu başlıca üslub *müəyyənləşdirici amillərlə* yanaşı, dilin hər bir üslubi əlaməti də nəzərə alınmalı olur. Üslubiyyat tarixində funksional üslubların təsnif edilməsi təcrübəsində daha çox leksikaya əsaslanmaq ənənəsi olmuşdur. Dilin leksik əlaməti ilə yanaşı, fonetik, onomastik, frazeoloji, qrammatik cəhətlər və *ünsiyyət şəraitini* nəzərə alıb ədəbi dilin funksional üslublarını müəyyənləşdirmək daha düzgün yoldur.

***Funksional üslubların yaranması.*** Dil kommunikasiya vasitəsi kimi insan fəaliyyətinin bütün sahələrində, o cümlədən məişətdə, elmdə, təhsildə, ictimai həyatda, siyasətdə, iqtisadiyyatda, sənayedə və s. istifadə olunur. Dildən bu müxtəlif sahələrdə istifadə olunarkən bu və ya başqa şəraitdə fikrin ifadə edilməsi məqsədi ilə dil vasitələrini seçib işlətmək əsasında onun üslubları yaranır. Hər bir üslub mövcud dilin *milli xüsusiyyətləri* əsasında qurulur.

Üslub — dil vasitələrindən məqsədyönlü şəkildə istifadə üsuludur. Üslubları öyrənən dilçilik bölməsi üslubiyyat (stilistika) adlanır.Üslublar həm ümumi, ictimai baxımdan, həm də xüsusi, fərdi baxımdan özünü göstərir. Birinci halda, yəni ümumi, ictimai məzmun daşıdıqda funksional üslublar ortaya çıxır. Funksional üslublar bütövlükdə ədəbi dili təşkil edir.

**Fərdi üslub** xüsusi səciyyə daşıyır və əsasən, bir görkəmli şair və ya yazıçıya aid olur. Məsələn, *Füzuli üslubu, Sabir üslubu* və s. Fərdi üslub bədii üslubda daha qabarıq şəkildə özünü göstərir. Fərdi üslub ayrı-ayrı sənətkarların ümumi dünyagörüşü, təfəkkürü ilə sıx bağlıdır. Ədəbi dilimizin tarixində *Nəsimi üslubu, Füzuli uslubu, Sabir üslubu* səciyyəvi xüsusiyyətləri ilə daha çox məşhur olan fərdi üslublardır. Fərdi üslub bəzən bir qrup şair və ya yazıçıya da aid ola bilir. Məsələn: *Molla Nəsrəddinçilər üslubu.* Fərdi üslubu ictimai - tarixi şərait yetişdirir. Funksional üslubların yaranmasına və formalaşmasına aşağıdakı amillər xüsusi təsir göstərir:

*a) milli ənənə; b) milli mədəniyyət; c) dövlət quruluşu; ç) dini təbliğat; d) dil kontaktı; e) dil siyasəti* və s.

Ədəbi dilin funksional üslublarının yaranması və fəaliyyət dairəsi eyni olmur. Məsələn, Azərbaycan dilində bədii üslubun tarixi qədim, lakin elmi üslubunki isə nisbətən son dövrlərlə bağlıdır.
Dünya dillərində funksional üslubların yaranma tarixini iki yerə bölmək olar: yazıyaqədərki və yazı ənənəsindən sonrakı dövrlərdə üslublar.

**1.Yazıyaqədərki dövrdə funksional üslublar.** Məlum olduğu üzrə *"üslub"* anlayışı ədəbi dillə bağlıdır. Ədəbi dil isə şifahi təşəkkül tapmışdır. Bu konsepsiyaya əsasən şifahi ədəbi dilin yarandığı ilk dövrlərdən bəsit də olsa, onun bəzi funksional üslubları meydana gəlmişdir.
Həmin üslublar belədir:

Poetik üslub
- Folklor(şifahi xalq ədəbiyyatı)

Ədəbi söhbət üslubu
- məişət-ədəbi söhbət üslubu
- rəsmi-ədəbi söhbət üslubu

Yazıyaqədərki dövrlərdə şifahi ədəbi dilin funksional üslubları sistemində *poetik funksional üslubun* xüsusi yeri olmuşdur. Çoxəsrlik tarixi müddətdə yaranan bu üslub bir sıra janrlarla bağlı idi. Burada bayatı, nağıl, dastan mikroüslublarından geniş istifadə edilmişdir. Şifahi ədəbiyyat – ağız ədəbiyyatı poetik üslubun yaranması və formalaşmasında xüsusi rol oynamışdır. Bəzən şifahi ədəbiyyatı bədii ədəbiyyata qarşı qoyub, orada bədiilik olmadığı fikrini irəli sürənlərə də rast gəlmək olur. Bu, doğru deyildir. Folklor bədiiliyi, folklor poetikliyi söz sənətində ilkindir, güclüdür və təsirlidir.
Yazıyaqədərki şifahi ədəbi dilin *ədəbi söhbət funksional üslubunun* tarixi də qədimdir. Bu üslub hər bir dildə uzun illər yazı ənənəsi olmayan şəraitdə yaranır. Bu üslub dilin ictimai vəzifəsini yerinə yetirərkən onun iki mikroüslubu meydana gəlmişdi.
Məişət-ədəbi söhbət mikroüslubunda *ata qayğısı – ana nəvazişi, ata məsləhəti – ana nəsihəti* üçün ədəbi səciyyəli söz və ifadələr – dil vahidləri seçilib işlədilmişdir. Rəsmi-ədəbi söhbət üslubunda da müxtəlif ricalar, xahişlər üçün mədəni söz tərkibinə, ifadələrə müraciət olunmuşdur. Yazıyaqədərki Azərbaycan şifahi ədəbi dilində həm *poetik funksional üslub*, həm də *ədəbi söhbət funksional üslubu* fəaliyyət göstərmişdir.

2. **Yazı ənənəsindən sonrakı dövrlərdə yaranan üslublar.** Ədəbi dil yazı ənənəsinə nail olduqdan sonra iki formada – şifahi və yazılı şəkildə fəaliyyət göstərməyə başlamışdır. Yazılı ədəbi dilin yaranması funksional üslubların meydana gəlməsi və formalaşmasında xüsusi rol oynamışdır. Yazı yaddaşında həkk olunan hər hansı ədəbi-mədəni dil əlamətləri, normaları, qaydaları və sair geniş xalq kütləsinə xidmət etmiş, get-gedə möhkəmlənmiş və sabitləşmişdir. Hər hansı bir dilin yazı ənənəsi yarandıqdan sonra onun üslublar sistemi genişlənməyə,

formalaşmağa və təkmilləşməyə doğru istiqamətlənmişdir. Bu dövrlərdə mövcud olan üslublar üç növə bölünür: şifahi ədəbi dilə məxsus olan (ədəbi danışıq üslubu); yazılı ədəbi dilə aid olan (epistolyar üslub); həm şifahi, həm də yazılı dilə mənsub olan (rəsmi üslub, publisistik üslub və sair).

Ümumi dilçilikdə dünya dillərinə məxsus onlarca funksional üslub müəyyənləşdirilmişdir: *elmi üslub, publisistik üslub, kargüzarlıq üslubu, arxaik üslub, natiqlik üslubu, təntənəli üslub* və sair. Göstərilən üslubların hamısı ədəbi dil üçün funksional üslub hesab edilə bilməz.

Dünya xalqlarının, o cümlədən türkdilli xalqların yazılı ədəbi dillərində bir çox funksional üslub yaranıb formalaşmışdır. Bütün dillərdə üslublar sisteminin yaranma tarixi, kəmiyyət və keyfiyyət əlamətləri eyni olmur. Müasir Azərbaycan ədəbi dilindəki funksional üslubların miqdarı haqqında da müxtəlif fikirlər mövcuddur.

***Funksional üslubların inkişafı.*** Dünya dillərində təşəkkül tapmış hər bir funksional üslub tədricən zənginləşmə və təkmilləşmə yolu keçir. Funksional üslubların inkişaf tarixi ümumxalq dilinin ədəbi qolunun tarixi ilə bağlı olur. Üslubların inkişafı dilin funksional inkişafı deməkdir.

**Müasir dövrdə funksional üslublar.** Dilçilik tarixində "müasir dövr" dedikdə, XX əsr nəzərdə tutulur. Müasir dövr üçün səciyyəvi olan dünya dillərində bir-birinə az və ya çox oxşar olan, yaxud da tamamilə fərqlənən onlarca funksional üslub müəyyənləşdirilmiş və bu anlayışlar müvafiq terminlərlə adlandırılmışdır: danışıq üslubu, məişət danışıq üslubu, gündəlik məişət üslubu, loru danışıq üslubu, natiqlik üslubu, bədii üslub, şifahi bədii üslub, ədəbi-bədii üslub, poetik üslub, elmi üslub, elmi-publisistik üslub, istehsalat əmək üslubu, publisistik üslub, ictimai publisistik üslub, siyasi publisistik üslub, siyasi qəzet üslubu, rəsmi üslub, rəsmi kargüzarlıq üslubu, kargüzarlıq üslubu, rəsmi sənədlər üslubu, arxaik üslub, akademik üslub və sair.

İnkişaf etmiş müasir dillərdən biri kimi Azərbaycan ədəbi dilinin materialları əsasında XX əsrin II yarısında funksional üslubların aşağıdakı növlərini göstərmək olar: *ədəbi danışıq üslubu, bədii üslub, elmi üslub, rəsmi üslub, publisistik üslub və epistolyar üslub.*

Hər bir funksional üslubun konkret üslubi *göstəricisi* olur. Üslublar dil əlamətlərinə – *fonetik, lüğəvi, qrammatik* və başqa cəhətlərinə, işlənmə və anlaşılma dərəcəsinə görə bir-birindən fərqlənir.

**1. Ədəbi danışıq üslubu.** Dilçilik elmində ədəbi danışıq üslubu haqqında fikir müxtəlifliyi vardır. Bəzi alimlər bu dil hadisəsini üslub hesab etmirlər. Bəzi dilçilər isə bunu üslub kimi qəbul edir, lakin bu üslubun istifadə olunmasına dair müxtəlif fikirlər irəli sürürlər. Belə ki, bəziləri bu üslubun ancaq məişətdə, digəri isə yalnız elmi məclisdə işləndiyini göstərir. Bu fikirlər ədəbi danışıq üslubunun istifadəsini doğru olmayaraq, son dərəcə məhdudlaşdırır.

*İstifadə dairəsi.* Ədəbi danışıq üslubunun istifadə olunma dairəsi çox geniş əhatəlidir. İxtisasından, bilik və bacarığından asılı olmayaraq hamı bu üslubdan gündəlik istifadə edir. Dilçilikdə ədəbi danışıq üslubu üçün müəyyənləşdirici başlıca əlamət haqqında müxtəlif mülahizələr vardır. Bir qrup dilçi bu üslub üçün qeyri-rəsmi danışığı, digəri isə şifahi xarakterdə olması əlamətini əsas götürür. Lakin deməliyik ki, bu üslub funksional üslub meyarına tam uyğun gəlir və ədəbi dil sistemində müstəqil yerə malikdir.

*Janrları.* Ədəbi danışıq üslubunun tərkibində müxtəlif növ janrlar mövcuddur:

1) məruzə;

2) mühazirə;

3) çıxış;

4) müsahibə;

5) söhbət və s. Bu janrlar məzmun və formaca fərqləndiyi kimi, üslubi çalarlığa görə də bir-birindən ayrılır və seçilir.

*Mikroüslubları.* Ədəbi danışıq üslubunun aşağıdakı mikroüslubları vardır: a) rəsmi ədəbi danışıq üslubu; b) qeyri-rəsmi ədəbi danışıq üslubu.

*a) Rəsmi ədəbi danışıq üslubu.* Ünsiyyətin tələb və məqsədi ilə əlaqədar olaraq bu mikroüslubun tərkibində bir neçə müxtəlif üslub variantı özünü göstərir:

1. Mühazirə üslubu; 2. Məruzə üslubu; 3. Çıxış üslubu; 4. Televiziya üslubu; 5. Radio üslubu.

Rəsmi ədəbi danışıq üslubuna kodlaşdırılmış ədəbi danışıq üslubu da deyilir. Burada kitab dilinə yaxın danışılır, ədəbi norma və qaydalardan kənara çıxılmır.

*b) Qeyri-rəsmi ədəbi danışıq üslubu.* Ədəbi danışıq üslubunun bu növünü aşağıdakı üslub variantları təşkil edir:

1. Ailə-məişət danışıq üslubu; 2. İctimai-kütləvi danışıq üslubu.

Dilçilikdə qeyri-rəsmi ədəbi danışıq üslubu “adi danışıq üslubu” termini ilə də göstərilir. Bu növ üslub variantı “sərbəstlik” əsasında yaranır. Başqa sözlə desək, burada danışıq – dil vahidlərindən istifadə sərbəst olur.

*Dil əlamətləri.* Ədəbi danışıq üslubunun dil əlamətləri aydın şəkildə digər üslublardan seçilir. Bu üslub linqvistik cəhətdən ümumxalq dilinin danışıq dili qoluna da yaxındır. Adətən, üslubların tərkibində aşağıdakı sahələrdə fərqlər özünü göstərir:

*a) Fonetika sahəsində.* Ədəbi dilin danışıq üslubunda sözlərin tələffüzü şəraitlə, məqamla bağlı alçaq və ya ucadan ifa edilir. Bəzi sözlər natamam tələffüz olunur. Danışıq prosesində intonasiya əlamətləri də xüsusi üslubi vəzifə yerinə yetirir.

*b) Lüğət tərkibi sahəsində.* Ədəbi danışıq üslubu üçün ümumişlək sözlərdən çox istifadə edilməsi səciyyəvi hal hesab olunur. Belə üslubda mənası ağır və ya anlaşılmaz sözlərə, demək olar ki, yer verilmir. Səs təqlidi, emosional sözlər bu üslubda bol-bol işlədilir. Şifahi ədəbi danışıq üslubunda frazeoloji vahidlərin işlənilməsinin də xüsusi rolu vardır. Bu üslubda geniş formada özünə yer tapan

frazeoloji vahidlər üslubda milli koloriti artırır, ünsiyyətin aydın və axıcılığını, yığcamlığını təmin edir.

*c) Qrammatika sahəsində.* Morfoloji baxımdan yanaşıldıqda ədəbi danışıq üslubunda bir qrup sözün – nitq hissələrinin daha çox işlənildiyi müşahidə edilir. Danışıqda əsas nitq hissələrindən əvəzliklər və fellər daha çox işlənir. Məsələn: *Mən gördüm. Sən danışdın. Onlar yazdılar. Biz görüşdük* və s.

Ədəbi danışıq üslubunda qeyri-müəyyən nitq hissələrindən *nida* və *modal* sözlərə də tez-tez müraciət olunur. Bu qrup sözlər nitqin emosional-ekspressiv keyfiyyətini artırır. Bu üslubu bir sıra sintaktik dil əlamətləri də səciyyələndirir. Burada yarımçıq və müxtəsər cümlələr geniş yer tutur. Ədəbi dilin bu üslubunda *mimika* və *jestlərdən* geniş istifadə olunur. Bunlar dinləyicini səfərbərliyə almaqda, fikri gücləndirməkdə danışana kömək edir.

**Epistolyar üslub.** Epistolyar üslub tarixən müxtəlif növ məktubların meydana çıxması əsasında yaranıb formalaşmışdır.

*İstifadə dairəsi.* Məktublaşma sənədləri ədəbi dilin *epistolyar funksional* üslubunda yazılır. Buna şəxsi yazışma üslubu da deyilir. Məktublaşma, əsasən, ikitərəfli olur. Hər hansı bir məktub adresata göndərilir və onun cavabı da gözlənilir.

*Janrları: 1) Ailə-məişət məktubları.* Bu növ məktubların məzmununda hal-əhval bilməklə yanaşı, informasiya vermək də xüsusi yer tutur. *2) Dostluq məktubları.* *3) Rəsmi məktublar.* Bu, əsasən, dövlət xadimlərinin bir-birinə olan yazışmalarına məxsus məktublardır. Belə yazışmalarda son dərəcə zəruri olan siyasi, iqtisadi və digər məsələlərə toxunulur. *4) Açıq məktublar.* Bu növ məktublar, adətən, mətbuatda dərc edilir. Bunun məzmunu tənqid və müraciətlə bağlı olur. Açıq məktublar, digərlərindən fərqli olaraq, həm şəxsi, həm də kollektiv şəkildə yazıla bilir.

*Dil əlamətləri:*

1) Hadisənin I şəxs tərəfindən nəql edilməsi və buna müvafiq 1 şəxs əvəzliyinin işlənilməsi;

2) Nəzərdə tutulan adresata müraciət və II şəxs əvəzliyinin tək və ya cəminin varlığının mövcud olması;

3) Tərkiblər və söz birləşmələri kimi dil vahidlərinin, xüsusən məktubların əvvəlində və sonunda özünü göstərən (ştamplar) standartların olması;

4) Müxtəlif quruluşlu xitabların işlənməsi.

Epistolyar mətnlərin (məktubların) tərkibi, əsasən, üç komponentdən ibarət olur:

a) Başlanğıc hissə; b) Əsas hissə; c) Sonluq.

Başlanğıc hissədə, əksər hallarda, adresata müraciət edilir və bundan sonra ötəri olaraq hal-əhval soruşulur. Əsas hissə ortada verilir. Burada adresata hər hansı bir informasiya məlum edilir, yaxud adresatı düşündürən məsələlər barədə mühakimə yürüdülür, yaxud da hər hansı hadisə nəql olunur və s. Məktubun sonluğu yekunlaşdırıcı xüsusi, xarakterik ifadə və cümlələrlə tamamlanır.

**Məişət üslubu**. Məişət üslubu - gündəlik həyatda insanların bir-biri ilə ünsiyyət saxladığı dildir. Məisət üslubu kitab-qəzet dili deyil, eyni zamanda məhəlli səciyyə

də daşımır. Məişət üslubu ədəbi dilin ən geniş yayılmış üslubudur. Məişət üslubunun əsas səciyyəvi xüsusiyyəti sərbəstliyi və yığcamlığıdır. Məişət üslubunun canı dialoji nitqdir. Dialoji nitq dedikdə iki nəfərin gündəlik həyatda üzləşdiyi zaman istifadə etdiyi dil, üslub nəzərdə tutulur. Məişət üslubunun sərbəstliyi və yığcamlığı dialoji nitqdə daha qabarıq şəkildə özünü göstətirir. Dialoji nitqdə intonasiya və jest — hərəkət mühüm rol oynayır, yarımçıq cümlələr çox işlənir.

Ümumiyyətlə, deməliyik ki, bu və ya başqa bir üslubun yaranma tarixi müəyyən zamanla – əsrlə bağlıdırsa, onun formalaşması və inkişafı xalqın əsrlər boyu əldə etdiyi nailiyyətlərin nəticəsidir.

**ƏDƏBİYYAT**


66. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
67. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
68. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
69. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
70. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001


## Mövzu: 15

## Nitqin etik məsələləri.

Nitq mədəniyyəti, sadəcə, danışıq etiketlərindən, bəlağətli çıxışlardan ibarət deyil, həm də cəmiyyətdə baş verən bütün proseslərin inikası, təzahürüdür. Nitq mədəniyyətinə cəmiyyətdə baş verən mədəni amillərdən kənarda yanaşmaq olmaz. Dil və nitq dialektik vəhdətdədir, dil cəmiyyətdə baş verən sosial-siyasi prosesləri əks etdirir, eyni zamanda dünyagörüşümüzü formalaşdırır. Cəmiyyətin nitq mədəniyyəti onun ana dilinə olan münasibəti ilə təyin olunur, ana dilinin səviyyəsi və vəziyyəti isə millətin (sosiumun) inkişaf səviyyəsini müəyyən edir.

Nitq mədəniyyəti hər bir konkret dilin orfoepik, orfoqrafik, leksik, qrammatik və s. normalarını, ekspressiv imkanlarını, eləcə də yaxşı danışmaq və yazmaq yollarını müəyyənləşdirən nəzəri və təcrübi biliklər kompleksidir. Nitq mədəniyyəti müasir dil normaları və etikanı nəzərə almaqla dil vasitələrinin elə bir düzümü və təşkilidir ki, kommunikativ ünsiyyətdə çox böyük nəticə əldə etməyə imkan verir. Mədəni ünsiyyət bacarıqlarının uğurlu realizəsinin əsasında nitq etiketlərinin formulları

durur. Nitq etiketləri işlənmə sferasına görə də fərqlənir. Məsələn, işgüzar nitq etiketləri, akademik nitq etiketləri.

**Etika.** Hələ qədim dövrlərdən başlayaraq etika "insan necə hərəkət etməlidir?" sualına cavab axtarmış, əxlaqın mənşəyi və mahiyyəti məsələləri ilə məşğul olmuşdur. Qeyd etmək lazımdır ki, pedaqogika, psixologiya, sosiologiya, sosial psixologiya, məntiq, etnoqrafiya və b. elmlər də əxlaqı öyrənir. Lakin etikanın spesifikliyi ondadır ki, əxlaq onun yeganə tədqiqat obyektidir. Etikanın başlıca predmetini əxlaq, onun təşəkkül qanunauyğunluqlarının tədqiqi təşkil edir. Burada nəzəri və normativ etika vəhdət halında götürülür. Etika əxlaqın mənşəyini son nəticədə cəmiyyətin iqtisadi münasibətlərində axtarır. Çünki cəmiyyətdə iqtisadi-siyasi münasibətlərin dəyişməsilə yeni əxlaqi münasibətlər, davranış normaları yaranır. Əxlaq cəmiyyətdə insanlar arasında qarşılıqlı münasibətləri tənzim etmək tələbatından doğmuşdur, özünün ictimai funksiyasını yerinə yetirərkən isə ictimai rəyə, könüllülüyə əsaslanır. Əxlaqi münasibətlər, şüur və fəaliyyətin əsas ünsürləri öz təcəssümünü etikanın kateqoriyalarında tapmışdır. ***Etiket*** sozü fransız mənşəlidir (etiquette) mərasim, təşrifat. Bu söz ilk əvvəllər məhsulun, malın üstünə yapışdırılan, üzərində onun adı, qiyməti və s. olan yarlıq (etiket) mənasını daşıyırdı. Lakin sonralar saray mərasimləri, təntənələri belə adlandırılmağa başladı. Fransız mərasimləri və təntənələrinin Avstriya sarayında qəbul edilməsindən sonra etiket sözü ikinci mənada başqa dillərdə də qəbul olundu. Hal-hazırda etiket sözü 1) monarx saraylarında, diplomatik dairələrdə və s.-də qəbul edilmiş davranış qaydaları; 2) hər hansı bir cəmiyyətdə qəbul edilmiş davranış, nəzakət forması mənalarında işlənir.

**Nitq etiketi və etikanın qarşılıqlı əlaqəsi və fərqi.** Müasir nitq etiketi anlamında müxtəlif ünsiyyət şəraitində nitq davranışının müxtəlif qaydaları nəzərdə tutulur. Nitq etiketi və etika bir-birilə qarşılıqlı münasibətdə olan iki anlayışdır. Daha doğrusu nitq etiketlərinin əsasında müəyyən mənada etika, əxlaq dayanır. ***Etika*** insanın daxili aləmi, mənəvi zənginliyi, əxlaqi normaların təcəssümünü ifadə edirsə, ***nitq etiketləri*** xarici etik davranış normalarını nəzərdə tutur. Müasir dövrümüzdə hər

hansı fəaliyyət sahəsində davranış üçün müəyyən olunmuş qaydaların cəmi mənasında *reqlamentasiya* sözü də işlədilir. Son zamanlar müəyyən sosial qrupların zövqü, ədəb qaydaları, əxlaqi keyfiyyətləri və təcrübəsini əks etdirən işgüzar etiket və akademik etiket anlayışları geniş yayılaraq qəbul olunub. İşgüzar və akademik etiket ünsiyyət qaydalarına uyğun davranış normalarını nəzərdə tutur. Ünsiyyət insanın cəmiyyətdəki fəaliyyətini təmin edən proses olduğu üçün burada ilk növbədə nitq etiketlərinin xüsusiyyətləri nəzərə alınır.

**Nitq etiketinin mahiyyəti**. Nitq etiketi mədəniyyətin mühüm komponentidir. Nitq etiketi dildə şəxsiyyətlərarası münasibətlərin göstəricilərindən biridir və cəmiyyətdə ümumi etik davranış normaları sisteminin ayrılmaz tərkib hissəsidir. Nitq etiketi – tələb və norma kimi spesifik milli verbal vahidlərin mikrosistemidir. Bunlar həmsöhbətlərin əlaqə qurması üçün cəmiyyət tərəfindən qəbul edilmiş və yazılmış vahidlərdir. Nitq etiketləri nitq davranışları qaydalarına görə ünsiyyətin və bu zaman arzu olunan tonallığın qorunması üçün istifadə olunan vahidlərdir. Başqa sözlə, bunlar elə nitq vahidləridir ki, onlar vasitəsilə müraciət, diqqətin cəlb edilməsi, salamlaşma, sağollaşma, tanışlıq, üzrhaqlıq, minnətdarlıq, təbrik, arzu, xahiş, dəvət, başsağlığı, kompliment və s. həyata keçirilir.

Müasir dövrümüzdə ***nitq etiketi*** anlayışı müxtəlif ünsiyyət şəraitində istifadə olunan nitq etiketi vasitələri və qaydalarının məcmusu kimi başa düşülür. İnsanın fəaliyyət göstərdiyi müxtəlif sferalarda fərqli etiket vasitələrindən istifadə olunur. Etiket milli hadisədir və o, dilin daşıyıcıları olan xalqın adət və ənənələri ilə bağlıdır. Dünya xalqlarının adət və ənənələri isə çox müxtəlifdir. Buna görə bir xalqın nəzakətli hesab etdiyi şey digərinin öz həmsöhbətinə qarşı nəzakətsiz davranışı kimi başa düşülə bilər. Nitq etiketi müxtəlif ünsiyyət şəraitində həmsöhbətlərlə lazımi əlaqə yaratmağı müəyyən edir, ünsiyyətdə olanların qarşılıqlı əlaqələrinin müxtəlif xarakterini əks etdirir. Nitq etiketi ünsiyyətin şəraitinə və parametrlərinə uyğun olaraq müəyyən edilir: həmsöhbətlərin şəxsiyyətlərinə, mövzuya, yerə, zamana və ya vaxta, motiv və məqsədə görə. Nitq etiketi ilk növbədə adresata yönəldilmiş dil hadisələri kompleksini əks etdirir və bir neçə funksiyanı yerinə yetirir: 1)

həmsöhbətlər arasında əlaqənin qurulmasına kömək edir; 2) hörmət göstərməyə təsdiq etmək imkan verir; 3) baş verən verən ünsiyyətin statusunu müəyyən etməyə kömək edir (dostcasına, işgüzar, rəsmi və s.); 4) ünsiyyət üçün əlverişli emosional mühit formalaşdırır və dinləyicilərdə xoş təsir oyadır.

Nitq etiketləri danışan və onun adresatı; onların bir-birilə tanış olub-olmamaları; bərabər və qeyri-bərabər münasibətlərin yaşa və ya xidməti vəziyyətlərinə görə olduğu; şəxsi münasibətləri; ünsiyyətin hansı şəraitdə (rəsmi və ya qeyri-rəsmi) baş verdiyi barədə sosial informasiyanı ötürür. Etiket formalarına **nəzakət bildirən** (çox sağ olun, bağışlayın, buyurun, təşəkkür edirəm, üzr istəyirəm və s.); **salamlaşma və sağollaşma** (salam, sağ olun, xudahafiz, sağlıqla qalın, görüşənədək və s.) sözləri aiddir.

**Azərbaycan dilinin etiket formulları** – cəmiyyət tərəfindən qəbul olunmuş sabit ifadələrdir. Onlar praktik olaraq həyatın hər bir anı üçün yazılı və şifahi formalarda bütün üslub və janrlarda nəzərdə tutulmuşdur. Etiket qaydalarına əməl olunması cəmiyyətin yazılmamış qanunları, normalarıdır. Ünsiyyət zamanı insanların bir-birinə necə müraciət etməsindən onların mədəniyyəti, tərbiyəsi, həmsöhbətinə hörmətli və s. münasibəti müəyyən olunur. Öz nitqində situativ olaraq nəzakətlilik formullarından düzgün istifadə etmək bacarığı, mövzunun məntiqi və emosional məzmununa müvafiq öz fikirlərini ifadə edə bilmək, oxucunun, dinləyicinin tərkibinə, çıxışın emosional, etik, əxlaqi məsələlərinə görə şifahi (yazılı) şəkildə şərh etmək nitqin kommunikativliyinin münasiblik keyfiyyətidir. Azərbaycan dilinin özünəməxsus dil xüsusiyyətləri vardır. Adət-ənənələrdə olan keyfiyyətlər dilə də sirayət etmişdir: böyüklərin yanında ( və ya onlardan icazəsiz) danışmaq olmaz, bir söz soruşulursa, ətraflı cavab verilməlidir (vaxt qıtlığı nəzərə alınmır), rastlaşarkən tanımadığın adamlarla da salamlaşmalısan və s. Doğrudur, Avropaya sürətli inteqrasiya dildə də bəzi ümumi qaydalar yaratmışdır, lakin milli qaydalar əsasən gözlənilir.

**İstənilən ünsiyyət aktları başlanğıc, əsas və yekun hissəyə malikdir.** Əgər nitqin ünvanlandığı adam nitqin subyektinə tanış deyilsə, ünsiyyət tanışlıqdan başlayır.

**Tanışlıq etiketləri:** *İcazə ver(in) sizinlə (səninlə) tanış olum.; Mən Sizinlə (səninlə) tanış olmaq istərdim.; İzn verin, sizinlə tanış olum. ; Gəl(in) tanış olaq.; Tanış olaq.; Tanış olsaq, yaxşı olardı.*

Müəssisə, ofis, idarələrdə məmurlardan biri ilə danışıqlar aparmalı və ona özünüzü təqdim etməlisinizsə, aşağıdakı formullardan istifadə edə bilərsiniz:

*İcazə verin (izninizlə) özümü təqdim edim.; Mən Həsən Məmmədovam.; Həsən Məmmədov.*

Bir çox ölkələrdə artıq illərdən bəridir ki, tanışlıq zamanı vizit kartlarından istifadə olunur**.** Bizdə də artıq bu təcrübədən istifadə edilməyə başlayıb. Vizit kartı tanışlıq zamanı qarşı tərəfə təqdim olunur. Kartın təqdim edildiyi adam onu almalı, ucadan oxumalı, sonra söhbətin keçirildiyi otaqda, arxasında əyləşdiyi masanın üzərinə, qarşısına qoymalıdır ki, həmsöhbətinin adını düzgün tələffüz etsin.

Nitq etiketinin daha bir mühüm komponenti **komplimentdir** (iltifatlı söz). Mərifətlə və yerində deyilən kompliment ünvanlandığı insanın əhval-ruhiyyəsini yaxşılaşdırır, onu tərəf-müqabili ilə müsbət münasibət qurmağa istiqamətləndirir. Kompliment söhbətin əvvəlində, görüş, tanışlıq, yaxud söhbət, ayrılma zamanı deyilir. Kompliment hər zaman xoşdur. Lakin səmimi olmayan, son dərəcə heyranlıqla, kompliment naminə deyilən kompliment, bəzən acı sözdən də təhlükəlidir. Kompliment ünvanlandığı şəxsin xarici görkəminə aid ola bilər, insanın yüksək peşəkarlıq qabiliyyətlərini, yüksək əxlaqi keyfiyyətlərini bildirər, ümumi müsbət qiymət verər.

**Müraciət formaları.** Azərbaycan nitq etiketində bir çox müraciət formaları vardır ki, onlardan yerində və düzgün istifadə nitq mədəniyyəti baxımından mühüm əhəmiyyət kəsb edir. İnsanlar bir - birinə müraciət edərkən sadəcə ad demək, ad çəkmək yetərli olmur. Uşağı və ya yaxın dostu, yoldaşı adətən adla çağırırlar. Yaşca böyüklərə, vəzifəli şəxslərə, qadınlara, tanış olmayan şəxslərə müraciət edərkən hörmət bildirən, nəzakətli ifadələrədən istifadə edilir. **Hər bir cəmiyyətdə qəbul olunmuş, sosial davranış kodeksi, qaydaları, ümumiyyətlə, etiket mövcuddur: müraciət edilən şəxsin adı və soyadından əlavə müəyyən ifadələrin işlənməsi zəruri sayılır.** İnsanlara edilən müraciət formaları müxtəlifdir, rəngarəngdir.

Bunların bir qismi qohumluq münasibətini bildirən adlardır. Məsələn, ana, atam balası, atacan, qardaş, bacı, baba, anam-bacım, bala, bacıqızı, bacıoğlu, qardaş, oğlum, qızım, gəlinbacı, xalagəlini, qardaşoğlu, xala, xalaoğlu, qaqaş, bibi, bibiqızı, dayı, dayıcan, dayıoğlu, dayıqızı, əmi, əmioğlu, əmiqızı, əmican, Nərgizcan və s. Bu sözlərlə həm qohumlara, həm də yadlara müraciət olunur. Müraciət bildirən baş sözlərə "ay" vokativ sözü də əlavə olunur: ay dayı, ay bacı, ay qız, ay ana və s. Bu müraciət formalarının bir çoxu adlarla da işlənir. Məsələn, Səfər dayı, Həqiqət xala, İslam əmi və s. Müraciət bildirən sözlərin digər qismi şəxsin cəmiyyətdəki mövqeyi, vəzifəsi, peşəsi, milli və yaş mənsubiyyətini, insanların qarşılıqlı əlaqə və münasibətini ifadə edir. Müəllim, həkim, sürücü, satıcı, mühəndis, biznesmen, fermer, direktor, dekan, müdir, professor və s. belə sözlərdəndir"Müəllim" sözü ünsiyyətdə geniş şəkildə işlənən müraciət formasıdır. Bu söz iki şəkildə işlədilir: həm ayrı, həm də xüsusi vokativ sözlə - adlarla. Təlim-tərbiyə ilə məşğul olan adama, həm də rəsmiyyət və hörmət əlaməti olaraq digər sənət sahiblərinə (müəssisənin direktoru, nazirliyin işçiləri, hökumət rəhbərləri və başqalarına) müraciət zamanı müəllim sözü şəxs adı ilə işlədilir (məsələn, Aslan müəllim, Sərvər müəllim, Həsən müəllim və s.). Yeri gəlmişkən qeyd edək ki, "müəllim" müraciət formasından bəzən uyğun olmayan məqamlarda, yersiz istifadə olunur, işindən, peşəsindən və s. asılı olmayaraq istənilən adama bu adla müraciət edilir. Belə uyğunsuz müraciət həmin sözün ehtiva etdiyi mənaya, məzmuna, şübhəsiz ki, xələl gətirir, tamaşaçını, dinləyicini narazı salır.

Həkim, sürücü, satıcı kimi sözlər həm ayrılıqda, həm də ümumi vokativ sözlərlə (yoldaş, vətəndaş, cənab) işlənir: yoldaş həkim, cənab həkim, yoldaş sürücü, vətəndaş Elxan və s.

Nazir, mühəndis, fermer, direktor, dekan kimi adlar təklikdə müraciət forması kimi işlədilmir. Onlara cənab, yoldaş sözlərindən biri əlavə olunur: yoldaş direktor, cənab nazir, cənab dekan və s. "Rəis" ayrılıqda müraciət forması kimi işlənir.

Bəzən fikir adamları arasında "ustad" müraciət formasından da istifadə olunur. Dinləyicilərə edilən müraciət formasının əvvəlinə əziz, əzizim, hörmətli, möhtərəm

sözlərini də əlavə etmək olar. Məsələn, hörmətli Qabil, möhtərəm İsmayıl müəllim, əziz tələbələr, əziz dinləyicilər, hörmətli xanımlar və s.

Ünsiyyət prosesində yaşca böyük adamlara, tanış olmayanlara (bəzən də qohum və tanışlara), vəzifə sahiblərinə, qadınlara və başqalarına “siz” deyə müraciət olunur. Bu hörmət və ehtiram formasını bəziləri rus etiketinin təsiri sayırlar. Halbuki “hələ XI əsrdə M.Kaşğari yazırdı ki, türklər özlərindən yaşca və vəzifəcə kiçiklərə sən, böyüklərə siz deyirlər (“Divan”, I c., “Daşkənd” nəşri, s.326). Azərbaycan yazılı abidələrində də bunun tarix boyu mövcudluğunu təsdiqləyən faktlar istənilən qədərdir. Ona görə də müasir Azərbaycan etiketində “siz” müraciət formasının işlənməsi heç bir təsirin nəticəsi deyil, əksinə, tam milli xüsusiyyətdir.

“Siz” müraciəti müraciət edənin mədəniyyətinin göstəricisi olub, tərəf–müqabilinə, yaxud həmkarına (həm də özünə) hörməti ifadə edir. Yaxşı tərbiyə almış və mərifətli, işgüzar insan istər bilavasitə rəisi, istər tabeçiliyində çalışan, istər yaşca ondan böyük, istərsə kiçiklə söhbət etməyindən asılı olmayaraq, həmişə bu nəzakətli müraciət formasından istifadə edir. İşgüzar şəraitdə “Sən” müraciəti arzu olunmazdır. Bu müraciətə yalnız qarşılıqlı ola bildikdə, yaxud qeyri-formal münasibətlərə əsaslandıqda yol verilə bilər.

Bir-biri ilə yaxşı tanış olan işgüzar tərəfdaşlar, həmçinin öz iş yoldaşlarına adı və “müəllim” sözü, yaxud soyadına “cənab” sözünü əlavə etməklə müraciət edilə bilər. Yalnız adı ilə, hələ Amerika tərzi ilə qısaldılmış (məs. Abdullaya-Abış, Məzahirə-Məzi və s.) şəkildə müraciətdən çox istifadə etmək lazım deyil. Bizim ölkəmizdə əsrlərdən bəri insana hörmət əlaməti olaraq adının yanına “müəllim, bəy, üsta” və s. artırmaqla müraciət edirlər. Bu bizim ənənəmizdir. Yalnız yaxın iş yoldaşlarına adı ilə müraciət etmək olar, bu şərtlə ki, onlar çox cavandır və belə müraciətə etiraz etmirlər. Yad adama *“vətəndaş”, “cənab”, “xanım”, “xanım qız”, “cavan oğlan”* - deyə müraciət etmək olar.

Müəllimlər şagird və tələbələrə adından başqa oğlum, qızım, bala, əzizim kimi sözlərlə də müraciət edə bilərlər. Qadınlara və kişilərə müraciət zamanı rəsmiyyət və hörmət əlaməti olaraq ***xanım, bəy, ağalar, xanımlar*** sözləri də işlədilir. **Bu sözlərdən iki formada istifadə olunur:** a) təklikdə, sadəcə olaraq xanım, bəy

formasında; b) adlardan sonra. Məs.: Leyla xanım, Rəşad bəy və s. Adamların tez-tez işlətdikləri *ağsaqqal, oğlum, qızım, eloğlu, elli, dədə, elqızı, bibi, nənə, qohum* kimi müraciət formaları nəzakət və hörmət baxımından məqbul sayılır.

Son zamanlar *ağa, bəy, əfəndim* müraciət formalarının işlənməsinə də təsadüf edilir. Ağa müxtəlif mənbələrdə mülkədar, bəy, zadəgan, sahib, böyük qardaş, əmi, ata, yaşlı, savadlı adamlara müraciət forması olaraq kişilərə aid edilmişdir. Bəzən mədəni ailələrdə bacılardan böyüyünə "ağa bacı" deyə müraciət olunma halı da mövcuddur. Tarixən hökmdar, başçı, hakim, böyüklük mənasını ifadə edən bəy sözü, titulu türk dillərində bek, bəy, biy, bey şəkillərində, əsasən, hakim təbəqəyə müraciət forması kimi işlənmişdir. **Hazırda *bəy* formasından məsləkdaşlar bir-birinə müraciət məqsədlilə (çox geniş yayılmasa da) istifadə edirlər.**

Nitqdə hörmət əlaməti olaraq *cənab, cənablarına, zati-aliləri* kimi yeni müraciət formaları da işlənilir. Məsələn, cənab Şeyx, cənab səfir, cənab hakim və s.

**Müraciətlərdən, xitablardan televiziya, radio verilişlərində də istifadə olunur ki, tamaşaçının, dinləyicinin diqqətini cəmləşdirmək, verilən informasiyaya, göstərilən təsvirə, hadisəyə diqqətli olmaq məqsədini daşıyır.** Ən əsası odur ki, bu xitablar xoş, lirik, ürəkaçan bir əhvali-ruhiyyə yaratmaq, səfərbəretmə, ruhlandırma, qürur və fəxr məzmunu bildirmək üçün ən zəruri nitq elementləridir. Onlardan bəzilərini nümunə kimi göstərək: *əziz dostlar, əziz və hörmətli televiziya tamaşaçıları, hörmətli radio dinləyiciləri, əziz analar, bacılar* və s.

**Diskussiya mədəniyyəti.** İnsanlare gündəlik nitq praktikasında başqaları ilə dialoqa, fikir mübadiləsinə, diskussiyaya girirlər. Fikir mübadiləsi müxtəlif məqsədlərə (müəyyən bir informasiya, hadisə barədə məlumatlanmaq, müsahibini nəyəsə inandırmaq, sövq etmək, nədənsə çəkindirmək, deyilənlərə münasibət bildirmək və s.) xidmət edir.

"Dialoq" termini yunanca "dialoqos" sözündən götürülmüş, iki və daha çox şəxsin qarşılıqlı söhbəti, fikir mübadiləsi mənasını ehtiva edir. Geniş mənada dialoq müxtəlif əqidələrə, mədəniyyətlərə, siyasi görüşlərə, düşüncələrə mənsub insanların bir araya gələrək, mədəni ölçülər səviyyəsində bir-biri ilə danışması, müəyyən məsələlərin müzakirə edilməsi yoludur. **Dialoq, əsasən, iki şəraitdə aparılır:**

a) ailədə, küçədə, bazarda, iş yerində, nəqliyyatda, məişət məclislərində, çayxanalarda və s.
b) ictimai yerlərdə, elmi konfranslarda, simpoziumlarda, iclaslarda, tədris auditoriyalarında, radio və televiziya verilişlərində və s.

Hər bir şəraitdə adamların normal fikir mübadiləsi, bir-birini anlaması üçün müəyyən qaydalara, şərtlərə, etik normalara əməl olunmalıdır. Bunlardan ən başlıcası ünsiyyətin səmimiliyidir. Bu o deməkdir ki, birinci şəxs danışarkən digəri (və ya digərləri) onu axıra qədər dinləməli, müsahibinə fikrini açıqlamağa imkan verməli, sonra söhbətə qoşulmalıdır. Müsahibi mətləbdən uzaqlaşdığı, lüzumsuz məsələlərdən danışdığı, təfərrüata yol verdiyi zaman dinləyən tərəf *"İcazə verin", "Üzr istəyirəm", "Sizin bu fikrinizə kiçicik bir düzəliş vermək istəyirəm", "İcazə verin fikrinizə bir qədər aydınlıq gətirim"* və s. kimi replikalarla onun danışığına müdaxilə edə bilər. Diskussiyada iştirak edənlər öz mövqeyini dəyişmək istəmədikdə belə deyilməlidir: *"Mən sənin fikirlərini qiymətləndirirəm. Lakin öz fikirlərimə daha çox əminəm".* Danışan həmkarının fikirləri ilə razı olmaya bilər, lakin bununla belə ortaq məxrəcə gəlmək üçün yolların axtarılmasından imtina etməməlidir. Fikirlər qarşılıqlı anlama şəraitində, etik normalar çərçivəsində müzakirə edilməli, problemin həlli yolu tapılmalıdır.

Rəsmi yerlərdə vacib məsələlərlə bağlı aparılan dialoqlarda tərəflər səbrli və təmkinli olmalı, danışığın etik qaydalarına əməl etməlidirlər. Lakin bəzən belə olmur. Tərəflər mümkün qədər daha çox danışmağa, haqq-nahaq müsahibini susdurmağa, öz dediyini sübut etməyə çalışır, ucadan, qışqıra-qışqıra danışırlar. **Diskussiya zamanı dialoqun tələb olunan qaydada səmərəli keçməsi üçün aşağıdakılar nəzərə alınmalıdır:**

1. Müzakirəyə çıxarılan məsələnin mahiyyəti düzgün anlaşılmalıdır.
2. Müzakirədə müdafiə olunacaq mövqe və ideyalar dəqiq müəyyənləşdirilməlidir. Müzakirə olunan məsələdən yayınmaya yol verilməməlidir.
3. Diskussiyaya hazırlaşarkən bütün mümkün məlumat mənbələri (ilkin mənbələr, statistik məlumatlar, ədəbiyyat və s.) nəzərdən keçirilməlidir.

4. Fikir ayrılığının yaranacağı gözlənilərsə tərəflər öz mövqeyinin müdafiəsi üçün dəlillər, sübutlar hazırlamalıdır. Sübutlar məntiqi təfəkkürə əsaslanmalı, inandırıcı olub qarşı tərəfi qane etməlidir. Dəqiq və aydın faktlar ən yaxşı təkzib üsuludur. Əsaslandırma dəqiq faktlar üzərində qurulmalıdır.
5. Rəqib opponentini diqqətlə dinləməli, onun fikrinin doğru məqamları ilə razılaşmalıdır.
6. Mövqeyinin səhv olduğu sübut edilmiş tərəf opponentinin haqlı olduğunu etiraf etməyi bacarmalıdır.
7. Adamlar deyil, yalnız onların ideyaları tənqid olunmalıdır.
8. Tənqid zamanı emosiyaya qapılmamalı, qəzəblənməməli, təhqir və istehzaya yol verilməməlidir.
9. Diskussiyanın məqsədi qalibi müəyyən etmək deyil, ümumi razılığa nail olmaqdır.
10. Çıxışların sonunda yekun nəticələr qeyd edilməlidir. İstər adi danışıq, istərsə də diskussiya prosesində normal nitq tonuna da riayət olunmalıdır.

*Normal nitq tonu mədəni danışığın başlıca şərtlərindəndir.* Yerindən və məqamından asılı olaraq nitqin yüksək, adi və alçaq tonundan istifadə olunur. Əgər söhbət auditoriya qarşısında gedirsə, natiq bir qədər yüksək tonla danışmalıdır ki, fikrini eşidənlərə yaxşı çatdıra bilsin. Belə nitq tonu təbiidir, dinləyiciləri tam şəkildə razı salır. Digər situasiyada yüksək tonla danışmaq, mübahisə etmək, ucadan gülmək ədəbsizlik və nəzakətsizlik kimi qəbul olunur. Belə danışıq tərzi digərlərini əsəbiləşdirir, onların dincliyini, istirahətini pozur.

**ƏDƏBİYYAT**

71. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı 2017
72. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı: BDU, 2003
73. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı 2017
74. Mustafayeva Q. Azərbaycan dilinin üslubiyyatı. Bakı 2010
75. Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı 2001